İsmayıl Qarayev

ATA HƏSRƏTİ

OĞUL MƏNİMDİR, AMMA…

Ərim öləndə oğlum iki yaşına keçmişdi. O "dədə", "ana" sözlərini yenicə tələffüz edirdi. İməkləyə-iməkləyə yanıma gəlir, dizlərimdən tutub qucağıma dırmaşırdı. Bədbəxt körpə atasının öldüyünü duymasa da mənim bədbinliyimi hiss etmişdi. O əvvəlcə mənim hansı əhval-ruhiyyədə olduğumu anlamağa çalışırdı. Üzümə baxıb ruhi vəziyyətimi müəyyən etməyincə şənlənmək istəmirdi. Mən ağlayanda ağlayır, güləndə gülürdü. Məni kefsiz görəndə otağın bir küncünə çəkilib oturur, qorxu və tələşlə vurnuxurdu. Yanıma çağıranda sevinirdi. Lakin tərəddüdlü addımlarla gəlib bir az kənarda dayanırdı qucağıma atılmağa cəsarəti çatmırdı. Mən qollarımı açanda üstümə atılır, köks ötürmələrinin sayı-hesabı olmurdu; boynumu qucaqlayıb üzünü üzümə söykəyir, sanki deyirdi:

"Dərdin mənə gəlsin ana, az ağla, az məyus ol. Nəyəm ki, məni də öz müsibətinə şərik edirsən". Ərim qara-yara xəstəliyinə tutulmuşdu. Təqsir özümüzdə oldu; üstünə gec düşdük. Xəstəxanaya çatdıranda iş-işdən keçmişdi. O vaxtacan azar öz işini görmüşdü. Həkimlər demişkən üzü, boyun-boğazı qoyub bağırsaqda şiddət eləyən xəstəlik öz dövranını sürüb qurtarmışdı. Əlac olmadı, çarə tapılmadı. Həkimlər çox çalışdılar, kişini əcəlin əlindən ala bilmədilər. Ərim çoban idi. Günümüz yayda yaylaqlarda, qışda isə ovlaqlarda keçirdi. Onun canı buz baltası kimi möhkəm idi. Hər azar-bezar onu yatağa yıxa bilmirdi. Sətəlcəm kimi ağır xəstəliyi ayaq üstə keçirirdi. O ağıldan ağır, ayaqdan yüngül idi. Az danışmağı xoşlayırdı. Hər şeyə baş qoşmazdı. Yeddi il idi evlənmişdik, amma uşaq üzünə həsrət qalmışdıq. Axır ki, üstümüzə gün doğdu, bizim evdən də uşaq səsi gəldi. Oğlum dünyaya gələndə biz yaylaqda idik. Ərim dəyə ilə arxacın arasında yüz cığır salmışdı. Gecələr gah sürüyə, gah da bizə baş çəkirdi. Yanını yerə verib uşağın böyrünə uzanır, körpənin mışıltısını ehtirasla dinləyirdi. Qaranlıq, çənli-çisəkli, yağışlı-yağmurlu gecələrdə itlər zingildəyib sürüyə soxulmaq istəyən canavarları ora-bura qovanda isə səhərəcən yanımıza gələ bilmirdi. Səhərin işıqlı gözü qurd-quşu qaranlığa qatıb qovandan sonra gəlib deyirdi:

- Ay Yaqut, belə zülmət gecələrdə Kamal ağlasa döş verib onu tez kiritmə. Sən tanrı, qoy bir az çox ağlasın, onun səsinə arxacdan qulaq asım. Mənim bir balam var ürəyim dağ boydadır, görəsən çox uşaqlılarınkı nə yekəlikdədir? O həmişə arxaca gedərkən göyə baxıb səhərəcən yanımıza qayıda bilməyəcəyini yəqin edəndən sonra mənə tapşırırdı:

- Sən qardaşının goru Kamal oyanıb küy-kələk salsa onu tez kiritmə. Qoy səsi dağlardan geri dönsün. Lakin son nəfəsində bunu arzulamadı:

- Kamalı ağlatma, ağlatma, eşitdinmi? Mən də ərimin vəsiyyətini unutmadım. Gecələr ağladım, gündüzlər isə onun, yalnız onun xatirinə güldüm. Buna əlbəttə gülmək deməzlər. Çarəm nəydi?! Kamalın ürəyinə körpəlikdən xal salmağa insafım yol vermirdi. Ərim dünyadan üzü sulu köçdü. Gözləri çox şeyləri görmədi. Onun ölümündən az sonra müharibə başlandı. Evimin kişilik borcu, kasadlıq illərinin ağırlığı ilə boynuma bir vaxtda düşdü. Ömrümün yarı yaşında tapdığım səadətin nəsibi yemək-içmək qıtlığı, geyim-keçim qəhətliyi oldu. Çox işlədim, az qazandım. Çörək tapanda paltar qayğısı ürəyimi nəştərlətdi. Bəzən onu da tapa bilmirdim. Əzab çəkən təkcə mən, mənim oğlum deyildi. Kənddə hamı biz günlü idi. Balam ayaqyalın gəzəndə gözlərimin yaşını ürəyimə boşaldırdım. Bir dəfə onun dabanına nar tikanı batmışdı. O axsaya-axsaya evə gəldi. Kamal onda altı yaşa girmişdi. Qonşuların özü yaşlı, dünyadan xəbərsiz uşaqları ilə oynayırmış. Biçənəkdə qaçışıb ötüşürlərmiş. Qarşılarına çatan çəpəri adlamalı olanda yolağada basa-bas düşür. Kamal yıxılır, qalxanda tikan dabanına sancılır. Kamalın dabanından bulaq kimi qaynayan qanı görəndə bağrım yarıldı. Özümü elə itirdim ki, nə edəcəyimi bilmədim. Dəli kimi çölə çıxıb içəri girdim. Qonşuları çağırmaq istədim, səsim çıxmadı, dilim tərpənmədi.

Elə bil dilim ağzımda donmuşdu. Kamalın yoldaşları qapının ağzına yığışmışdılar. Heyrətli gözlərilə mənim divanəliyimə baxıb daha da qorxurdular. Mən eyvana yönələndə bir-birini dala basıb qaranlığa çəkilirdilər. Mətanətimi köməyə çağıraraq Kamalın dabanının qanını tumanımın ətəyilə sildim. Tikanın kökü görünürdü. Xırda tikana oxşamırdı. Onu tutub çıxarmağa çalışdım. Dırnaqlarım ilişmədi. Bəxtimi bir neçə dəfə sınadım, əncam olmadı. Bağırmaqdan Kamalın səsi tutulmuşdu. "Ana!" deməkdən dilində ana bitmişdi. Qan da ki, elə hey, axır, axırdı. Yaxamdan sancağı açıb tikanı qurdaladım. Sancaq ağrını necə artırdısa Kamal qucağımdan sıyrılıb çıxdı, döşəməyə yıxıldı, dişlərini qıcırtdadı, əllərilə yeri cırmaqladı, titrəyərək acı bir fəryad çəkib huşunu itirdi. Mən dəhşət içində əllərimi üzümə çəkdim. Üzümün dərisi dırnaqlarımda gəlmişdi. Onu dalıma alıb doxdurxanaya aparanda həkimlə yolda qabaqlaşdıq. O şivənimi eşidib bizə gəlirmiş. Həkim məsələdən halı olan kimi uşağı dalımdan qucağına aldı. Yaxın olduğu üçün öz evinə apardı. Kamalı divana uzatdı. Qoluna iynə vurdu. Naqqaşı əlinə alıb hələ də özünə gəlməmiş uşağın dabanına baxanda ürəyim sıxıldı, gözlərimə qaranlıq çökdü. Bu zülmətin içində əlvan dairələr uçuşdu. Qollarım boşaldı, dizlərim titrədi. Qulaqlarım cingildəyəndən sonra daha nələr olduğunu bilmədim. Ayılanda gözləri yaşlı Kamalın ayağını tənziflə sarınmış gördüm. Tikan sümüyə çatmağa az qalıbmış. Elə bərk sancılıbmış ki, çıxmaq bilmirmiş, qırıqlanırmış, parça-parça olub naqqaşın ağzında gəlirmiş. Yaxşı ki, həkim əlləşəndə uşaqla mənim - ikimizin də ağlımız başımızda olmayıb. Yoxsa din-imanımız qalmaz, o, ürəyinə vuran ağrıdan ölər, mən isə qorxudan məhv olardım. Görməli günlərimin vəhşəti, sağalmış sandığım yaranın tərs oyunu dalda imiş. Tikan yarası nə yaman işgəncəli, qorxulu olurmuş…

Kamalın yarasını öz həkimimiz sağalda bilmədi. Qılçası şişməyə başladı. Şiş yavaş-yavaş dizinə yeridi. Qonşuların sözünə baxıb ətraf kəndlərdə işləyən tərifli həkimlərin yanına apardım. Onlar da şəfa verə bilmədilər. Bir, iki dəfə yaranı açıb, sarıyıb məni başa saldılar ki, uşağı cərraha çatdırmalıyam, geciksəm o qılçasının birini itirməli olacaqdır. Yenə də qonşuların sözünə inanıb Kamalı pirə apardım. Düzü, pirə, ocağa mənim etiqadım yox idi. Amma mən başı bəlalının çarəsi qalmamışdı, ürəyim yanırdı, üstünə su səpirdim. Kamal arıqlayıb çöpə dönmüşdü. Günəşim batırdı. Ömrümün qaranlıq dünyası yaxınlaşırdı. Bu zülmət içində ərimin səsini eşidirdim. O məni məzəmmətləyirdi:

"Sənə demədimmi Kamalı ağlatma?!" Onu cərraha apardım. Balamın tayqılça qalması qorxusu başımı onca gündə ağartmışdı. Sifətimə qocalıq naxışları vuran qırışlar üzümü elə bir abıra salmışdı ki, baxan mənə yetmiş yaş verərdi. Simamda tale zərbələrinin sıxıntıları, ağrı-acıları əks olunmuşdu. Mən məhrumiyyət mücəssəməsi idim. Könül kamanımı dilləndirən olsa iniltidən, şikayətdən başqa bir səs, bayatıdan, ağıdan qeyri bir mahnı eşitməzdi. Mən kaman hüznlü mahnıları tərənnüm etmək üçün köklənmişdim. Sanki səsimdə tək özümün deyil, böyük bir ailənin iztirabını təcəssüm etdirirdim. Xəncər, bıçaq yarası adı çəkiləndə ətim ürpəşirdi. Bəs cərrah da bıçaqla iş görmürmü?

Nədənsə indi cərrah nəştərinə ümid bağlamışdım. Sanki Kamalın sona yetən ömrünə o, öz bıçağı ilə uzun, yaxşı bir ömür calayacaqdı. Əməliyyat zamanı məni içəri buraxmadılar. Qapının qənşərinə yapışıb qaldım. Kamalın səs-küyü eşidilmədi. Görünür narkoz vermişdilər. Amma buna inanmırdım. Axı həkim "yerli keyləşdirmə" üsulunu tətbiq edəcəyini söyləmişdi. Hər dəqiqəsi, hər saniyəsi bir mənhus ildən ağır olan yarım saatlıq vaxt ürəyimi didə-didə keçdi. "Onu ver, bunu ver, tez ol!" - deyə həkimin şəfqət bacısına verdiyi tapşırıqlar qulaqlarıma çatanda tez ölüb, gec dirilirdim. Kamalın ofuldanmasını, "ana" deyib ağlamasını eşidəndə elə bildim ki, cərrah işə hələ indi başlayır. Sən demə əməliyyatı qurtarıbmış. Kamalı cərrahiyyə otağından xərəklə çıxaranda elə güman etdim ki, onun qılçasını dizdən kəsiblər. Üstünə örtdükləri mələfəni qaldırıb ayaqlarının ikisini də görənəcən məndə can qalmadı. Deyəsən ürəyim dayanmışdı…

… Yeddinci sinifi bitirəndən sonra onu şəhərə, sənət məktəbinə göndərdim. Məqsədim Kamalın əlini çörəyə üç, dörd il tez çatdırmaq idi. Bu etibarsız dünyada çox yaşayacağıma inanmırdım. Kamalın məktublarını tez-tez alırdım. Çoban arvadı olsam da savadsız deyildim. Axşam məktəbinin yeddinci sinfini qurtarmışdım. Məktub oxutdurmaq üçün qonşulara

qaçmırdım. Kamalın hər cümləsinin başında da, ayağında da "ana" sözləri olurdu. Necə yatdığını, necə durduğunu, necə oxuyub işlədiyini birər-birər yazırdı. Onun hər məktubu məni ağladırdı. Sevinc yaşları kirpiklərimdə titrəyirdi. Onun bir ildə əllidən çox məktubunu aldım. Sanki hər məktub oğlumun şəhərdən mənə göndərdiyi bir ürək idi. Bir ildə əlli ürək alan ana tez qocalıb, tez də ölərmi?! Kamalı qış tətilində evimizə buraxmamışdılar. O yay tətilində gəldi. Mən onu ilk baxışda tanımadım. Kamal bircə ildə çinar kim uzanmışdı. Özü də başı açıq gəlmişdi. Elə bildim şapkasını ya yolda itirib, ya da oğurlatdırıb. Başa düşməmişəm, şəhərdə başı açıq gəzmək bir ənənə imiş. Kamalın zərif şivyota oxşar göy qədəkdən şalvar-köynəyi vardı. Batinkası da təzə idi. Paltarının sarı düymələri, kəmərinin dili üzərindəki çəkic-oraq nişanı par-par parıldayırdı. Sanki şəhər həyatı onu rəndələyib şumallaşdırmış, rəngləyib qəşəngləşdirmişdi. Mənə gülməyin, deyəsən ayrılıq çağlarında da, görüş dəmində də ana mehri məhəbbətinin gücü özünü göz yaşlarında, övladı qucaqlayan qollarda göstərdiyi qədər heç bir söz-söhbətə təzahür etmir. Mən onu bağrıma basanda həyətimizdə özümüzdən başqa bir kimsə yox idi. Ayrılanda gördüm ki, qonşular həyətimizə toplaşıb xəyalpərvərliklə bizə baxırlar. Bu görüşün şirinliyi məni məst etmişdi.

- Ana, özünü toxtat, ana - deyə Kamal sevincdən sərxoş olan mən anasını ayıldır, başımı sinəsinə sıxıb saçlarımın arasına soxduğu burnu və dodaqları ilə keçmiş günlərin unuda bilmədiyim yarımcanlı acı qüssələrinə əbədi bir şirinlik bəxş edirdi. Mənim isə həm qəm, həm də sevinc çeşməsi gözlərimin yaşı ağlar-gülər bəbəyimdən axırdı. Qoysaydı balamın başına dolanardım. Əlacım olsa sinəmi yarar, onu köksümə sığmayan fərəhlərin içində gizlədər, qara yellərdən qoruyar, yayın istisindən, qışın soyuğundan mühafizə edib saxlardım.

- Ana indi ki, dözmürsən, şəhərə qayıtmayacam. Mən nə kitablarda oxumuşam, nə də belə hal-hərəkət görmüşəm.

- Bu, səni çoxdan görmədiyimdən idi, ay oğul. Ürəyimi həsrətin cığala kağızı kimi yuxaltmışdı. İndi səbrim genəldi. Get, sənətini yarıçmıq qoyma. Tətil günlərində Kamalla ürək söhbəti eləyə bilmədim. Gecəsi, gündüzü qonaqlıqlarda keçirdi. Onu qonaq aparanların hamısı da ərlik qızı olan ata-analar idi. Kənddə heç bir dul arvadın oğluna mənimki qədər hörmət edilməmişdi. Bu sevinc məni cavanlaşdırırdı, başım buludlara, qürurum ulduzlara çatırdı. Kamal qonaqlıqdan qayıdanda soruşurdu:

- Ana, Qaraoğlan əmi də, arvadı da deyir: biz qohumuq. O qədər şey sadaladılar ki. Guya biz onların nəmənələrininsə nəyiyik. Düzdürmü? Srağa gün məni qonaq çağıran Bərgüşad kişi də elə söyləyirdi. Mən bilməmişəm, kənddə hamı bizim qohumumuz imiş. Doğrudur ana? Ona:

- Elədir. Kənddə hamı bir-birinə qohumdur - dedim. Onların oğluma etdikləri hörməti qiymətdən salmaq istəmədim. Amma kənddə bizim vur-tut bir, iki uzaq qohumumuz var idi, onlar da gəlməyə-gəlməyə yad olumşdu. Yox, yox biz yad olmuşduq. Kölgəsi olmayan dul arvada çox zaman qohumlar da yaxın gəlmirdilər. Oğlumun böyüməsi qohumların sayını çoxaltmışdı. Hörmətim qalxmışdı. Özlərini Kamala göstərmək üçün təzə paltarlarını geyinib yolunu bizim evin yanından salaraq gedən qızların hərəsi bulaq başında mənə bir qayğı ilə yanaşırdı. Kimisi səhəngimi doldurur, kimisi onu dalıma şəlləyir, kimisə də eləcə üzümə baxıb gülümsünür, nazlanır, özünü bəyəndirməyə çalışırdı. Qonşumuz sırtıq Nazpəri hamını keçmişdi. Paltarını gündə üç dəfə dəyişirdi. Günün çox yarısını bizim evdə keçirirdi. Öz bağlarının meyvəsini bir ucdan daşıyıb paltarlarımı da yuyur, evimi də süpürürdü. Qızın gözləri o qədər qızmışdı ki, bəzən mənim evdə olduğumu unudub Kamala sataşırdı:

- Müftə yeyib-yatmaqdan əlin qız əlinə, yanaqların qızıl gül kimi açılmış gərdəyin dalından bu səhər çıxan təzə gəlin yanaqlarına dönüb. Şəhər kənd qoturlarını sonaya döndərirmiş. Kamaldan ötrü ürəyim keçən illərdə olduğu kimi göynəmədi. Yalnız o zaman darıxmağa başlayırdım ki, onda da Kamalın gəlmək vaxtı yaxınlaşırdı. Görüş dəqiqələri yaxınlaşdıqca hamının ürək döyüntüsü, qəlb çırpıntısı çoxalmırmı?! Kamal sənət məktəbini bitirib gəmi təmiri zavodunda qaynaqçı işləyəndən sonra çox kökəlmişdi. Camaat onu məzuniyyətə gələndə o qədər dilə-dişə saldı ki, dedim daha çeynənən saqqız çürüyəcək. Amma yaxşı ötüşdük. Kamalın başı da ağrımadı. Anayam, övladın xoşbəxtliyi naminə hər şeyə

inandığım üçün gərək məni bağışlayasınız. Gözüdəyməli adamların oğluma zəndlə baxmasından qorxurdum. Kəndimizdə Kamal kimi yaxşı geyinən yox idi. Onun velyur şlyapası, son dəbdə təkilmiş bahalı trikotac pencək-şalvarı, cürbəcür ipək köynəkləri kimdə vardı?! Köklük də ki, onun üzünün, boyun-boğazının çökəklərini doldurub hamarlaşdırmış, sinəsini şişirtmiş, kürəklərini enlətmişdi. Oğlum şəkilə oxşayırdı. Mavi kamallı gözlərinin dikildiyi səmtə yayılan bəxtiyarlıq şöləsinə necə pərvanələr dolanırdı. Bir dəfə Kamalın çirkli paltarlarını çamadandan götürüb yumaq istədim. Gecə idi. O qonaqlıqdan qayıtmışdı. Əlim çirkli paltarlardan qabaq zərfə oxşar qara kağız torbaya toxundu. Torbanın altından çirkli köynəyi çəkib çıxaranda onun dalı qalxdı və içindən yüzlükdən, əllilikdən ibarət iki pul bükümü sürüşüb düşdü. On beş min manat! Sevindim. Ona görə yox ki, Kamal bu pulları mənə verəcəkdi. Məni sevindirən oğlumun tələfxərc olmaması, qənaətçilliyi idi. Pulun qədrini cavanlıqdan bilən adamın qocalıq dünyası ən zəruri ehtiyac bədxərcliklərindən uzaq olar. Gənc yaşlarında dərin düşünüb əqidə aydınlığı kəsb edənlər şıltaq taleyin dayaz burulğanlarında boğulmaz. Kamal şəhərə getməli olanda məndən pulu istədi. Hansı ana olsa heyrətlənər, eşitdiyinə inanmazdı.

- Ay oğul, axı sənin gərək ki… O gülə-gülə məni qucaqladı:

- Fikir eləmə, düzələr, hər şey düzələr. Yaxın onsuz da göz qabağındadır, uzağı görmək lazımdır. Pulu kimə verdiyini, on beş mini nəyə xərclədiyini soruşub onu utandırmadım. Mənə elə gəldiki, o pul özgəninkidir, hər kimsə onu mötəbər sandığı oğluma saxlanmaq üçün verib, Kamal da əmanətə xəyanət etmək istəməyib. Qonşuların hərəsindən bir az pul alıb Kamalı yola saldım. O gedəndən sonra eşitdim ki, həmin pulun hamısını evlənmək istəyən, lakin toy xərcinə gücü çatmayan özü yaşlı bir oğlana bağışlayıb. Kömək, yardım xeyirxahlıqdır. Amma öz evində ucuz şam yandırmağa əli gəlməyənin bu cür əvəzsiz rəhmdilliyi alicənablıqdırmı?! *** Ötən günlərin hərəsi ömrümə bir balta vurub keçirdi, qocalırdım. Zəiflik, gücsüzlük mənə üstün gəlirdi, belim bükülür, gözlərim tor görürdü. Ayaq üstə bir az gəzəndə qılçalarımın sümükləri sızıldayırdı, ağrıdan yata bimirdim. Bulaq başına, kəndimizin yazda cənnətə, payızda gülüstana bənzər bağlarına həsrət qalmışdım. Əlimə əsa almış, gözümə eynək taxmışdım. Xeyirə, şərə yaramır, toydan-yasdan qalırdım. Kolxazdan aldığım yardımla dolanırdım. Yanıma gələn olanda sevinir, söhbəti-söhbətə qəsdən calayıb onu ləngidir, məni dustaq kimi dörd divar arasında saxlayan qocalıq məhşəri kimsəsizliyinə beş, on dəqiqə qalib gəlirdim. Tanış kölgələr qapımdan silinəndə tənhalıq müsibəti məni öz ağırlığı altına alırdı. Belə hallarda vəfalı həmdəmim keçmiş günlərin xatirələri olurdu. Əllərim əsməyə başlamışdı. Başım da titrəyirdi. Su içməyə, Sulu xörək yeməyə peşiman idim. Əllərimin uçunması onları üst-başıma dağıdırdı. Kamala göndərdiyim məktubların hər birini on günə yazırdım. Bir cümləni tamamlamamış barmaqlarım qıc olur, məktub yarımçıq qalırdı. Vəziyyətim haqda oğluma heç nə yazmır, onun köməyinnə möhtac olduğumu söyləmirdim. İstəmirdim Kamalı yenicə irəliləməyə başladığı yüksəliş, bəxtiyarlıq yollarından geri qaytarım. Yayın orta ayı idi. Günəş yerə-yurda, çölə-biyabana od ələyirdi. Mən açılıb-yığılan çarpayını eyvana çıxarıb yerimdə rahatlanmışdım. Bağdakı ağacların istidən büzüşüb soluxmuş yarpaqlarına baxırdım. Yarpaqlar ölgünləşmiş olsalar da yamyaşıl idilər. Elə bil yatırdılar. Gün batan kimi oyanacaq, axşam mehilə dirilib pıçıldaşacaqdılar. Bu minlərlə yaşıl yarpaqların arasında yalnız bircə dənə bədbəxt vardı. O da eyvana əyilən gilas budağının ucunda idi. Saralmasına baxmayaraq o ölgünləşməmişdi. Sanki mətanətini toplayıb əcələ mərdliklə can verirdi. "O mənəm - deyə düşünürdüm. - Bəxtimiz bir, taleyimiz oxşardır. O da mənim kimi solğundur, qürurludur. Vaxtlı, təntənəli gəlişin, vaxtsız, mənasız gedişi olmayaydı". Birdən qaça-qaça gələn qonşu uşağı məni muştuluqladı:

- Yaqut xala, muştuluğumu ver, Kamal əmi… Uşağın şad xəbəri ağzından qurtarmamış Kamalın kölgəsi, az sonra isə özü göründü. Nədənsə doluxsundum, göz yaşı axıtmağa qəlbimdə bir arzu duydum. Lakin çağlayıb daşan qəhərin qarşısını tez aldım, gülümsədim. Titrək qollarımı onu qucaqlamaq üçün açdım. Kamal:

- Ana, darıxma - dedi. - İki dəqiqəlik işim var. Qollarım yanıma düşdü, hönkürdüm. Amma müsibətimi zorla da olsa gülüşə çevirdim, ağlamağı alçaqlıq sandım. Kamal çamadanını dizləri üzərində açıb oradan xeyli pul çıxartdı. O pulları saydıqca mən hesablayırdım. Hamısı da

yüzlük idi. Yanınca gətirdiyi həmkəndlimiz Fazilə (Kamalla yaşıd olsa da onun üç uşağı vardı) beş min manat pul verdi. Fazil əlində saxladığı pula heyrətlə baxdı. O mənada ki, məqsədini anlamıram, Kamal? Kamal çamadanı yerə qoyub təntənə ilə Fazilə dedi:

- Ev tikdirirsən. Düz deyilmi? Fazil başını tərpətdi. Kamal qayğı, səmimiyyət dolu bir səslə dilləndi: - Evinizin yanından ötəndə anladım ki… Hə nəsə… Apar ustalarını razı elə. Deyəsən ağacın-daşın da elə belə… keyfiyyətsizdir. "Ucuz ətin şorbası olmaz". Fazil qızardı. Pulları çamadanın üstünə qoydu. Sonsuz minnətdarlıq duyğuları onu karıxdırmışdı. O heç nə demədən Kamalın əlini sıxdı.

- Canınçün olmaz! - deyə Kamal etirazla səsləndi. Borc vermirəm ki! Bəs bir-birimizə nə zaman lazımıq? - Pula ehtiyacım yoxdur Kamal qardaş. Çox sağ ol, çox razıyam. Məni ömrümdə bu qədər utandıran olmamışdı.

- Uşaq sözü danışma, götür! - Kamal pulları onun cibinə soxdu - "əl-əli yuyar, əl də üzü" Fazil tər tökə-tökə pulları cibindən çıxarıb yenə də Kamala qaytarmaq istədi. Kamal isə dostanə bir məzəmmətlə onu danlayıb evin dalına apardı. Orada yaxa-boğaz oldular, xeyli danışdılar, çox "sən ölmə, mən ölüm"dən sonra Fazil pulları alıb getdi. El dərdi çəkən oğlum öz vəziyyətimizi görmürdü. Evimizin divarları çatlayıb ayrılmış, milləri çürüməyə başlamışdı. Bir gün başına uçacaqdı. Kamal uşağa da bir yüzlük bağışladı. Uşaq imtina etmədi. Elə bil öz borcunu alırdı. Görünür o bu iltifatı muştuluq haqqı zənn etmişdi. Lakin Kamal onun köhnəlmiş ayaqqqabılarını nəzərə almışdı. Bu qənaəti mənə Kamalın, uşağın ayaqlarında sürünən məhzun nəzərləri vermişdi. Məni sevindirməyə gələn uşağın özü də sevinib getdi. Gülümsünsəm də məğlub etdiyim hönkürtü öz güclü təkanları ilə sinəmi dağıdıb üzə çıxmağa çalışırdı. Mən isə onu hələ də boğulub susdurur, çöhrəmdə yaratdığım sünni təbəssümü saxlaya bilmədim, ürəyimin acı dərdi gözlərimdən yanaqlarıma axdı. Kamal çaydan bağ arxımıza su açdı. Onun bu işgüzarlığını görən gözlərimin yaşı qurudu:

"Bağı suvaracaq. Mən lap bir təhər olmuşam ha. Kamal bir günlüyə gəlməyib ki, dizlərimin yanında saatlarca otursun. Bir ay burda olacaq, vaxt çoxdur. O qədər söhbət eləcəyik ki, danışmağa söz də tapmayacağıq" - deyə səbrsizliyimə görə özümü töhmətləndirdim. Lakin tapdığım bu təsəllini mənə son dərəcə qeyri-adi görünən bir hərəkətin doğurduğu heyrət əvəz etdi. Kamal bizim arxımıza açdığı su ilə qonşunun bağının suvarırdı. Hirsləndim, ancaq səsimi çıxarmadım. Elə güman etdim ki, o əvvəlcə qonşununkunu, sonra da özümüzünkünü suvaracaqdır. Hətta qəzəbimdən utandım da. Qonşu kişilər dəfələrlə mənə kömək etmişdilər. Lakin onlar Kamal kimi tərsinə iş görməmişdilər. Bir yana baxanda oğlumun hərəkəti xoşuma gəldi. Onun bu yaxşılığı öz mənfəətini güdən qonşunu utandıracaqdı. Kamal qonşunun bağını suvarandan sonra suya çaya kəsdi. Öz bağımız isə quru qaldı.

- Ay oğul, öz bağımız da yanıb əldən gedir. Şəhərdən bura qonşunun bağını… Özümüzünkünü də… Qırıq-qırıq söylədiyim rabitəsiz sözlər Kamala gülünc göründü. Anası olmasaydım o qəhqəhə çəkərdi. Lakin için-için güldüyünü çiyinlərinin Titrəməsindən hiss etdim. Açıq istehza nə qədər iyrənc olsa da o öz çılpaqlığı ilə qaş-gözün çətin anlaşılan səssiz kinayəsi, həqarətli ifadələrindən xoşdur.

- Fikir eləmə ana, düzələr, hər şey düzələr, yaxın onsuz da qabağındadır, uzağı görmək lazımdır. Başa enən qılınc qalxanla qaytarılar. Kamalın əvvəlki "fəlsəfəsinə" əlavə etdiyi ifrat dərəcəyə varan müəmmanı anlamadım. Onun həyata baxışında, insanlara münasibətində hansı ideyanın gizləndiyini dərk etmədim. Mən onu başa düşə bilmədim. Bəlkə məndə zəka aydınlığı yoxdur? Bəlkə mən ibtidai təsəvvürə malik, şüurca zəif inkişaf etmiş adamam. Nə deyim, oğul mənimdir, amma…

ATA HƏSRƏTİ

İstirahət gününün səhəri idi. Həbibə yuxudan oyananda gördü ki, anası Ədilə dəhlizdə axşam yuyub qaynatdığı paltarları yaxalayır. O, bir litr yarımçıq oyuncaq vedrəsilə həyətdəki

krantdan su daşıyıb anasına kömək etməyə başladı. Ədilə qızının ona göstərdiyi qayğıdan fərəhlənərək: - Sənə qurban olum a anasına canı yanan balaca köməkçim - deyə Həbibənin alnından öpüb onu mükafatlandırdı. O, anasının verdiyi qanadla üst-başını islada-islada krantla dəhliz arasındakı beş, altı metrlik məsafədə uçdu. Vanaya on, on iki vedrə su tökdü. Həbibə elə bilirdi bəzəkli vedrəsindən vanaya ürəyinin duyğuları, qəlbinin arzuları axır. Son zamanlar onlardan ötrü çox zəhmət çəkən evin həm kişisi, həm də arvadı olan anasının ağrıyan əlləri bu duyğular içərisində dincəlir, göynəyən ürəyi təsəlli tapıb rahatlanırdı. Qəlbinin matəmini əks etdirən qəmli gözləri, könlünün qan ağladığını xəbər verən tutqun siması altı yaşlı qızının cüzi köməyindən bahar səması kimi açılır. O, elə bilirdi gətirdiyi su anasının ürəyində yurd salan niskil karvanını köçürür, möhnət izlərini onun çöhrəsindən silib aparır. Həbibəni bu qənaətə gətirən anasının gülümsəməsi idi. Axı o, bu bir ayda Ədilənin güldüyünü görməmişdi, iştahla çörək, xörək yediyinin şahidi olmamışdı. O, bu müddət ərzində fikir, xəyal ümmanında çapalayıb gücdən düşdüyündən ruhsuz, kefsiz görünmüşdü. Bu günəcən heç bir şənlik, heç bir əyləncə küləyə dönüb onun varlığını sarmış xəstəlik carçısı məlal dumanını qovmamışdı. İndi Ədilənin üzündə, dodaqlarında oynayan təbəssümə şən-şən əl çalan göz qapaqları. Həbibənin qəlbində toy, bayram mərasimi yaratdı. Bu şəndik uzun sürsün, qara geyimli kədər qapılarını bir də tanımasın - deyə o, sevinə-sevinə su daşımaqda davam etdi. Anasının bayaq balasının alnından öpməsi ona qanad vermişdisə, indi üzünə gülməsi onun qollarına qüvvət gətirdi. Həbibə böyük vedrələrin birini götürüb həyətə çıxdı. O, elə tələsirdi ki…

Suyun gur axmasını, vedrənin tez dolmasını istəyirdi. Cəhdi evə bu gün qonaq gələn şənliyin keşiyini çəkmək, qüssənin içəri soxulmasına imkan verməmək idi. Amma nə fayda ləngidi. Ləngidi ona görə ki, dolandan sonra vedrəni krantın altından qaldırmağa gücü çatmadı. Nə qədər çalışdısa onu heç olmasa bir az kənara sürüyə bilmədi. Ədilə aynadan onun əlləşdiyini görüb köməyə gəldi. Vedrəni içəri aparandan sonra qızının gözlərinin qabağını örtən saçlarını dala eləyib üzünə baxdı. Həbibəyə elə gəldi ki, anası onun hərəkətlərindəki başqalığı müşahidə edir. Odur ki, məqsədini anasından gizlətmək xatirinə yerli-yersiz gülməyə başladı. Lakin Ədilə qızının fikrini duydu. Həbibəni sinəsinə sıxdı. Qəhərin dalğası ananın çiynlərini titrətdi. Qızının saçları arasına neçə damcı göz yaşları axıtdı. Uçunan dodaqları arasında pıçıldadı: - Adam gərək üzdən yox, ürəkdən gülsün balası. Ədilənin çəkdiyi ağrılar göz yaşları ilə axıb qızının ürəyinə doldu, onu doluxsundurdu. O, əzablı bir intizarın, acı bir peşmançılığın daşqın selinə düşən məhzun pasibanının əllərilə yanaqlarını oxşadı. Ana, Həbibənin ağlayacağını görüb ağlar gözlərinə gülüş, sızlar dodaqlarına təbəssüm gətirdi. Qızının başını sığalladı.

- Gəl çay içək, çörək yeyək. Ac qarına iş görməzlər balası - deyə köks ötürüb evə keçdi. Balaca qızıl güllü fincanları, yaşıl yarpaqlı nəlbəkiləri stolun üstünə düzdü. Bu zaman ailənin əziz körpəsi, dörd yaşlı Lalə küçəyə baxan aynanın qabağındakı çarpayıda mışıl-mışıl yatırdı. Pəncərədən süzülüb onun başının üstündən keçərək divara yapışan günəşin lentinə oxşar şüası altında, Lalənin pörtmüş yanaqları çəhrayı rəngə boyanmışdı. O, yuxuda nə görürdüsə gülümsəyirdi. Ədilə də, Həbibə də əl-ayaq saxlayıb ona tamaşa edirdilər. Lalə birdən ayaqları ilə yorğanı üstündən atıb qalxdı. Gözlərini zorla açaraq onlara baxdıqdan sonra ağlamağa başladı. Ədilə onu qucağına aldı. - Ağlama, ağlama. Gəl üzünü yuyum, çay içək balası, lalası. Lalə başını anasının çiyninə qoyub zülüm-zülüm, tənbəl-tənbəl ağladı. - Detdi-i-i… - Kim getdi balası?

- Ata-a-a - deyə o səsini yenidən uzatdı. Onun atasını yuxuda görməsinə şübhə qalmadı. Yəqin ki, o, uşaqlı analar kafesində atasının xidmətilə ən çox sevdiyi sosiska yeyir, kakao içirdi. Su karuselində yelləndikdən sonra katerə oturub dəniz gəzintisinə çıxırdı. Dənizdən bulvarın zəncirvarı sahil işıqlarına baxırdı. Yaxud "Dağüstü" parkda təkərlərinə qırmızı, yaşıl lentlər dolanmış velosipedini o yan-bu yana çapır, həmyaşıdları ilə yarışırdı. Bəlkə də özünün müstəqil bir qız olmasını, hər yerə təkbaşına gedə bilməsini atasına göstərmək niyyətilə lovğalanaraq kinoteatrın kiçik yaşlılar zalından çıxanda atasını itirmişdi, küçədə ağlaya-ağlaya o tərəf-bu tərəfə yüyürürdü. Ədilə bu kiçik epizodları öz könül ekranında qısa metraclı kadrlarla göstərib iradəsini küləyə çevirdi. Gözlərinə çökən bahar buludlarına duzlu su yükünü öz solğun yanaqlarına boşaltmaq imkanı vermədi. O, öz dərdini unudub Lalənin üzünü öpüşlərə qərq etdi.

- Ağlama, ağlama, ana qurban, ağlama. Ədilənin hüznlü səsi dilbilməz övladlarını ovundurmaqdan çox, məhrumiyyətlər əhatəsində qalan sadəlövh bir adamın taledən etdiyi şikayətləri xatırladırdı. Sanki bu onun öz səsi deyil, xəstə könlünün qaldığı qəmli bir hava idi. İsmətin işə nə vaxt getdiyindən uşaqların xəbəri olmazdı, çünki onlar o zaman səhərin şirin yuxusunu yatardılar. Lakin gəlmək vədəsini bilirdilər. Saat altıdan işləmiş səkidə durub atasının yolunu gözləmək onlarda bir adətə çevrilmişdi. Evin bərabərindəki meydançada dayanan avtobuslara baxardılar çox keçməzdi ki, avtobusdan tökülən adamların arasında İsməti görər, onun qabağına yüyrərdilər. O da onları öpər, hərəsinə bir şey bağışlayıb sevindirər, əllərindən tutub evə gətirərdi. Şam yeməyindən sonra Ədilə uşaqlarının bayırlıq paltarlarını şifonerdən çıxarıb onları cüt geyindirər, saçlarını darayıb bant bağlayardı. Özü isə ərinin zövqü ilə geyinərdi. İsmət də paltarlarını dəyişər, ailə üzvləri gözlərində sevinc parıltısı, üzərində fərəh işığı evdən çıxar, yavaş addımlarla küçələr boyu irəliləyərdilər. Bəzən İsmət dostları ilə rastlaşar, hər ikisi başlarını yırğalayaraq ehtiramla salamlaşar, hal-əhval tutardılar. Bəzən də İsmətin ailə tərkibində çoxdan görmədiyi xəbərsiz tanışları gözüböyümüş halda ayaq saxlar.

- Sənինkilərdir bu balalar? - deyə soruşardılar.

- Bəli.

- Olsun, olsun - deyə tanış olandan sonra əyilib nəvazişlə uşaqların saçlarını, çiyinlərini oxşardılar. Balalar, bundan ruhən kökələr, yekələr, küçələrə sığışmazdılar. İndi onlar kimlə fəxr edəydilər. Məsud günlər onlardan üz döndərmişdi. Sanki ata balalarının başına güllər ələyərək, ailənin bəxtiyarlığını da özü ilə aparıb getmişdi. Uşaqlar həmişəki kimi birinci axşam çağı da atası ilə gəzməyə getdikləri yollara baxdılar. Qaranlıq qovuşdu, İsmət gəlmədi. Ədilədən soruşdular: - Atamız niyə gəlmədi? İkinci gün trolleybusların, avtobusların içinə göz gəzdirdilər. İsmətin tanımayıb onların yanından ötən dostlarının üzünə boylandılar ki, bəlkə atadan onlara bir xəbər dedilər. İşdən evə qayıdan qonşu kişilərin ağzına göz dikdilər ki, bəlkə onları muştuluqladılar. Lakin küçələrdə gediş-gəliş seyrəldi. İsmət görünmədi. Onlar məyus halda evə döndülər.

- Ana, ata haçan gələcək? Ədilətək onlara göz yaşları ilə cavab verirdi. Uşaqlar bir şey başa düşməsinlər deyə fars dilində ondan İsmətin evə gəlməməsinin səbəbini soruşan anasına, bacısına, qardaşlarına da bu barədə heç nə demir, için-için ağlayırdı. Onların gözlərdə qalan gözləri, üzlərdə soraq ifadəsi axtaran nəzərləri cavabsız qalırdı. Elə bil canı cəsəddən ayıran qüvvədən qorxub susurdu. Ümidlərini axşamlara bağlayan körpələrin səadətini sanki gecələr öz qoynunda gizlədir, gündüzlər isə onu quş qonmaz sehirli qalalara tapşırırdı. Gözləri yollarda qalan Həbibənin, Lalənin öz dərdləri özlərinə bəs deyildi, öbir yandan da qonşu uşaqları təzə paltar, təzə çəkmələrini geyinib küçəyə çıxır "Atam alıb" - deyə onlara acıq verir,körpələrin ürəyinə yeni yaralar vururdular. Bundan sonra onlar evə gedirdilər. Ümidi kəsilən Lalə başını anasının dizləri üstə qoyub ağlayırdı. - Elə deyiysən, gələcək, gəlmiy. Get atamı gətiy də, ana! Həbibə də uşaqlıq edib sorğu-suala keçərək Ədiləni kədərləndirmirdi. Oyuncaq şeylərini ortaya töküb Laləni oynamağa çağırır, onu ovundurmağa çalışırdı. Gah kuklaya "Ana" dedirdir, gah "maşını" döşəmənin üzərinə diyirləyir, gah da nömrələri yığıb yalançı telefonla atasına Lalənin ondan ötrü ağladığını, kirimək bilmədiyini söyləyirdi. Lakin o ovunmur, ağlayıb yorulandan sonra gözlərini yuxuya verirdi. Lalənin ata həsrəti zülmündən yalnız yuxu qurtarırdı. *** İsmətlə Ədilə bir-birini sevib evlənmişdilər. Səkkiz il ərzində bir dəfə də olsun qəzəb qılıncı arvadı ərə bağlayan bəndləri kəsməyə qaldırmamışdı. Aralarında törənən kiçik münaqişələr isə bir neçə anlığa bahar günəşinin qabağını tutan tənha bulud kimi tez ötüb keçərdi. Dünənki mübahisə bu günə ziddiyyət doğuracaq zəmin qoyub getməmişdi. Dünənkini dünən unutmuş, köhnə palan içi tökərək otağın havasını ağırlaşdırmamışdılar. Ədilə nə dərəcədə dilxor, qanı qara olsa da, İsmət işdən elə bir hal-əhvalla gələrdi ki, o bu vaxt bəxtiyarlıq mücəssəməsini gülər üzlə qarşılamaq üçün çöhrəsindən kin-küdurət pərdəsini atmaya bilməzdi. İsmətin gözlərindəki gülüş, üzündəki şən əhval-ruhiyyə təcəssümü tezliklə Ədilənin simasında görünərdi. Ərlə-arvad arasında uçurum dərinləşməzdi. Mehribanlıq əli kələ-kötür ailə dirəyinə rəndə çəkib hamarlayardı. Lakin bir axşamüstü gözlənilməz bir təsadüf Ədilənin hisslərində qarma-qarışıqlıq yaratdı. Şübhə kabusu

onun qəlbini didməyə başladı. Ailənin suyu bulandı. Onda onlar gəzə-gəzə bulvara getmiş, fəvvarələrin yaxınlığındakı skamyaların birində əyləşmişdilər. Sahil tərəfdən əsən xəfif külək ağacların başlarını yırğalayır, fəvvarələrin göyə dağılan suyunu gül xiyabanlarına səpələyirdi. Rəqs meydançasına çoxlu adam toplaşmışdı. Nəfəsli orkestrin müşayiətilə oğlanlar, qızlar rəqs edir, fırfıra kimi fırlanırdılar. Adamla dolu dəniz gəzintisi kateri su üzərində yarımçevrə cızaraq körpüdən uzaqlaşır, gəmi izdihamı içərisindən keçib Narginə tərəf şütüyürdü. Yelkənli qayıqlar ağ qazlar kimi suya tökülmüşdü. Onlar sanki qanadının birini suda gizlətmiş, digərini isə havaya qaldırmışdı. Dağ gövdəli tankerlərin bəzisi yavaş hərəkətlə körpüyə yaxınlaşır, bəzisi də polad zəncirlərini gurultu qopararaq suya buraxıb lövbərdə dayanırdı. Gənclər gəzinir, qocalar isə skamyalarda oturub bulvarın boyunbağı gur işıqları altında min rəngə çalan Xəzərin ütü çəkilmiş sığallı sinəsinə tamaşa edirdilər. İsmət kino üçün bilet almağa gedəndən az sonra 26-28 yaşlarında tənbəl yerişli, laqeyd baxışlı bir qız gəlib İsmətin yerində oturdu. Onun ağ kaprondan koftası, qara krepsatindən yubkası vardı. Dirsəklərini dizlərinə dayayıb çənəsini əlləri içinə aldığından gödək qara saçları üzünü örtmüşdü. Yandan baxanda yalnız yaraşıqlı burnu, nazik qaşlarının və göy gözlərinin biri, dar alnının bir tərəfi görünürdü. O əllərini çənəsindən götürdü. Başını dala atıb ağ zərif üzünü saçlarının əsarətindən qurtardı. Kürəyini geri söykədi. Düşdüyü mühiti indicə görürmüş kimi aşağı-yuxarı boylandı. Bu zaman İsmət arxadan önə çıxdı. Qız, qızdırma içində yanarkən üzünə qəfildən soyuq su çırpılan xəstə kimi əndikib dik atıldı. Görən deyərdi o bu saat özünün harada olduğunu unudacaq, İsmətin ayaqlarına yıxıacaq, ağlayacaq, yalvaracaqdır. Nədən ötrü? Nə Səbəbə?! Bu heç kimə bəlli deyildi. İsmətlə qız ani olaraq bir-birinə baxdılar. Qızın baxışlarında rəhm, insaf diləyən ifadə, İsmətin gözlərində isə dərmansız dərdə düşən xəstənin bütün ağrılarını öz canında hiss edən həkimin gözlərinə çökən dalğınlıq, çarəsizlik vardı. Bu hal uzun sürmədi. İsmət özünü doğruldaraq:

- Buyurun, adını eşidib üzünü görmədiyiniz arvadımla, uşaqlarımla tanış olun Güləsər - deyə vəziyyətdən çıxmağa çalışdı. Üzünü ikinci dəfə Ədiləyə tutdu - İşçi yoldaşımdır. Güləsər, Ədiləyə, uşaqlara baxıb etdiyi səhvin böyüklüyünü duymuş kimi əllərilə üzünü örtdü. Qışqırmaq istədi. Amma səsi çıxmadı. Onun heyrətdən alacalanmış gözləri hədəqədən çıxmışdı. O, addım-addım dala çəkilib qaçmağa üz qoydu. Ədiləni elə bil şaxta göyərtmişdi. Çırtma vursan qanı çıxmazdı. Ərinin xəyanəti dünyanı onun başına hərlədi. Ağlını başından çıxartdı. Şübhə əlləri səkkiz yaşlı etibar evini söküb dağıtmağa başladı. Ədilə ərini də, uşaqlarını da orada qoyub hər həmləsində yerin bağrına min qəzəb nizəsi sancan addımlarla bulvarı tərk etdi. İsmətlə uşaqlar dəhşət içərisində gah Güləsərin, gah da Ədilənin arxasınca baxa-baxa qaldılar. *** Güləsər yaşı keçmiş bir qız idi. Neçə oğlan onunla evlənmək istəmişdisə də o, vasvasılıq etmiş, onlara bildirmişdi ki, hələlik ərə getmək fikrində deyildir. Hətta bəzisini lağa da qoymuşdu: "Eşqim dombalanda özümə aşina taparam, xatircəm olmayın". Bəxti açılan zaman subay-salıq oğlanların birini bəyənməyən qız, nədənsə arvadlı, uşaqlı kişi olduğunu billə-bilə İsməti sevmişdi. Hər şeyin bir təhəri var. ancaq onun məhəbbətinin hüdudu yox idi. Bu, eşqin havasından dəli olmaq dərəcəsinə çatan xalq əfsanəsindəki Züleyxanı xatırladırdı. Yusifin Adı dilindən düşməyən Züleyxa kimi Güləsər də rəfiqələrinə İsmətdən danışır, ""mənə belə baxdı, mənə elə baxdı" - deyə həmsöhbətlərini yorur, sözü, söhbəti tükənmirdi. Rəfiqələri də, işçi yoldaşları da evli kişini sevdiyi üçün onu töhmətləndirir, onun hisslərini yatırdıb ağlına üstünlük verməyə cəhd edirdilər. Lakin tənbeh, məsləhət Guləsərin beynində özünə yer tapmırdı. "Xeyirsiz" sözlər qulaqlarına çatmamış, eşqin atəşinə düşüb havada alışır, kül olub göylərə sovrulurdu. İsmətə gəldikdə isə demək olar ki, o Güləsərə tərəf meyl etmirdi. Zəhləsi getsin deyə ona bəzən qaba cavablar qaytarıb məhəbbətini gücdən, eşqin hərarətindən salmağa çalışırdı. İdarədə üz-gözünü turşudur, qaş-qabağını sallayırdı ki, vaxt keçsin, qız ürək sözlərini deməyə imkan tapmasın. Tədricən iradəsini əlləri içinə alıb hisslərini cilovlasın. Yuxudan oyansın. Öz ağlı ilə bahar olmağı bacarsın. Amma nə fayda, İsmətin soyuq münasibəti, etinasızlığı Güləsəri daha da şövqə gətirirdi. İsmətin arvadından gizli sözü, arvadından xəlvət sirri olmazdı. O hər şeyi arvadına danışardı. Gördüklərini, bildiklərini qəlbinin qaranlıq yerlərinə ötürmək onda adət şəklini almamışdı. Onun Ədilədən qoruduğu təkcə Güləsərin məhəbbəti idi ki, bu da uğursuz bir

təsadüfdə varlığını bildirdi. O, bu məhəbbətin qiymətli bir nemət kimi əzizləmək fikrilə arvadından gizlətməmişdi. İsmətin dililə desək ailə səadətini onun törətdiyi qasırğadan qorumuşdu. O qabaqcadan dərk etmişdi ki, əgər Ədilə bu əhvalatdan xəbər tutarsa özünü təmizə çıxarıb arvadını heç cür inandıra bilməyəcəkdir. "Qorxan gözə çöp düşər" İsmətin ağlına gələn başına gəldi. Axşam evdə atışma başlandı.

- Nəyə gəldin? - deyə Ədilə məğlubiyyətə uğrayan, böyük bir ordusunu bada verən sərkərdəsinin üstünə qışqıran şahzadə xanımlar kimi əllərini belinə qoyub İsməti qapının ağzında qabaqladı

- Bir dəfəlik gedəydin Güləsərin dalınca də. İsmət müdafiədə dayandı.

- Ağlını başına yığ. Boş şeydən ötrü çənənə güc vermə. Qulaq as gör bu işdə mənim bir təqsirim varmı?!

- İsbata ehtiyac yoxdur, aksiomadır - deyə Ədilə coşdu. - Başa düşdün?! Mən dünənki uşaq deyiləm. İsmət ağzını açmaq istəyirdi ki, Ədilənin səsi otağı başına götürdü. - Artıq söz lazım deyil. Bu gündən sənin nə evin var, nə də arvad-uşağın. İsmət bilmədi ona danışmağa macal verməyən arvadını hansı dillə başa salsın. - Evdən çıxırsan çıx, çıxmırsan uşaqlarımın əlindən tutub bir baş atamgilə köçürəm.

- Peşman olacaqsan.

- Mən?!

- Bəli, sən! - Mən elə yerdə oturmuşam ki, altımdan su çıxa.

- Baxarıq. *** Lalə yamanca kürlük elədi. - Məni atama apay - deyə çəkişdirməkdən anasının nimdaş sarafanının ətəklərini cırdı. Onu paltarları axıracan yoxlamağa qoymadı. Ədilənin ona yazığı gəlirdi. Xüsusən bu gün onun ağlamaqdan gözlərinin yaşı da qurumuşdu. Can üstə olan xəstə kimi elə hey, zarıyırdı. Nəhayət ana qəlbi övlad fəryadına tab gətirmədi. Uşaqları İsmətdən ayrı birinci gəzintisi idi. Getdikcə sıxlaşan izdihamın içində Ədilə ilə Həbibənin tək gözləri axtarırdısa, Lalənin ürəyi, qəlbi də atasını axtarırdı. O dala, qabağa boylanır, sağa-sola çevrilir, yerişi xırda olsa da anasının əlindən irəli dartıb bir addım onlardan qabaqda gedirdi. O, elə həvəsli, inamla yeriyirdi ki, elə bil atasının yerini bilir, bu saat onu tapacaq, qucağına atılacaqdır.

- Ana oduy, bax?! - deyə o birdən xeyli öndə ağır-ağır addımlayaraq yanaşı gedən dörd nəfərlik kişi dəstəsini göstərdi.

- Atamdır - deyə Həbibə də sevindi. Lalə əlini anasının əlindən çıxarıb onlara doğru yüyürürdü. "Ata"" deyib ortadakı ucaboy, qıvrım saçlı, danışdıqca əllərini havada oynadan, göy bastondan paltar geyinmiş kişinin arxadan qılçalarına sarmaşdı. Kişi ehtiyatla geri çevriləndə Lalənin əllərini sanki gicitkan daladı. O, bir-iki addım dala çəkilib yerindəcə qaldı. Kişi uşağın onu atasına oxşatdığını duyub Laləni qucağına almaq istədi.

- Qorxma qızım, gəl qucuma. Deyəsən atasını anasından çox istəyən balalardansan, hə? Qorxma, gəl səni hop eləyim. Lalə dartındı. Ədilə utana-utana irəli yeridi. Lalənin biləyindən yapışıb kişidən üzr istədi. Onlar dala qayıtdılar. Kişilər yerlərindən tərpənməyib dərin nəzərlə hələ də onların arxasınca baxırdılar. Görünür, atanın, ata deyib ata eşidən balalarını atdığını başa düşmüşdülər. Ədilə hiss olunmadan göz yaşlarını dəsmalına hopdursa da ötüb keçənlər duyur, təəccüblənirdilər. Bəzisi az qalırdı ondan ağlamağının səbəbini soruşsun. Lakin yadlıq hissi onları kənarda saxlayır, yaxına buraxmırdı. Bayaqdan onları arxada qoyan balaca Lalənin halı özündə deyildi. O başını yerdən qaldırmır, ayaqlarını irəli güclə atırdı. Ədilə iti addımlarla onu evə sarı sürüyürdü. Nə olaydı İsməti tanıyan bu adam onların bu miskin günlərini görüb ona xəbər aparaydı. Üç xəstə qəlbin bir dərman arzusunu balaca Lalənin dililə İsmətə bu cür çatdıraydı. - İnad uçurumu üzərindən övlad məhəbbəti körpüsü ilə keçmək qəbahət deyil. Təzə sınan sümük təbib əlində tez bitişir, tez də sağalır. Anam da peşman olub. Nə qədər gec deyil evimizə qayıt ata!

GÜLŞANƏ

Ceyhunun məsumanə söz-söhbətləri Gülşanəyə əvvəlki tək xoş gəlmirdi. Onun danışıqları öz şirinliyini itirmişdi. Gülşanə həmişə yediyi eyni xörəkdən bezikən adam kimi Ceyhunun aşiqanə kəlamlarını dinləməkdən təngə gəlmişdi. O Ceyhuna qulaq asmaqdansa çoxlarını darıxdıran sükutda qalıb düşünməyə hörmət edirdi. Uzaqlara baxmaq, yaxınları seyr etmək, ötüb-keçənlərə diqqət yetirmək, dalğınlıqla fikirləşmək Gülşanəni Ceyhuna qarşı biganəliyə, hörmətsizliyə gətirib çıxarmışdı. O Ceyhunu sevmirdimi? Az da olsa onun qəlbinə məhəbbət qığılcımı düşməmişdimi?

Əlbəttə əvvəllər sevmişdi. Lakin qəlbindəki məhəbbət cücərtisini anlaşılmaz bir şübhə qasırğası soldurmağa başlamışdı.

Gülşanənin ürəyinə sanki kiçik bir buz parçası soxulmuşdu. Duyğuların şirinliyinə, hərarətinin güclülüyünə baxmayaraq bu kiçicik soyuq kütlə mütəmadi olaraq onun ruhunu zəhərləyir, Gülşanəni tez-tez üşüdürdü. O Ceyhunla bir yerdə keçirdiyi anlarda həyəcanlı olurdu. Səsi həmişəki kimi həlim çıxmırdı. Ceyhunun iltifatı müqabilində az qalırdı onu sərt cavablarla, acı sözlərlə mükafatlandırsın. Bəzən Ceyhuna qolundan tutub xiyabanla asta-asta addımlamağa da icazə vermirdi. Belə hallarda onlar xəlvət guşə axtarıb tapanacan dinib-danışmadan bir-birindən aralı gedən küsüb barışmaq istəyənlər kim yeriyirdilər. Gülşanə Ceyhunun ona aldığı bayram hədiyyələrini rədd edirdi:

“Bundan varımdır. Adam… bir şey almaq istəyəndə onun özündən soruşar. Hər halda, zövqümüz ayrıdır. Sən kişiyə lazım olan şeyləri məndən yaxşı tanıdığın kimi mən də qadın tualetinə gərək ətriyyat növlərini səndən pis bilmirəm”. Ceyhunla Gülşanə akademiyanın eyni kafedrasında aspirant idilər. Ceyhun ondan beş yaş böyük idi. İnstitutu Gülşanədən beş il qabaq bitirmişdi. Aspiranturaya da istehsalatdan gəlmişdi. İki nəfər üçün olan yerə beş adam ərizə vermiş, imtahana buraxılmışdı. Müsabiqədən yalnız Ceyhunla Gülşanə keçmişdi. Bir ayın qaş-göz söhbətindən sonra gəzməyə çıxmış, Ceyhun Gülşanəyə evlənmək istədiyini demişdi. Gülşanə isə ona rədd cavabı verməmiş, Ceyhunu evlərinə aparıb onu öz ata-anasına tanıtmışdı. Onlar bir-birinə ilk dəfə bağlanan zaman Ceyhunun ailə vəziyyəti haqda söhbət getməmişdi. Daha doğrusu bu mövzu heç yada düşməmişdi. Ceyhunun geyim-kecimi, şax qaməti, kölgəsiz, qüssəsiz baxışları, iniltisiz səsi Gülşanəyə də, Gülşanənin ata-anasına da ehtiyac, səfalət məngənəsində sıxılıb əzilməyən bir bəxtiyar kimi tanıtmışdı. Bəs Gülşanəni üşüdən duyğu nə idi? Bir dəfə onlar “Dağüstü” bağa getmişdilər. Payız fəslinin ortaları idi. Bağ hələ də bahar libasında, bahar rahiyəsində idi.

Havalar soyuqlaşmağa başladığından gəzməyə çıxanların sayı azalmışdı. Bağda əylənmək adama yay gəzintiləri ləzzətini vermirdi. Hər tərəfdən ucalan musiqi, gülüş səsləri kəsilmişdi. Elə bil yayda insana kölgəli-sərin, daldalı-etibarlı görünən ağaclar donmağa, yan-yörəsinə soyuq saçıb gəzməyə gələnləri özündən uzaqlaşdırmağa başlamışdı. Xiyabanlara solğun işıq yayan elektrik lampaları da soyuqdan üşüyən ac insanın gözləri kimi öz şöləsini, əvvəlki gur ziyasını azaltmışdı. Bağın fəsildən küsən bu vaxtında Gülşanə ilə Ceyhun baş-başa söykəyib skamyada oturmuşdular. Gülşanə əllərinin ikisini də Ceyhunun sol çiyninə qoymuşdu. Ceyhunun qolları isə onun belinə dolanmışdı. Bu anlarda ikisi də xoşbəxt idi. Bir az bundan qabaqkı xoş danışıqların nəşəsi onları hələ də tərk etməmişdi. Göz-gözə baxıb gülümsünürdülər. Birdən Gülşanə əllərini götürüb dikəldi, səksənmiş halda dala çəkildi. - Sənə nə oldu? Gülşanənin dili söz tutmadı. “Ceyhun nə üçün ata-ansı ilə məni görüşdürmək barədə bir söz demir? Bəlkə onların xoşuna gəlməyəcəm. Gəlindən narazı qaynana ilə dolanmaq çətin olmazmı? Mənim ağlıma bax?! Başıma sonradan bəla gətirncə məni gələcəkdə hansı bədbəxtliyin gözlədiyini indidən bilməyim yaxşıdır. Atası ilə anasının mən barədə fikirləri müxtəlif olsa Ceyhunu abırdan, məni də ismətdən salacaqlar. Ceyhun onları atar, yoxsa məni? Ağıllı övlad ata-anasını atmaz! Vəziyyət o cür olsa Ceyhun əlbəttə mənlə vidalaşmalıdır. Bəs sonra? Sonra mən kimə gərək olaram? Mənə nə olub ki?!” Ceyhun bir də soruşdu:

- Niyə səksəndin? Gülşanənin ürəyi sıxılır, hərdən gözlərinə il qaranlığı çökürdü. Düşüncələri qasırğalı dənizdəki dalğalar kimi bir-birilə döyüşürdü. O yenə də mülayim, mehriban səslə dillənməyə çalışdı.

- Ceyhun… Ceyhun onun səsindəki titrəyişdən heyrətə gəldi, ətrafa boylandı.

- Nədən qorxdun?

- Gələcəyimizdən. Ceyhun onun əllərindən tutub güldü. Adam yalnız uşaq qorxaqlığına belə bir istehza edər.

- Gələcəyin nəyindən?

- Mənfurlğundan.

- Kimin şəxsində?

- Taleyimizin.

- Mənim, ya sənin?

- Təəssüflənsən sənin də. Ceyhun fikirləşdi ki, Gülşanə məhəbbətin uğursuzluğunu, bir yerdə ömür sürə bilməyəcəklərini düşünüb dəhşətə gəlmişdir. Onu, bu gün şirin olan duyğuların sabah acı xatirələrə çevrilməsi ümidsizliyi sarsıtmışdır. Odur ki,ona ürək verib Gülşanənin çiyinlərini nəvazişlə oxşamağa başladı. - Məni mövsümi adam hesab etmə, çiçəyim. Biz ölənə kimi bir-birimizdən ayrılmayacağıq. Bu sözü hamı deyir. Amma mənimki hər andın tayı deyil, inanırsanmı? İnan, gülüm! Gülşanənin çiyinləri qalxıb düşdü. O sanki qanadlanıb uçacaqdı. "İnanıram. Ancaq… məktub yaz, ata-anan bura gəlsin. Sizin el adətini bilmirəm. Bəlkə məni ora aparmaq lazımdır? Onlar məni, mən də onları görməliyəm. Gəlinin şəppədən-xeyir qapıdan girməsi ata-anaya yaxşı təsir bağışlamır. Bir-birimizi gəlin-qaynana, gəlin-qaynata olmamışdan görüb tanısaq yaxşıdır. Bəlkə onlar məndə elə bir eyib tapacaqlar ki, sən onu görüb duya bilməmisən". Lakin o, düşündüklərini ürəyindən dilinə gətirə bilmədi. Fikrinin dolaşığını, xəyalının düyününü sadə suallar verib Ceyhundan alacağı cavablarla açmağı xeyirli sandı. - Ceyhun, atan varmı? - Atam çoxdan ölüb. - Anan sağdır eləmi? Ceyhun bu sualdan sonra özünə bir istinadgah axtarırmış kimi başını döndərib skamyanın söykəncəyinə baxdı. Və kürəyini yavaş-yavaş dala yıxdı. Qaşları çatılmış, gözləri qıyılmış halda bir neçə an fikriləşdi. Gülşanə elə başa düşdü ki, Ceyhunun anası bu yaxın günlərdə ölmüşdür, belə bir sualla da onu çox nahaq yerə kədərləndirmişdir. Gülşanə üzr istəyib təsəlli verməyə hazırlaşanda Ceyhun köksünü ötürdü. O Gülşanənin ilk dəfə eşitdiyi, tale zərbələrindən ağrıyan bir ürəyin iniltisi qarışmış səslə dilləndi:

- Anam sağdır, ancaq… Gülşanə maraqlandı. Bədənini qabağa əyib başını irəli uzatdı:

- Sonra…

- Bu haqda məndən heç nə soruşma!

- Ceyhunun səsi iniltidən təmizlənmişdi. İndi o səsdə ürəkdə gizlənmiş bir nifrətin varlığı duyulurdu. Doğrudanmı o, anasına nifrət bəsləyirdi? Nə üçün? Oğulun buna haqqı varmı? Ana böyüklüyü qarşısında oğul kimdir ki?! Ana övladın pis gününü istəməz! Bəs o necə anadır ki, adı çəkilən zaman övladın əhvalı pozuldu? Anadan övlada düşmən olmaz! Gülşanə yerindən qımzanmadan, kirpik çalmadan bütün bunları düşünürdü. Sanki kiçik bir ehtiyatsızlığı, lüzumsuz bir hərəkəti dənizin dibindən qarmaqla çəkib çıxarmağa çalışdığı sərvətin cansız kəndirini qıracaq, onu bütün zənginliklərdən məhrum edəcəkdi. Bəlkə oğul pisdir, övlad nankordur? Gülşanə Ceyhunun şəxsiyyətinə belə bir nanəcibliyi yaraşdırmadı. Aydın zəkalı, ağıllı mühakiməli, sir-sifətcə qəşəng oğlanı yaramaz adlandırmaq əsassız bir ittiham olardı. "Oğlunun nifrətini qazanan ana gəlninə, yad qızına qarşı hansı münasibətdə olar? Öz ürəyilə dolanmayan ananın mən hansı həyatverici qüvvəsi ola bilərəm?!" Anasının, bütün kəndin xəyalı gözləri önündən keçən Ceyhun lay-lay olub ayrılaraq qulaqlarının üstünə tökülən qara yumşaq saçlarını hər iki əlilə başının ortasına yığdı. Velyur şlyapasını skamyanın üstündən götürüb başına qoydu. Ayağa qalxaraq bir papiros yandırdı. Əllərini boz qabardin paltosunun cibinə soxub anası bu gün ölmüş oğul məyusluğu ilə pıçıldadı:

- Gedək. *** Axşam idi. Onlar yenə də həmin bağda, həmin skamyada oturmuşdular. Ceyhunun dünən axşam pozulan ruhi müvazinəti bərpa olunmuşdu. O şən idi. Lətifələr danışıb

süst, sərməst olan Gülşanəni güldürməyə çalışırdı. Gülşanənin isə kefi açılmırdı. O dünənə qədərki əhval-ruhiyyədə deyildi. Elə bil vaxtsız gələn qış bahar üzərində qələbə çalmışdı.

- Danışmaqdan lətifə də qalmadı. Səni necə güldürüm?

- Ceyhun onu qucaqlamaq istədi. Gülşanə onun yanlara açılmış qollarından tutdu. - Mən onsuz da aydın ifadəyəm. Müəmmadan sonra mötərizə içinə alınıb aydınlaşdırılan cümlə olmaq istəmirəm. Ceyhun Gülşanənin könül şaxtasından donan əllərinin birini cibinə, digərini isə onun dizinin üstünə qoydu.

- Müəmma mənəm?

- Əlbəttə! - Elə.

- Ihı. Ceyhun o birisi əlini də cibində gizlətdi. Kürəklərini söykəncəyə yapışdırıb öz-özünü danlayırmış kimi yüngül təəssüf hisssitlə: - Qara qızın dərdi varmış - dedi.

- Bayaqdan bəri təlxəklik eləməyim özümə qaldı. Gülşanə həqiqəti söylərkən təhqir olunmuş adam inadkarlığı ilə mübahisəyə girişdi.

- Sən dünən anan barədə sorğu-sual eləməyimə niyə icazə vermədin? Mən özgəyəm? Mən öz anamı sənə tanıtmaqda, onun xasiyyətini danışmaqda səhv etmişəm?

- Qanın elə buna görə qaralmışdı? - Ceyhun gülümsədi. Gülşanənin əlinin birini götürüb öz dizləri üzərində saxlayaraq sığalladı. Bir anlıq ömrü olan təbəssüm onun üzündən nəzərlərinin dikildiyi uzaqlara uçdu. Gözlərindəki parıltı yanıb qurtarmaq üzrə olan şam kimi yavaş-yavaş söndü.

- Sən bəxtiyar adamsan, gülüm. Sənin ananın dünyagörüşü böyükdür, təsəvvür dairəsi genişdir. O ağıl-Kamal dəryasından bir dəniz götürmüş adamdır. Mənimki isə… Gülşanə əvvəlcə elə təsəvvür etdi ki, anası ona zülm etmişdir. Ceyhunu atıb ərə getmiş, oğlunu özgə qapılarda qoymuşdur. Bir dəfə də olsun onu görməyə gəlməmiş, bir dəst paltar tikib onun əyninə geyindirməmişdir. Ceyhun onun-bunun köhnəsini geyinib böyümüş, rəhmli adamların verdikləri sədəqələrlə yaşamışdır. O uşaq vaxtı ağlayıb anasının yanına gedəndə atalığı tərəfindən döyülüb, söylüb qovulmuşdur. Ana mehri-ülfətinə həsrət qalan tifil! Canı ağrıyanda, xəstəliyin şiddətindən huşunu itirəndə belə ana sözü dilindən düşməyən körpə! Səni yadlar da, öz anan da döyüb incidəndə yenə də köməyə onu - ananı çağıran uşaq! Sənin nəsibin nə üçün anasız bir həyat olsun?! Gülşanə hönkürüb ağladı. Başını Ceyhunun çiyninə qoyub hıçqırmağa davam etdi. - Bəli, mənim həyatım doğrudan da kədərlidir - deyə Ceyhun qüssələndi. - Anam köhnə fikirli adamdır. O istəyirdi ki, mən daş kimi yerimdə qalam. Mən inkişaf etməli, irəli getməliyəm. Kənddə nə var! Mənim işıqlı gələcəyim şəhərdədir. Kolxozçudan seçilməyən kənd müəllimi olub qalmaqla səadətimi tapa bilməzdim adam yalnız şəhərdə yüksəlir. Şəhər imkanlar beşiyidir. Şəhər mədəniyyət çeşməsidir. Anamın arzusuna görə mən kənddə ömrümü puç etməli idim. Belə də analar var. Övladını işıqlı yoldan qaytarmağa çalışan ana ilə necə razılaşasan? Gülşanə başını qaldırdı. Onun ağ yanaqlarında donub qalmış bir cüt göz yaşları parıldayırdı. Ceyhuna dikilən heyrətli gözlərindən onun özünü aldadan səhv anlayışına lənətlər oxunurdu. Ceyhun isə dinləyicisini ələ alan mühaziraçi qüruru ilə rəvan danışığına ara verməyərək anasını və kəndi ittiham etməkdən utanmırdı. - Tənəffüs zamanı məktəbin həyətinə oynamağa çıxan uşaqlara baxıb elə fərz edirsən ki, bütün dünyanın dilənçilərini bura yığıblar. Onların arasında bir-iki nəfər sağlam uşağa təsadüf edirsən. Məlum həqiqətdir ki, onlar da kolxoz sədrinin, hesabdarın bir sözlə bal tutub barmaq yalayanınkıdır. Hara baxırsan eyni cansıxıcı mənzərəni görürsən. Ruh ölür, zövq korlanır, adamı ilhama gətirən yaxşı bir şeyə rast gəlmirsən. Anam mənim bütün arzularımı bu cür səfalət ocağında məhv etməyə çalışırdı. Gülşanə onun sözünü kəsməsəydi Ceyhun çox danışardı. Adamda kəndə qarşı ikrah və kədər hissləri oyadan bəzəkli cümlələrini söyləməkdən çəkinməzdi. O kənd həyatı haqqında Gülşanənin aydın təsəvvürə malik olduğunu, dəfələrlə kəndlərdə yaşayan qohumlarıgilə gedib aylarla orada qaldığını bilsəydi çərənçilik eləməzdi. Ceyhunun kənd həyatını təhrif edən ifadələri Gülşanəni inandıra bilərdimi?! O kəndlərdə, əlvan meyvələrlə bəzənmiş bağları, tarla düşərgələrindəki şənlikləri, məhsul yığımı zamanı düzlərdəki vurhavuru, qoyma-harayı, qızların fədakarlığını, kişilərin qoçaqlığını, mühakimələri ilə çoxlarını borclu çıxaran kənd ziyalılarını azmı görmüşdü?! O neçə dəfə paltar

geyinməkdə də, saçlarını düzəltməkdə də kənd qızlarını təqlid etməyə çalışmışdı?! Kim özünü pis adamlara oxşatmaq fikrinə düşər?! İşləyən ac qalarmı?! Qoçaq adam pis dolanarmı?! İnNsanın çalışqanlığı səfalətə qəbir qazan bir qəhrəmanlıq deyilmi?!

- Ceyhun anan hardadır?

- Kənddə.

- Onu bilirəm. Öz ata evinizdə?

- Aha. Necə bəyəm?

- Heç elə-belə soruşdum. Ananla münasibətiniz nə vəziyyətdədir?

- Pis. Gülşanə dəhşət içində bir az da yana çəkildi. Bayaq axıtdığı göz yaşlarına heyfi gəldi.

- Bunu dilin deyər… Ceyhun səsinə dəm verdi.

- Ürəyim deyir! Gələndə onunla çox bərk savaşdım. Yəni həmişəkindən bir xeyli ağır-artıq çənəbazarımız oldu. Yaxşı ki, ondan yaxamı tez qurtardım. Baş-beynimi "belə otur, belə durları ilə, belə get, belə gəllərilə, belə danış, belə güllərilə" dəng eləmişdi. Altı aydır əlaqəni tamam kəsmişəm. Nə məktub yazır, nə də yanına gedirəm. Getməyəcəyəm də! Oğlunun boğazına yekətuman qızların birini bağlamağa cəhd edən kütbeyin məhdud ana mənə lazım deyil!

- Doğru sözündür?

- Sənə yalan danışmışam heç?

- Demək ananı sevmirsən.

- Adam ananı sevər, dərd-fəqanı yox! "Dərd-fəqan!" Anaya qoyulan yeni bir ad! Gülşanənin ürəyi sıxıldı. - Ceyhun yarımca saat altı aylıq kür uşağı saxlamış olsaydın onda bilərdin ki, ana nədir. Ceyhun şit-şit gülərək:

- Borcudur - dedi.

- Səfanı sürəndə yaxşıdır, cəfanı çəkədə pis?! Gülşanə yerindən elə cəld qalxdı ki, elə bil ayaqlarının yanında gürzə görmüşdü.

- Hara?

- Ceyhun əlini uzadıb onun ətəkləmək istədi. Lakin əli boşa çıxdı.

- Zarafatı burax! Gülşanə dayanıb çəp-çəp Ceyhuna baxdı.

- Biz bir də görüşməyəcəyik! Ceyhun ağır-ağır qalxdı. O Gülşanənin ondan üz döndərəcəyini ağlına gətirmirdi.

- Niyə? - Anasını sevməyən oğlanın eşqinə inanmaq olmaz! Gülşanə iti addımlarla Ceyhundan uzaqlaşdı. Ceyhun isə odu sönmüş papiros kötüyünü ağzının bu küncündən o küncünə hərləyərək çeynəyə-çeynəyə qaldı. Sanki onu Gülşanəyə pis tanıdan dişləri arasında əzişdirirdi.

RƏSMİ QAYĞI

Qapı astaca döyülüb açıldı. Cəsarətsiz addımlarla içəri girən Rahib, aynanın qabağındakı qırmızı məxmər örtüklü yazı stolunun arxasında oturmuş hakimdən icazə istədi. Hakim Ənvər Muxtarov yenicə açdığı qovluqdan götürüb ona: - Buyurun. - dedi. Qapıdan içəri soxulan hava axını Rahibin əlindəki iki qatlanmış kağızı alıb hakimin sağ böyründəki zibil səbətinə sarı apardı. Rahibin bədəni kağızın dalınca əyilsə də ayaqları yerdən aralanmadı. Sanki onu bircə anda döşəməyə mıxlamışdılar. Muxtarov əyilib kağızı yerdən götürdü və onu sahibinin əlinə uzadanda ilk baxışda müşahidə edə bilmədiyi Rahibin isti yay günündə ağ köynəyin üstündən qara yun pecək geyinməsinə baxmayaraq tir-tir əsməsini görüb təəccübləndi. Əvvəlcə ona elə gəldi ki, başının seyrək, sarı yumşaq tüklərini külək qarışdırıb dolaşdırmış kimi görünən bu ucaboy, arıq, ağbəniz oğlan isitmə xəstəliyinə tutulmuşdur. Ona görə də gözlərinin ağı saralmış, dodaqları göyərmiş, üzündə qan qalmamışdı. "Yəqin həkimlərdən şikayətə gəlib. Bu xəstəliyin ki, kökü çoxdan kəsilib". Muxtarov qalxıb qapını örtdü və qolunu Rahibin qoluna keçirib onu öz stoluna

bitişdirilmiş kiçik mizin arxasında oturtdu. - Haçandan xəstələnmisiniz? Rahib udqundu. Onun dərini deşib çıxmaq istəyən ulqumu çənəsinin altına qalxıb öz yerinə qayıtdı. - Harda müalicə olunursunuz? Rahib qalxmaq istədi. Muxtarov çiynindən basıb onu qalxmağa qoymadı. - Eybi yoxdur, oturduğunuz yerdə danışın. Rahib dirsəklərini mizin üstünə qoyub hər iki ovcunu gicgahlarına yapışdırdı. Sanki ağrının şiddətindən partlayıb dağılmaq üzrə olan başına əllərindən qurşaq çəkdi. - Neçə gündür xəstələnmisiniz? Rahib sağ əlini gicgahından götürdü. Hakimin əli içində lülələnmiş kağızı alıb açdı və onu Muxtarovun qarşısına qoydu. Muxtarov ərizəni götürüb öz yerinə keçdikdən sonra da bu qəribə şikayətçidən gözlərini çəkmədi. Rahibin saçları arasında gizlənən yarımçıq solğun barmaqlarının, sivri çənəsinin titrəməsi, boyun damarlarının atması, hökm eləyib dərini dağıtmaq istəməsi hakimin təşvişini artırdı. O stolüstü telefonun qulğanı qaldırıb nömrələri yığdı.

- Adınız, familyanız nədir? Rahib üzünə qəfildən üzünə soyuq su çırpılan qızdırmalı xəstə kimi səksəndi. - Mənim? - Bəli, sizin. Rahib qalxdı. Onun üzünün əzələləri gərildi. Qara muncuq kimi xırdaca gözləri heyrətdən böyüyüb həlqələndi. - Nəyinizə lazımdır? - Təcili-yardım çağırıram. Sizə hələlik həkim yardımı lazımdır. Şikayətinizə sonra baxarıq. Rahib əllərini hakimin üzünə sarı uzatdı. Az qaldı qulaqlığı qamarlayıb onun əlindən alsın. Lakin harada olduğunu yadına salıb əllərini tez yanına saldı.

- Yox, yox, lazım deyil, mən xəstələnməmişəm. O, kağızı barmaqlarının ucu ilə bir daha hakimə doğru itələdi. Bunu oxuyun, bunu! Muxtarov qulaqlığı yerinə qoydu. Simasında ağtır xəstəliyin, səsində sağlam qəzəbin əlamətlərini görüb duyduğu Rahibi heyrətlə süzərək ərizəni oxumağa başladı: Rayon xalq hakiminə. A (kənd) rayonun V. Qəsəbə sakini Zeynəb Alı qızı tərfindən

NANKOR ÖVLAD

Bu hansı Zeynəb Alı qızıdır? Məncə V. qəsəbəsində gərək ondan başqa Zeynəb adlı adam olmasın. O ki…Bu nə zaman yazılmış ərizədir? Muxtarov ərinzənin mətləblə dolu yerini oxumamış tarixinə baxdı "27.V.61". Ərizə bu gün yazılmışdı. Həm də şəhərdən yüz kilometrlərlə uzaq olan bir dağ rayonu qəsəbəsindən. Halbuki, Muxatrov üç il orada işləmiş, qəsəbə camaatınını çoxunu tanımış, bəzilərinin sevincindən, kədərindən xəbərdar olmuşdu. Bir günə oradan şəhərə ərizə çatdırmaq qeyri-mümkün idi. "Əhliman Alı qızı". Bu ad rayon qulluqçularının hamısından çox ona tanışdır. Yaşı cavan, özü qoca o balaca cüssəli arıq süpürgəçi Muxtarovun xəyalında canlandı. Budur cavan hakim institutu bitirəndən sonra iki gündür ki, işləyir. Nimdaş qara kəlağayının altından ağ saçları partlaşıb çıxmış, məyus baxışlı, yorğun üzlü Zeynəb ona çay gətirir. Onun qolları o qədər gücsüz, dizləri o qədər taqətsiz görünür ki, elə bil bir stəkan çay öz böyük ağırlığı ilə onun irəli dartıb arxasınca sürüyür. Muxtarov onun üzü üstə yıxılacağından qorxub cəld qalxır, Zeynəbin əlindən stəkanı alıb stolun üstünə qoyur, arıq çiyinlərindən tutub onu ehtiyatla divanda əyləşdirir. Özü də onunla yanaşı oturur. Muxtarov heç kimdən çay istəməmişdi. İçməyə də işatahı yox idi. Süpürgəçinin qərib üçün özü düşünüb, özü eləmək istədiyi bu hörmət Muxtarovun başını sinəsinə endirir. Onun nəzərləri döşəməyə zillənəndə Zeynəbin dabanıbasıq dəri məstinin deşilib dağılmış burnundan görünən barmaqları, köhnələrdən kəsilib tikilmiş ayaqlığı qara, boğazlığı ağ dəlmə-deşik corabları, ətəkləri didilmiş qara tumanı, hansı parçadan olduğu bilinməyən yamaqlı koftası iynə kimi Muxtarovun gözlərinə sancılır. Onu qəhər titrədir. O göz yaşlarını zorla saxlayıb Zeynəbin qoluna girir. - Xala dur sizə gedək. Onlar həyətə çıxırlar. Bir mərtəbəli ağ binadan küçəyə uzanan qırmızı kərpic döşənmiş cığırla, cavan şam, söyüd, çinar ağaclarının arası ilə asta-asta irəliləyirlər. Hava tutqun, göy qaşqabaqlıdır. Seyrək yağış damcıları yarpaqları pıçıldadır. Qəfildən külək qalxır, Zeynəbin kəlağayısını başınlan alıb saçlarını sovuran söyüdün alçaq budağının üstünə salır. Muxtarov Zeynəbi buraxıb kəlağayının dalınca getməyə ehtiyat edir. Ona elə gilrdi ki, süpürgəçidən əl götürsə külək onu çırpıb sümüklərini sındıracaqdır. Hakimin vurnuxduğunu görən müstəntiq tez

eşiyə atılır, kəlağayını gətirib Zeynəbin başına örtür. Hakim ona həkim çağırmağı tapşırır. Muxtarovla Zeynəb binanın arxasından keçən küy-kələkli dağ çayının ensiz taxta körpüsündən adlayıb eyvansız alçaq daş evin qapısı ağzında dayanırlar. Zeynəb koftasının düymə ilgəyindən asdığı paslı haçarı titrək əllərilə qıfıla keçirir, sağa-sola burur, qapını itələyir, Zeynəbi öz yarıqaranlıq evinə gətirir. O içəri göz gəzdirir. Ağac çarpayını, qoca adamın laxlamış dişləri kimi hər qılçası bir yana əyilən, üstünə qalayı getdiyindən köz kimi qızarmış mis sini, parç, saxsı kasa qoyulmuş stolu zorla görür. Yanları içinə yoğrulmuş kiməsə yas saxlayan boynuburuq sarı samovar buxarının içinə qoyulmuşdur. Çarpayının üstündəki yorğan-döşəyin üzü cırılmışdır. Pəncərənin alt gözlərinə cındır, üstəkilərə xəmirlə qalın kağız yapışdırılmışdır. Muxtarov sanki uzun müddətli həbs cəzası çəkdikdən sonra gəlib öz doğma anasını bu gündə görmüşdü. Cansıxıcı otaqda hər şey necə də yekrəng, yeknəsəkdir. Burada yalnız çarpayıya uzanmış Zeynəbin göz yaşları aydın və parlaq görünür.

- Xala, oğuldan, qızdan kimin var? Muxtarov, həkim gələnəcən Zeynəbin ağzını sözə tutur ki, o bu halda sa da kədərlənməsin. Lakin əksinə olur. Uyumuş dəniz tələtümə gəlir. O elə köks ötürüb, elə ah çəkir ki, onun iniltisi, naləsi od olub Muxtarovu yandırır.

- Eh, ay oğul, məni danışdırmasan yaxşıdır.

- Sənə nə qızın baxır, nə də oğlun? Zeynəb yanı üstə çevrilib əllərini başının altında cütləyir.

- Qızım yoxdur, bircə oğlum, Rahibim var. O da şəhərdə yaşayır. Yeddi ildir üzünü görmürəm. Eşitdiyimə görə məktəbin birinci kursunda ikən evlənib. Arvadı varlı-hallı nəsildən olsa da yiyəsini yıxmış atdır. Neynək, təki xoşbəxt olsunlar. Amma o… Zeynəbin sözünün dalı gəlmir, hıçqırıqlar, hönkürtülər onu boğur, o arxası üstə çevrilir, kükrəyən qəhər onun taxta sinəsini endirib qaldırır. - Ağlama xala - deyə Muxtarov əlini onun başının altına salır, digər əlilə Zeynəbin göz yaşlarını öz dəsmalına hopdurur. - Mən sənə oğlundan da artıq olacam.

- Sonsuz olsaydım ay oğul, dilənib-dolanardım, oğul yarasından ağrımazdım. Əl boyda kağızsa da yazmır. Mən onun puluna muştaq deyiləm. Mənə onun o quru qaraltısı bəs idi. Muxtarovun bir gözü qapıdadır. O həkimin gəlməsini səbirsizliklə gözləyir. Fikri mağazaya gedib Zeynəbin yorğan-döşəyinə üz, yeməyinə meyvə, içməyinə qənd, çay almaq, usta tapıb pəncərəyə şüşə saldırmaqdır. Lakin Zeynəbin nəfəsi gedir, bir də qayıtmır. Onun gözləri dirənir, bədəni qatıb ağaca dönür. Muxtarovun xəyalından silinməyən bu acı xatirə onu az qala indi də ağladacaqdı. - Ərizəni kim yazıb? Rahib də bayaqdan bəri alnını əlləri üzərinə qoyub fikri-fikrə calayır, düşüncəni-düşüncəyə yamayır, quş olub kəndə uçmaq istəyir - pulu yoxdur qanadsızdır, ilan olub sürünmək, arvadını çalmaq istəyir - dişi çıxarılıb zəhərsizdir. O gah özünün acizliyinə inanmayıb ömrü arvadı ilə görüşənəcən olan qeyrətlə silahlanır, ona tabe olmur, onunla razılaşmır, anasına görə arvadından ayrılıb uşaqlarını atır, gah da Təyyarənin qəzəbli, yüz hiddət oxu atılan meydan oxuyucu gözlərini görür, səsini eşidir, həqirləşirdi. Rahib orta ixtisas məktəbinin birinci kursunda oxuyurdu. İki ay idi yataqxanada yaşayırdı. Onun yaşadığı aynaları gündoğana baxan otaqla üzbəüz, küçənin o tayında bir ev vardı. Hər axşam çağı aradan balkona qara qribdişin donlu, sarıyanız, çənəsi xallı, uzunsaç bir qız çıxır, stulda oturub məhəccərə söykənərək kitab oxuyurdu. Rahib də pəncərəni açıb saatlarla ona baxır, yalandan öskürür, asqırır, qızın diqqətini özünə cəlb etməyə çalışırdı. Arif qız da onu başa düşüb kitabla üzünü örtərək gülümsünürdü. Günlərlə davam edən bu qaş-göz söhbətindən sonra Təyyarə bir axşam geyinib küçəyə çıxdı. O qabağa düşdü, Rahib isə dala. “”Nizami bağında Təyyarə gediş-gəliş az olan xiyabana buruldu. Skamyada oturdu. Yol boyu o başını döndərib bircə dəfə Rahibə, kölgəsinə baxmamışdı. Rahibə elə gəldi ki, qızın başqa gözaltısı var, vədələşiblər, oğlan bu saat ağacların arasından çıxacaq, gəlib qızın yanında oturacaqdır. Ona görə də qıza yaxınlaşmağa cürət etmədi. Qorxa-qorxa qızın yanından keçəndə Təyyarə hırıldadı. Rahibə də bu lazım idi. O dili tutar-tumaz qıza:

“Axşamınız xeyir” - dedi. Təyyarə qəhqəhə çəkdi. Rahib cəsarətləndi. Udquna-udquna yanını skamyaya qoydu. - Nə yaman çox udqunursunuz? Deyəsən qorxaqsınız.

- Təyyarə başını oynadıb qızıl gilənarvari sırğalarını yırğaladı, dodaqlarını açıb qızıl dişlərini parıldatdı.

- Kişi ki, qorxaq oldu heç bir şey. Rahib gicirişmiş kimi çiyinlərini tərpətdi, əllərini ovuşdurdu, cəsarətini toplayıb xırıldadı.

- Təcrübəsizlikdəndir. Onlar gecə saat birdə evə döndülər. Bağa dal-qabaq gedən aşiqlər evə bir-birinin nəfəsini uda-uda qayıtdılar. Təyyarənin anası ertəsi günün axşamı Rahibi qonaq çağırdı. Onun adına xörək, meyvə, çay süfrələri açdılar. O gecə onu qonaq otağında ən yaxşı çarpayıda yatırtdılar. Dünən od düşmüş pambıq bu gün küləklə alovlandı: Ertəsi gün Rahibə min beş yüz manatlıq kostyum, bahalı ayaqqabı, köynək, şlyapa geyindirildi. Nahardan sonra kəbin kəsdirməyə getdilər. Rahibin görkəmi büsbütün dəyişdi. Dünənki adamı bu gün tanımaq olmadı. Təyyarə onun yataqxanadan gətirdiyi cehizini - canı getmiş parusin şalvarını, göy dioqonal köynəyini döşəmə əskisi elədi. Məktəbi bitirənəcən Rahibin həddi nəydi anası haqda Təyyarəyə bir söz deyəydi. Doğrudur o özünü yetim kim təqdim etməmiş, anasının ondan asılı olmadığını söyləmişdi. Özünü saxladıqları, bəy balası kimi geyindirib görmədiyi günə çıxartıqları təqdirdə o hansı üzlə anasının vəziyyəti barədə söhbət aça bilərdi?! Təhsili başa vurub əli sənətilə, cibi öz pulu ilə sevinəndən sonra da o şüursuz surətdə ancaq sevinclə girdiyi qoz qabığından kədərlə çıxa bilmədi. Təyyarənin yaxşılığı, hörməti müqabilində öz qazancının üstündə ağalıq eləmək fikrindən utandı. Ərinin fikrini anlayan Təyyarə ondan fənd tərpəndi. İşlədikcə burnunun qalxmasından, dilinin uzanıb irəlini-gerini düşünmədən havalanmağa meyl etməsindən qorxan Təyyarə Rahibin cilovunu vaxtında yığdı. Təyyarə ona imkan vermədi ki, o anasına azdan-az, çoxdan-çox kömək eləsin. İşləyən Rahib də olsa onun əlinə on manatdan artıq pul gəlmirdi. Deyirdi ki, kişi cibində çox pul gəzdirməməlidir. Birdən dost-tanışı rast gələr, üzə salıb restorana aparar, cibini boşaldıb yola salarlar, ailəsi də "Allahdan buyruq, ağzıma quyruq" deyib ağzını göyə açar. Ayın başı yaxınlaşanda Təyyarə Rahibə etibarnamə yazdırır, pul paylanan vədəni telefonla öyrənir, ərinin zəhmət haqqını kassadan özü alır, sağa-sola səpirdi. Rahibə isə tramvay və papiros pulundan başqa artıq bircə manat da vermirdi. Hətta ərinin cibinə girən qəpik-quruşun da dalınca gözləri qalırdı. - Niyə həmişə tramvayla gedib-gəlirsən? Qocalmamısan ki,dizinin taqəti olmaya. Hər ay tramvaya gör nə qədər pul xərcləyirsən?! Uşaqlar yağı su yerinə işlədirlər. Sənə nə var, səhər gedib axşam gəlirsən. Uşaqların əlində qalan mənim yaxamdır. Hər şeyi məndən istəyirlər. Bircə gün evdə qal gör nələr eşidirsən?! Özümü də ki, unutmuşam. İki cüt bir tək donun içində qalmışam. Nə gün gördüm ata-anamın qanadı altında gördüm. İndi onlardan pul istəyə bilərəmmi? Bilmərəm! Çünki ərim var. Kül mənim başıma! Gör kim idim, axırım nə oldu. Xalq gündə birini geyinib sallanır. Mən yazıq günü qara isə daşı-daşa, başı-daşa vurur, barmaqla tel burur, nəfəslə paltar quruduram, adım yenə pisdir. Çatdırmaq olmur deyəndə elə bilirsən qazancını aparıb atamın cibinə doldururam. Əsə-əsə otuz manatxərcləyəndə bir ətsiz, dadsız acından ölməmək üçün yeyilən supdan başqa ayrı xörək bişirmək olmur. O hesabla bir ayda gör nə qədər pul lazımdır. Hələ ev kirayəsizdir, işıq, qaz, su pulunu atam verir. Onca gün evin arvadlığını eləsən onda sən kotan bilərsən ki, mən qayış nə çəkirəmmiş. Təyyarə "ehtiyac" ucundan Rahibə papirosu da tərgitməli oldu. - Papiros sənin harana yaraşır?! O adam papiros çəkər ki, içini piy, ürəyini yağ almış olsun. Sürmə çox olanda həm qaşa, həm də gözəçəkərlər. Amma bizim sağ yanımızı soyuq aparır, sol yanımızı gün. Nə istidən qoruna bilirk, nə də soyuqdan. Papirosa verdiyin pulu yığıb özümüz cəhənnəm - uşaqlara bir şey alsaq pis olar?! Bir ildə səkkiz yüz manatı niyə suya atırsan?! Rahib anasına pul göndərmək xahişinin rədd edilməməsi xatirinə Təyyarənin əmr və göstərişlərinin icrasında müti quldan seçilmədi. O hətta Təyyarənin tapşırığı üzrə ayda bir dəfə dəlləkdə baş qırxdırmaqdan da məhrum edildi. Baş maşını aldı, bir güzgünü önə, digərini arxaya soxub öz başında dəlləklik eləməli oldu. Rahib bir dəfə gecə yarı arvadının kefinin kök vaxtı ondan soruşdu:

- Bu gün nə qədər pul aldın? - Min iki yüz. - Borcumuz yoxdur ki?

- Yox. Sükut keçdi. Təyyarə xəbər aldı. - Neynirdin? Rahib onun tərləmiş alnı ilə geriyə sürüşdürdüyü əlini Təyyarənin saçlarında saxladı. Udqunub alnını arvadının gicgahına söykədi. - Razı olsan anamı yanımıza gətirərdim. Təyyarəni elə bil əqrəb dişlədi. Sıçrayıb oturdu. Yorğanın

ucu ilə üzünü yellədi. - Onu görməyəcəksən! "Ayağıma yer eləyim, gör sənə neynəyim" - sənin kimisinə deyiblər. "Anam". Hı… - Yaxşı di hirslənmə, gətirmərəm. Onda sabah bir az pul göndərə bilərsənmi? - O bizdən də yaxşı dolanır. Ayda üç yüz əlli manat almırmı? - Almır, hardan alır. Bir ayın on beş gününü işləyir, on beş gününü də xəstə yatır. - Yatmasın! Sənin pulunu adam başına bölsək heç bizim hərəmizə o qədər düşmür. O üç yüz əllidən başqa toyuq saxlayıb yumurta, dirlik-tərəvəz becərib göy-göyərti də sata bilər. Niyə çalışmır?! Bilmirmi oğul öz külfətini güclə dolandırır?! - O bizdən heç nə istəmir, bunu mən deyirəm. - Sən nahaq deyirsən. Bir də ana məsələsini qaldırma. Qaldırsan mən də öz anama kömək etməli olacam. Sən o tərəfə dağıt, mən bu tərəfə, altda qalanın canı çıxsın! Rahib arvadını insafa, yola gətirə bilməyəndən sonra anasının adından şikayət yazdı ki, hakim hökm versin, mühasib onun məvacibindən hər aya iyirmi beş faiz tutub anasına göndərsin. Təyyarə də elə bilsin ki, şikayətçi doğrudan da Rahibin anasıdır. İş bu cür düzəlsə Təyyarə Rahibi dolaya bilməzdi. Lakin ana qeydinə rəsmi surətdə qalan oğul qış yuxusundan gec oyanmışdı. … Hakim bir də soruşdu: - Ərizəni kim yazıb? Rahib başını qaldırdı. Yenə də udqundu. Yorğun baxışlı, küskün ifadəli gözlərini Muxtarova çevirdi. - Ərizənin ayağına baxın. - Kim gətirib? - Qonşusu, mən. - Ərizə bu gün yazılıb. Sən iki saata bez yüz kilometr yolu qət edən hansı sürət qatarı ilə gəlmisən?! Rahib duruxdu. O bu dəfə elə udqundu ki, boğazı quruldadı. - Samolyotla gəlmişəm. - Yalançı! Muxtarov qalxdı, asılqandan şlyapasını alıb başına qoydu. - Gəl Rahibgilə gedək! Rahib hakimin qollarından tutdu. Yalvarışdan heç nə ilə fərqlənməyən iniltili bir səslə dilləndi: - Siz zəhmət… zəhmət… o evdə… Onu sizin yanınıza… Muxtarovun gözlərində və dodaqlarında istehzalı bir təbəssüm can verib öldü. - Rahib sən deyilsənmi? Rahib dəhşət içində geri çəkildi. Əllərini üzü bərabərinə qaldırdı. - Yox, yox… mən… Hakim ona sarı yeridi. Sanki Rahibin üstünə əzəmətli bir dağ gəlirdi, bu saat onu öz altına alıb əzəcək, torpağa gömürəcəkdir. Rahib kürəyini qapıya söykədi. Elə bil o, nağıllarda eşitdiyi əcinnələr yığnağına düşmüş, qorxudan dəli olmaq dərəcəsinə çatmışdı. Muxtarov onun qarşısında dayanaraq: - Rahib, - dedi - bura dəyişdirildiyim üç gündür. Bu vaxtacan sizin rayonda işləyirdim. Mən Zeynəb xalanı tanıyırdım. Mən hər şeydən halıyam. Rahib əllərini saçına çəkdi. - Tanıyırsınız?.. Hakim davam etdi. - Bəli, tanıyırdım. Təəssüf ki, o qara torpağın qismətini əcəlin əlindən ala bilmədim. Rahib hönkürtüdən qabaq çıxan boğuq bir səslə bağırdı: - Ölüb?! Muxtarov başını buladı. Rahib belə hiss etsə də bu "yox" işarəsi deyildi. Bu canından-can, qanından-qan, həyatından-həyat bağışlayan bir ananı unudan, onun ölümündən bixəbər olan övlada qarşı hakimin asi vicdanının acı əfsusları idi. - Rəsmi yardım ana üçün qayğı, ehtiram deyil, Rahib. Övlada - ana, anaya - övlad məhəbbəti lazımdır. Anaya övladın min manatından onunla bir dəfə qucaqlaşıb öpüşməsi qiymətlidir. Ana oğulun varı-dövlətilə yox, boy-buxunu ilə sevinib qürrələnir. Övladını tez-tez görən ananın ömrü gödəlməz! Ananı ikinci dəfə tapmaq olmaz! Əyər onu bir də tapmaq mümkün olsaydı heç kimi yetim çağırmazdılar. Zeynəb xala mənim qucağımda candan oldu. Ölü diridən heç nə istəmir. Get, bilirəm təəssüflənəcəksən, amma unutma ki, ana məhəbbətini həyat eşqinə, qadın sevgisinə təslim vermək naqislik, nankorluq, nanəciblikdir. Rahibin dizləri qatlandı. O, onu gətirib bu yerə çıxaran ağılsız başını əlləri içinə alıb hönkürdü.

O TANIDI

Zinəddinlə Şükufə yay tətilinə gələndə Tərminə xala briqadirdən icazə alıb bir həftə, on gün evdə qalar, otağın havası hər vaxt yaxşı olmur deyə brezent plaşdan bağda çadır qurar, uşaqların yatıb-duracağını ora köçürərdi. Axşamdan içinə limon sıxıb hazırladığı şərbəti çiy yumurtadan, şəkər qatılmış qırmızı kök pürəsindən qabaq onlara içirərdi. Ya qoyun, ya da quzu kəsib cürbəcür ət, xəmir xörəkləri bişirər, özü demişkən dərs başlanana kimi onları yağa-bala tutaraq institutun ağır imtahanlarından çıxmış uşaqlarının başının içini qüvvəli yeməklərlə qalaylayardı. Lakin onları on gündən artıq əzizləməzdi. Ən geci on üçüncü gün onların hərəsinə bir iş tapşırardı. Şükufəyə dirlik-tərəvəzi becərdər, Zinəddinə isə tənəkləri dərmanladar, onların

bicini vurdurar, ağacların dibini boşaltdırar, bağ-bağatı suvardardı. Həyət-bacada görüləsi iş qalmayanda onları özü ilə çölə aparır, pambığın alağını çəkdirərdi. Dərslərin başlanmasına iyirmi gün qalmış onların istirahətini yenidən əvvəlki qaydaya salardı. Ancaq o bu dəfə ərilə dalaşdığı üçün ögey uşaqları gözdən salan analığa dönmüşdü. Üç gün ərzində uşaqlarının adına nə yaxşı bir xörək bişirmiş, nə də açıq qaş-qabaqla onların üzünə xoş dillə hallarını soruşmuşdu. Hətta səhər də, axşam da çay içməmiş dilinə çörək, xörək vurmayan arvad nahar eləmədən işə gedirdi. Qayıdanda da inəyə, qoyun-keçilərə, toyuq-cücələrə baş çəkməklə vaxtını keçirir, evə yalnız yatmağa girirdi. Özü də necə yatırdı? Yorğana bürünüb üzünü divara tərəf çevirirdi. Gah köksünü ötürür, gah bədənini qaşıyır, gah da qılçalarını qatlayıb açaraq çarpayının yayını cırıldadırdı. Zinəddinlə Şükufə Tərminə xalanın kefsizliyindən çox naraht olmuşdular. Bədbinliyinin səbəbini soruşanda da ondan yaxşı cavab eşitməmişdilər. Zinəddinə elə gəlirdi ki, Tərminə xala Şükufədən küsüb. Ona görə də bacısından dünən, srağagün anasına nə dediyini, kəndə gəlməzdən qabaq göndərdiyi məktublarında nələr yazdığını xəbər almışdı. Lakin Şükufə də əksinə fikirləşirdi. Təqsiri qardaş bacıda, bacı da qardaşda görürdü. Tərminə xalanın qaş-qabağı düzəlmədikcə onların biri digərini müqəssir sanırdı. Dördüncü gün Şükufə anasına yalvardı: - Ana, sən atamın qəbri qanın niyə qaradır? Tərminə xala həyəti süpürürdü. Səhər idi. Zinəddin də, Şükufənin öz evlərinə qonaq gətirdiyi rəfiqəsi Dilruba da hələ yatırdılar. Qapı örtülmüş, aynaların pərdələri salınmışdı. Onların səsi evdəkiləri oyada bilməzdi. Tərminə xala qızına cavab vermədi. Ona arxasını çevirərək həyəti elə süpürdü ki, yerdən qopan kəltənlər dığarlanıb Evin divarına çırpıldılar. Şükufə onun biləyindən tutdu. - Sən Zinəddinin canı nolub? Tərminə xala qəddini düzəltdi. Alt dodağını dişləri arasına aldı. Süpürgəni həyətin o başında dənlənən toyuğa atdı. Toyuq pırıldayıb göyə atıldı.

- Ay ana, gühkaramsa məni döy, yazıq toyuğu niyə dəli eləyirsən?! Tərminə xala əlinin arxası ilə qızını yana itələyib süpürgəni götürməyə getdi. Şükufə də onun arxasınca irəlilədi. - Məni öldürsən bundan yaxşıdır, axı nolub ki?!

- Ana...

- Anan-zadın deyiləm! "Anna," Görürəm, yaman ana qədrini bilirsiniz! Tərminə xala həyəti təzədən süpürməyə başlayanda Şükufə süpürgədən yapışdı: - Ver mən süpürüm. Tərminə xala süpürgəni arxasına hərləməklə Şükufənin əlini öz biləyindən rədd elədi. - Biz sənə neynəmişik? - Şükufə doluxsundu.

- Daha neynəyəcəksiniz?! Qaradan artıq rəng olmaz! - deyə Tərminə xal ot çardağının dirəyinə bağlanmış dananın çatısını boğazından açdı. Onu süpürgə ilə hədələyib qorxudaraq həyətdən qovmağa, sürünü yolla örüşə haylayan naxırçının qabağına qatmağa çalışdı. Lakin həyətdən çıxmaq istəməyən dana da o yan-bu yana qaçıb onu bir az hərləndirdi. - Lənətə gəlmişə bax ha, mənlə oyun oynayır. Sən də mənə şələsi arxasına düzəlməyə bir şey qalmadıqca ağıllanmaqdansa zayıllayan nəmənələr olacaqsan?! Onlara gücüm çatmasa da sənə çatar. And olsun məni yaradana gönünü soyduraram. O-h-a, a gönün üstündə doğranmış yolu tanımırsanmı?! Şükufə anasına kömək etmək məqsədilə yerdən bir daş götürüb atdı ki, özünü qaça-qaça bağa salmağa çalışan dananı geri qaytarsın. Lakin o qaş qayırdığı yerdə vurub göz çıxartdı. Daş dananın qulağının dibinə necə dəydisə o böyürüb iki-üç dəfə yerində fırlandı. Başını silkələyib qulaqlarını çırpdı. Huşsuz halda evin divarına sürtünə-sürtünə yola çıxıb sürüyə qarışdı. - Sizə nə var, əliniz ağrımız, qolunuz ağrımır. Ot-ələfin dərdini çəkmirsiniz, altını-üstünü kürümürsünüz, vurub öldürə də bilərsiniz, nə vecinizədir. - Tərminə xala deyinə-deyinə vedrələri eyvandan götürüb çaydan su gətirməyə gedəndə Şükufə onun yolunu kəsdi: - Ana, sən atamın qəbri məni peşman eləmə. O səndən narazı getsə, evlərində danışsa ki… O nə bilir… Onun anası mənə o qədər hörmət eləyib ki… Səni tərifləmişdim. Biz bir axmaqlıq eləmişiksə, təqsirimiz varsa, nə istəyirsən elə. Amma qonağın xatirinə…

- Gülüm hə?! -

… Tərminə xala qızına istehza edib dirsəyilə onu yolundan kənara tərpətdi. - "Tərifləmişəm". Sənin tərifin olmasa başımı qarğalar dimdikləyər. O su daşıyıb ağac boçkanı doldurdu. Çardaqdan aralı ocaq qaladı. Böyük qazana su töküb ocağın üstünə qoydu. Çardaq

dirəyinin haçasından asılmış vannanı yerə endirdi. Eyvandan tabureti gətirdi. Çirkli paltarları rənglərinə görə seçəndən sonra müşənbə önlüyü sinəsinə tutub onları yumağa başladı. - Sabahınız xeyir - deyə eyvana çıxıb onları salamlayan Dilrubanın səsindən kürəyini divara söykəyib bayaqdan bəri uzun-uzadı düşünən Şükufənin üzünə süni bir təbəssüm qonsa da Tərminə xalanın hiddəti birə-beş artdı. Paltarları elə övkələdi ki, barmaqları arasından özünə güclə yol tapıb çıxan sabunlu su sıçrayıb ətrafa dağıldı. "Ağrım ürəyinə! Sənin salamına qalmışam!" - Sən dura-dura ananın paltar yuması eyib deyili?! - deyə Dilruba Şükufəni töhmətləndirib Tərminə xalanın yanına gəldi. - Anacan, icazə ver, mən yuyum. Tərminə xala ona əyri-əyri baxıb böyrünü çevirdi.

- Özüm ölüm qoymaram - Dilruba israr edəndə Tərminə xala çiyinlərini oynatdı. - Lazım deyil! - Qurban olum icazə ver - Dilruba onun boynunu qucaqlayıb üzündən öpdü. Tərminə xalanın üzünü elə bil gicitkan daladı. Ürəyində ona: "Zırrama" adı verib üzünü çayda yumağa getdi. Qayıdıb gələndə gördü ki, saçı kəsik, tumanı dar olduğu üçün meymun adlandırdığı qız, yeyib yatmaqdan, özünə tumar verməkdən başqa əlindən bir şey gəlməyən adam hesab elədiyi qonaq paltarları bir övkələyir ki, gəl görəsən. Paltarları sabun köpüyü içində itirir, onların ən çox çirk götürən yerlərini xüsusi diqqətliliklə gözdən keçirir. Tərminə "Bir atım barıtı var - deyə düşündü. Dili çöldə qalıb ləhləyəcək". Dilrubanın iki-üç paltarı əməlli-başlı yuya biləcəyinə inanmadı. Samovara od salırdı. Kiçik dairəvi stolu, stulları həyətə, oradan da bağa aparıb ağacların kölgəsində irahladı. Şükufənin "Özüm yüyaram, sən mənim canım özünü yorma. Qonağı işlədərlər heç?!" deyən səsini eşidəndə dişi bağırsaqlarını kəsdi: "Qoysana yuya! O yör-yöndəmin yiyəsindən onsuz da iş görən olmaz! O ki, lovğalanıb özünü mənə göstərmək istədi qoy işləsin, yorulub adını özgədən xəbər alsın da, bu yoluq sağsağan". Dilruba isə Şükufəyə deyirdi: - Get naharı sən hazırla, ana çöldə də işləsin, evdə də?! "Elə yekə-yekə danışır ki, üzünü görməyib səsini pərdə dalından eşidən olsa ona bərəkallah oxuyar - deyə bişmiş süd qazanını bağa aparan Tərminə xala pıçıldadı. - Özünə bax, söylədiyi sözə bax?!" Şükufə anasının dalınca hərlənsə də ona heç nə deyə bilmədi. Tərminə xalanın, qonağın yanında ona acıqlanmasından qorxdu. Dilrüba əllərinin sabunlu suyunu vanaya çırpıb Tərminə xalanı pilləkanla eyvana qalxdığı zaman qabaqlayaraq qolunu onun boynuna saldı. - Ana, sən otur, biz sənə qulluq eləyək. Tərminə xala əlilə onun qolunu boynundan götürüb aşağı saldı. Dilrubanı ona həyasız, arsız, qorsuz bir adam kimi tanıdan onu dar yubkasına, boynunu dalını güclə örtən hamar kəsilmiş gödək saçlarına, ağ kapron koftanın altından görünən narıncı gecə köynəyinə, karsetə salındığı bilinən şişkin sinəsinə ikrah hissilə baxdı. Gözlərində nifrətin yaxıcı atəşi alovlandı. - Xətrimə dəysən küsüb gedərəm - deyə Dilrüba mehribanlıqla əlavə edəndə o çevrilib bağa qayıtdı "Dalınca bir qara daş getsin! Dünəndən getsən indi iki gün olardı". Günortadan Dilrubanın yuyub-qurtardığı, qaynadılıb nişastaladığı paltarları Şükufə yaxalayıb günün altına sərmişdi. Günortadan sonra isə Tərminə xalanın ondan bu hünəri gözləmədiyi qonaq dördkünc stolu eyvana çıxartmış, elektrik ütüsünü işə salmış, paltarları ütüləməyə, onları səliqə ilə qatlayıb üst-üstə yığmağa başlamışdı. O ütünü axırıncı palтarın üzərində gəzdirəndə Tərminə xala buxarının qabağında oturub xəngəl yuxası yayır, doğradıqlarını əzilməsin deyə bir-bir, iki-bir götürüb qaynayan qazanın içinə salırdı. Zinəddin bağda uzanıb kitab oxuyur, Şükufə isə gah sarımsaq döyür, gah da elektrik peçinin üstündəki sapılcada cızıldayan yağı qarışdırırdı. Dilruba ütünü şəbəkədən ayırıb Tərminə xaladan soruşdu: - Ana, döşəməsiləniniz yoxdur? - Yox. - Bəs onsuz belin ağrımır, hər dəfə əyilə-əyilə necə silirsən? Döşəmə yaman çirklənib, xörək yeyəndən sonra silmək istərdim. "Öz qızım qalıb bir qıraqda, bu mənim dərdimi çəkən olub. Canından ötrü nə əldən-ayaqdan gedir?! Əlbəttə sənin kimilərin beli ağrıyar o paltardan ət-əndamı görünən nəmənə! Sənin kimiləri deyilmi bəzi kişilərə arvadını boşatdırıb uşaqlarını atalı yetim elətdirən!" - deyə Tərminə xala deyinib Dilrubaya sərt bir nəzərlə boylandı. Qonağın nəfəs aldıqca az qala koftanıdeşib çıxan titrək sinəsinə, kəhraba kimi ağ ətli qollarına, incə belinə, yoğun baldırlarına, hətta onun özünü də sehirləyəcək qüdrətə malik cazibədar göy gözlərinə baxanda sanki üzünə kül üfürdülər. Tərminə xalanın üz-gözü qırışıb qəribə bir şəkil aldı. Dilruba Zinəddini səslədi:

- Zinəddin qardaş, döşəməsilən qayıra bilməzsən? Tərminə xala ağzını ocağa tutub çımxırdı:

- Bacarmaz! - Ana, onu bacarmağa nə var ki.

- Dilruba Tərminə xalanın böyründə çömələb dizlərini bir-birinə yapışdırdı. Əlin içinə yerləşəsi arşın yarım uzunluğunda bir ağac olsa kifayət edər. Ağacın ucunu kərtəcək, ora da qol boyda bir taxtanı köndələn mıxlayacaq. Tərminə xalanın üzünü ocağın istisi yandırmış kimi bədənini hərləyib yönünü o tərəfə çevirdi. Bu, "Zəhləmi tökmə!" demək idi. Ürəyində isə ayrı şeylər söyləyirdi? "Mənə necə də şirin-şirin ana deyir?! Yazıq deyiləmmi sənin anan olam! Ağrım sənin cilovunu buraxan ananın ürəyinə!" - Gedib dülgərdən xahiş elərəm düzəldər - deyə Zinəddin eyvana girdi. - Dilruba bacı onu düzəltmək üçün alət lazımdır. Mən də alət sarıdan kasıbam. Düzəldərəm, ancaq kobud çıxar. Tərminə xalanı elə bil hop götürüb ayaq üstə qoydular və kürəyindən Zinəddinə doğru itələdilər. Ana ilə oğul bir neçə an gözləşdi. Zinəddin də, Dulruba da onun gözlərindən bunları oxudu: "Havaxtdan bəri özbaşına olmusan ə?! Evin böyüyü mənəm, yoxsa bu nəmənə?!" Tərminə xala onların ikisinin arasından keçib eyvanın sütununa çalınmış mıxçadan tutaqlacı götürdü. Qazanı yerə düşürdü. Kəfkiri əlinə alıb xəngəl yarpaqlarını qazanın içində ovlamağa başladı. Dilruba bu anacan elə güman etmişdi ki, Tərminə xala qaraqabaq arvaddır. Tək ona qarşı deyil, öz uşaqlarına da soyuqdur. Hər cür qayğı, mehribanlıq o olan yerdə öz gözəlliyini itirir. İltifat, nəzakət canfəşanlığa oxşayır. Ona cansıxıcı, yekrəng görünən bu həyatı Zinəddinlə Şükufə üçün ətalət, məhbəs adlandırmışdı. Lakin indi sövqtəbii olaraq hiss etdi ki, Tərminə xala düşündüyü kimi qaba rəftarlı, sərt təbiətli adam deyil. Onun beynini qaynadan bir şey var. Tərminə xalanın baxışları əbəs yerə qorxunc ifadə almır. Sir-sifətində covlan edən qasırğa hansı anlayışınsa əlamətidir. "Burada nəsə bir sirr var" - deyə düşünən Dilruba əllərini gicgahlarına yapışdırdı. Belini əyib dirsəklərini dizlərinə dirəyəndə onun saçları axıb üzünə töküldü. Rəfiqəsinin mütəəssir olduğunu görən Şükuənin gözləri yaşla doldu. O hönkürüb evə girdi. Dilruba da durub onun dalınca getdi. Zinəddin isə qazandan, nimçələrdən qalxıb tavana çatmamış havada əriyən buxarın arxasından anasına eşitdirdi:

- Ana, yaxşı iş görmürsən. Eyibdir axı. O burda aylarla, illərlə… onun anası Şükufəni öz qızından seçmir. Neçə dəfə məni də qonaq çağırıblar. O hörmətin qabağında… Tərminə xala qazanı ortadan götürüb qırağa qoydu. Qəzəblə qıyılan gözlərini Zinəddinə zillədi: "Çox dilxor olacaqsınız, hələ harasıdır! Mən sizi oxuyub adam olmağa göndərmişəm. Göndərməmişəm ki, dəlixanadan çıxmışın birini də dalınıza salıb gətirəsiniz. Məni özümdən əskiyin də, özümdən artığın da yanında xar eləyəsniz! Camaat indi atamın goruna söyüb demirmi filankəsin evində bir nəmənə var?! Bu zaman Şükufə özləri eşidə bildikləri bir səslə Dilrubaya deyirdi: - Bilmirəm niyə belə olub. Onun indiki kimi birəftar vaxtını görməmişəm. Aramızda elə bir söhbət də olmayıb. Kaş səni… Əriyib yerə hopuram… Dilruba da şəfqətli sözlərlə rəfiqəsini sakitləşdirirdi.

- Anadır də, neynəmək?! Döymək olmaz, söymək olmaz, üz döndərmək də ki, heç olmaz! Mən incimirəm, sən də vecinə alma, qalx xəngəl yeməyə gedək. Guya bizə heç nə təsir eləməyib. Şükufə, rəfiqəsinin qəribəliyinə heyran qalıb sevindi. Sonsuz bir məhəbbətlə onu qucaqladı. *** Axşamüstü idi. Qızlar xəlçə sərib bağda oturmuşdular. Dilruba Şükufənin yupkalıq krepsatin parçasını biçirdi. Tərminə xala bulaşıqlı qab-qacağı çayda yumağa aparmışdı. Zinəddin də həyətdə odun yarırdı. Baltanı endirdikcə axıb gözlərinin qabağını örtən yumşaq saçlarını başının hərəktilə dala atırdı. Baltanın sapı əyri olduğundan bəzən ortadan iki bölmək istədiyi oduna girməyib yerə sancılırdı. Tərminə xala ona arxadan göz yetirirdi. O baltanı yerə bir də çalanda anası yüyürdü, baltanı Zinəddinin əlindən alıb o yana atdı. - Ayağını yaralarsan! Deyəsən gözün oda-quşdadır?! Zinəddin qızlara sarı boylanıb qızardı. Tərminə xala öz-özünə danışa-danışa çaya yönəldi. "Nə hoqqa çıxartmaq istədiyinizi qanmışam. Siz o dərsləri oxumağa gedəndə mən öyrənib qayıtmışdım. Deyirəm axı gədə qolsuz faykada niyə özündən çıxıb?! Birdən iş-işdən keçmiş olar. And olsun qardaşımın itkin gözlərinə… qızın qarnı qalxandan sonra neynəyə bilərəm?! Yox canım, belə şey olmaz, mən niyə səfehləyirəm. Zinəddinə elə ana süd verməyib ki, onun oğlu naxələf çıxa. Nə deyim, qığılcım qovu yandırar. Birdən sevişib eləmiş olarlar? Bu səhər də ikisi bir otaqda günortayacan köpə-köpə yatıblar. Kim bilir yatırlarmış, yoxsa nə

eləyirlərmiş. Mənim ağlıma bax?!" Tərminə xala Zinəddini yanına çağırdı. - Bu tərəfə keç. O Zinəddinə külək əsən tərəfi göstərdi. Cəhdi Zinəddindən qızın qoxusunun gəlib-gəlməməsini müəyyən etmək idi. Qət etmişdi ki, onların arasında bir yaxınlıq olmuşsa Zinəddinin canına çökmüş ətir qoxusu onun burnunu qıdıqlamalıdır. Tərminə xala boğazı yanmış kimi nə qədər bərk nəfəs aldısa qızın öz hisslərinə tanış qoxusunu duya bilmədi. Və ürəyini şübhədən qurtarmaq üçün bağa - Dilrubanın yanına gəldi. Dilruba parçanı biçib qurtarmış, tikməyə başlamışdı. Tikiş maşınını ahəngdar səsinə ağacların yarpaqları əl çalıb oynayırdı. Budaqlar yırğalanır, .yarpaqların arasından süzülən çəpəki günəş şüaları qızların üzərində rəqs edirdi. Toyuqlar qacala çalır, civildəşən cücələr havada uçuşan böcəklərin arxasınca qaçışırdılar. Qızlar qalxıb yerlərini Tərminə xalaya təklif etdilər. - Anna, otur. - Oturmuram. Tərminə xalanın düşündüyünə görə onlar ağızbir olmuşlarsa Dilrubanın dodaqları solmalı, qurumalı, qaysaqlanmalı idi. Tərminə xala ona etina etməyib öz işində, öz aləmində olan qızın dodaqlarına diqqət yetirdi. Dilrubanın dodaqları üstündən acı yellər əsməyn tər bənövşələrə oxşayırdı. Tərminə xala axtardığını Dilrubada tapa bilməyib əvvəlki qənaətindən utanmış kimi ayaqlarını sürüyə-süryə çaya getdi. "Öpüş görməyib". Lakin şübhə onun qəlbini bir də gəmirdi: "Zamana uşaqları deyillərmi, yəqin ehtiyatlı tərpənirlər. Mən səfehəm ha, heç elə şey olar?! Bir-birinə "bacı", "qardaş" demirlərmi?! *** Günortaya az qalmışdı. Sərin meh əsir, kəndin iki kilometrliyindəki tarla düşərgəsinə uzanan cavan çinar ağaclarının boz, unlu yarpaqları titrəyir, yaşıl pambıq çölü dalğalanır, mavi dənizi andıran tarlada örpəklərinin ucu yellənən ağ geyimli qızlar, gəlinlər adama su üzərinə qonmuş qağayıları xatırladırdı. Göy üzündə buludlar axışırdı. Tarlaya gah kölgə, gah da gün düşürdü. Tərminə xala tarlanın kəndə yaxın tərəfində işləyirdi. Sahədə ketmənlik iş qalmamışdı. Hamı kimi o da əl alağı aparırdı. Boy atıb qol-qola gəlmiş pambıq kollarının arasında baş qaldıran çayır və kalışları, sarmaşıq və tirpəkləri kökündən qoparıb önlüyünə yığırdı. Onun ağ kətan örpəyinin ucu da əllərinin içi kimi yaşılımtraq rəngə boyanmışdı. Miss rəngi almış sifəti tərləmişdi. Əli çirkli olduğundan üzünü tez-tez göyümtül koftasının qol uilə silirdi. - Yorulmayasan ana! Bu səsTərminə xalanı üşütdü. Onun üzünün təri soyudu, sifəti ağardı, şişkin damarlı əlləri bircə anda arıqlayıb kiçildi, gözlərində quduz bir qəzəbin şiddəti göründü. Dünən axşam yatağına uzanıb yatmaq əvəzinə gecə yarıyacan qonağın barəsində fikirləşən, onun gördüyü işləri: paltar yumasını, paltar tikməsini, xörək bişirməsini, döşəmə silməsini, ev adamı kimi hər işə qarışmasını, ağıllı sözlərilə adama təsir etməkdən başqa da kəndli balası təki işdən-gücdən qorxmamasını düşünüb Dilrubaya qarşı bir rəğbət hissi duyaraq "Tumanı dar, saçı kəsik, altdan əti görünən kofta geyinməsəydi…" - deyə təəssüflənən arvadı indi elə bil şaxta vurdu. Qabaqda Dilruba, onun ardınca da Şükufə gəlirdi.

- Ana, sənə kömək eləməyə gəlmişik. - Dilruba gülümsündü. Sanki bahar qışa qarşı yeriyirdi. - İşini köməkləşib qurtarsaq evdə neçə gün qala bilərsən? "Heç olmasa ev eybini örtürdü. Camaatın biri görürdüsə, beşi də görmürdü. Bu gündən sonra lağçıların, bəzək-düzəkçilərin ağzını yummaq olarmı?! Başıma daşlar rüsvay oldum" - deyə düşünən Tərminə xala elə bir ah çəkdi ki, elə bil ürəyi parçalandı. Bu zaman yolda bir "Avtolavka" dayandı. Kabinadan iki cavan oğlan düşdü. Onların birinin əynində xələt vardı. Görünür, o satıcı, yöndəmsiz arıq, uzun oğlan isə şofer idi. Satıcı kuzovun qapısını açа-açа oxuyurdu. - Yemədin getdin. Dərdini demədin getdin. Ceyran südündən bişirmişəm. Özüm elan gətirmişəm. Hərarət söndürən, ağrı kəsəndi, hər dərdə dərmandı, bu. Dilruba satıcını çağırıb soruşdu: - Marocna var? - Hər şey, hər şey, sizə lazım olası hər şeydən varımızdır. Onlar gülüşdülər. Şofer, satıcıya göz vurdu. - Ondandır. Satıcı da eyni ifadə ilə təsdiq etdi. - Ondandır, özü də əla növü. Dilruba "Avtolavka"ya sarı yönələndə Şükufə onu qucuqladı.

- Getmə, qoymaram! O, Dilrubanın nə üçün qayıtdığını anlamışdı. Lakin onu saxlaya bilmədi. - Nəyiniz var, göstərin baxın. - Buyurun kuzova qalxın - deyə satıcı əl-ayağa düşdü. - Hər şeyimiz qurbandır sizə. Malımız da… Dilrubanın satıcının üzündə tapança kim açılan şilləsi onu susdurdu. - Əla növdür?! Dilruba dabanı üstə dala fırlanıb onun arxasında şırmanan şoferə bağırdı: - Ondandır?! Şofer dalı-dalı gedib özünü kabinaya soxdu. "Avtolavka" rayona gedən yola düzəldi. Tərminə xala indi başa düşdü ki, oğlanlar qıza sataşırlarmış. Dilrubanın qeyrəti onu

heyrətləndirdi. Sanki bu heyrət hərarətli suya dönüb onun çirkab içərisində saxlanmış ürəyini yuyub təmizlədi: "Bərəkallah! Kaş kəndimizin qızları ağılda, Kamalda, namusda ona oxşayaydı". Tərminə xala Dilrubanı mehriban bir nəzərlə süzdü. - Ay imanım ağacların kölgəsinə gedək. Tərminə xala dünənki rəftarından utanmasaydı Dilrubanı öpər, öpərdi…

YARAŞIQSIZ EV

Mən bu gün fikrimi dağıtmağa evdən bağa gəlmişəm. Bir yanda oturub mənasız olaraq ətrafı seyr edirəm. Lakin bağda da qəlbim açılmır, üzüm gülmür, şiddətldə döyünən qəlbimi quş kimi çırpınan ürəyim sakitləşmirdi. Fikir, xəyal bütün gücünü səfərbərliyə alıb üstümə hücum çəkir, məni məhv etməyə səy göstərirdi. Ətrafımda əyləşənlər mənim istirahət etdiyimi zənn etsələr də mən istirahət etmirəm, gərgin vəziyyətdə işləyirəm. Lakin mənim gördüyüm iş ağır fiziki işlərdən də yorucudur. Mənlə üz-üzə skamyada oturub sevgilisilə şirin söhbət edən oğlana və nazlana-nazlana onun söhbətlərinə qulaq asan işvəkar qıza acığım tutur. Onların bir-birinə göstərdiyi ehtiram məndə nifrət doğurur. Sakit olmaq əvəzinə narahat oluram. Mahnı oxuya-oxuya tez-tez önümdən keçən şən uşaqlara paxıllığım tutur. Yan tərəfimdə bahar nəsimini xatırladan əlvan rəngli güllər elə bil ömrümə istehza edirdi, məni lağa qoyub irişirdi. Arxadan başımın üstünə tərəf əyilmiş enli yarpaqlı budaq üzümü örtməyə çalışırdı. Sanki o da üzümdə bərq vuran acı ifadələri həyatdan gizlətməklə bağdakı şənlikdən daha da kədərlənəcəyimi istəmirdi. Mən fikrimi dağıtmağa gəlmişəm, avmma daha da kədərlənirəm. Yaraşıqlı bağa xoşbəx insanlara, şən uşaqlara, onların ürəkaçan uşaq hərəkətlərinə baxmağa qərarım gəlmir. Durub evə gəlirəm. Evin bəzək-düzəyi divara vurulmuş xəlilər, işığı özündə əks etdirən bədənnüma güzgü və nikel kravatlar qəlbimi açmır. İsti yay axşamında titrədirəm. Evdə məqsədsiz olaraq o yandan bu yana, bu yandan o yana gedib-gəlməyə başladım. Birdən heyrət məni bürüdü. Çünki daxili duyğular qəlbimi sıxsa da xarici görünüşümün bu qədər həyəcanlı görünməsini təsəvvür etmirdim. Bunları özümdə güzgünün önündən keçərkən gördüm.

Heykəl kimi quruyub yerimdə qaldım. Gözlərimi əksimə zilləyib onu təəccüblə süzdüm. Elə bil o da aldığım vəziyyətə təəssüflənir və mənə deyirdi: - "Ağac kökündən su içər, insan ürəkdən". Mən evlənmişdim. Yoldaşım da işləyirdi. İşimiz müxtəlif olduğu kimi idarəmiz də ayrı idi. Yaşadığımız rayon dağ ətəyində yerləşirdi. Oranın təmiz havası, sərin suyu və gözəl mənzərəsi vardı. Biz işə gedəndə də, işdən qayıdanda da səmimi ayrılar, mehriban görüşərdik. O da, mən də işdən çıxandan sonra evə tez çatmağa cəhd edərdik. Qaçan dəqiqələri, keçən saatları, ötən günləri və ayları dala qaytarmağa, bir-birindən gözəl keçən anların sayını çoxaltmağa çalışardıq. Şən keçən ömrümüzə nəsib olan məşum günlərin azlığı bizi darıxdırardı. Bir-birimizin sözündən söhbətindən doymazdıq. Çox zaman aylar, illər ayrısı sevgiliər kimi gecə yarıdan keçənə qədər oturardıq, hər sözümüzdən, hər söhbətimizdən yeni sevinc duyardıq. Xoş günlər hiss olunmadan nə qədər də tez keçib gedir. Həyat ağırlığını hiss etməyə bircə acı gün, bircə iztirablı saat kifayətdir. Bəli, biz yaşadıq, çox gözəl yaşadıq. Bizim bir-birimizə olan münasibətimiz, mehribanlığımız çoxlarının diqqətini maqnit kim özünə çəkən canlı həyat lövhəsi olmuşdu. Rayonda hamı bizim ailədəki səmimiyyətə qibtə edirdi. Öz aralarında söhbət edib əsl səadət - ailə səadəti haqqında danışıqlar edənlər də bizə həsəd aparırdı. Bəzən qonşumuz Fatma xala bizə gələndə danışmaq, söhbətə qarışmaq əvəzinə əlini çənəsinə dayayıb bizim hərəkətlərimizi min bir məftunluqla seyr edərdi. Biz iki ilə kimi dediyim kimi yaşadıq. Bir gün yoldaşımın işdən gəlmək vaxtından çox keçdi, yəni üç saat keçdi. Üç saat vaxt elə anlarda böyük şeydir. Durub dincələ bilmirdim. Bu saat gələr, indi gələr deyə özümü, onu sevinclə qarşılamaq eşqilə döyünən qəlbimi sakit edirdim. Gəlmək vaxtından yarım saat da keçdi. Evdə oturmağa səbrim çatışmadı. Stul qoyub bayırda oturdum. Axşam qaranlığı düşmüş olsa da yolla gələnləri tanımaq olurdu. Gözlərim yolda idi. Birdən qonşuluqdan gələn dava-dalaş səsləri, nalayiq sözlər diqqətimi özünə cəlb etdi. Yaşadığımız ev rayon kommunal təsərrüfatının idi. Bir həyətdə yan-yana tikilmiş ona qədər yaşayış evi vardı. Ona görə də ucadan deyilən sözlər eşidilirdi. Kişi

arvadını gah döyür, söyür, gah da əl saxlayıb ondan soruşurdu: - De görüm hara getmişdin ey. Bir de görüm işləmirsən eləmirsən, sənin nə işin var idi idarədə. O qədər kişi xeylağıyla bir yerdə işləyən bacın qızının yanına hər gün nəyə gedirsən? Arvad cavab vermir, kişi yenə acıqlanırdı. -Musa kişinin çörəyi səni bir az ətə qana gətirib. Özünü onlara göstərməyə getmişdin hə… Heç sənə qaş-göz eləyib üzünə irişən oldumu? Sonra o öz-özünə deyirmiş kimsi mızıldandı: "Odla pambıq bir yerdə yola gedərmi?" Məni şübhələr bürüdü. Elə bil yuxudan ayıldım. Yoldaşıma - Mehribana qarşı bəslədiyim etimad hasarı sökülüb dağılmağa başladı. Bu nə deməkdir? Qadın idarəyə gedəndə nə olar? Axı hər şeydən ötrü qadını döyməzlər, söyməzlər. Qurulan həyat bir günlük üçündürmü. Mən ki, Mehribana bir söz demirəm, o işə də mən olmayanda kefi istədiyi hər yerə də mənsiz gedir, tək edir. Şübhələr - qonşumuz Musa kişidən aldığım təsirdən yaranan şübhələr məni rahat qoymadı. Ayağa qalxdım. Stulu evə qoydum və pencəyimi geyinib Mehribanın dalınca getmək istədim. Bu zaman o yenə əvvəlki kimi həyatın bahar təbəssümünü üzündə əks etdirərək içəri daxil oldu. Qollarını qızıl quş qanadları kimi havaya qaldırıb üstünə şığımaq istədi. Mənə diqqətlə baxandan sonra o da mənim tək heykəl kimi quruyub yerində qaldı. Üzündəki sevinc də, gözlərindəki hərarət də hələ dodaqlarında gəzən incə təbəssüm də buz kim dondu. Onu heyrət bürüdü. Dəhşət meydan qurdu. Mülahizələr sona yetmədi. Araya çökən ağır sükutu hər kəsin qulaqlarında səslənən şiddətli ürək döyüntüsü pozurdu. Elə bil ürək öz yerindən oynayıb ora gəlmiş və oradan da bayıra çıxmaq üçün külüng çalıb yol açırdı. Sükut səhərə qədər hökm sürdü. Gecə nə o yata bildi, nə də mən, nə o dinib danışdı, nə də mən. Səhər işə gedəndə hər ikimiz evdən birgə çıxdıq. Yorğun-yorğun ayağımızı sürüyərək gəlib yol ayrıcında dayandıq. O mənim üzümə baxmağa cürət etmirmiş kimi başını aşağı saldı və ayağının ucu ilə yeri qurdaladı. Mən də həyəcan keçirirdim. Lakin mən gözlərimi ondan çəkmirdim. Gözüm onun dodaqlarında idi. Axı biz hər səhər işə gedəndə bir-birimizdən burada ayrılırdıq. Özü də səmimiyyətlə əlimizi sıxıb qiyabi olaraq qaşla, gözlə öpüşürdük. Bu dəfə necə ayrılmalıyıq? Onu hələ mən özüm də bilmirəm.

O yavaş-yavaş gedəcəyi yola tərəf çevrildi və çiyninin üstündən bu sözləri dedi:

- Bizi yenə də qonşu rayona pambıq yığmağa aparacaqlar bəlkə bu gün də gec gəldim.

- Mehriban! - deyə onu arxadan səbirsizliklə səslədim və qeyri-iradi bağışlanmalı vəziyyət aldım. O ayaq saxladısa da çevrilib mənə baxmadı. Qürurla addımlayıb vüqarla irəlilədi. Bizim qaynar münasibətimiz o gündən başqa şəkil aldı. Arzumuz, istəyimiz tamam sönməsə də nefti qurtarmaq üzrə olan lampalar kimi közərməyə, his verməyə başladı. O yenə də əvvəlki tək qayğıkeş, nəvazişli idi. O yenə də danışmaq, gülmək istəyirdi. Lakin mənim üzümdə əsən sərt külək, gözlərimdə axan şimşək onun istək və arzularının qarşısını alır, onu susmağa məcbur edirdi. Mən güləndə gülür, mən susanda susurdu. Çox zaman çörək yeməyə də, çay içməyə də mənim təklifimi gözləyirdi. Bəzən biz ac yatıb, ac da işə gedirdik. Bir dəfə biz kinoya getdik. Lermontovun "Maskarad" filmi göstərilirdi. Keçib lap sonuncu sırada əyləşdik. Qabaqda oturanların çoxu çevrilib bizə baxırdı. Onlar əvvəlcə Mehribanı süzür, sonra isə gözucu mənə baxıb gözlərini bizdən çəkirdilər. Hər baxışda bir şübhə, hər nəzərdə min tənə duyurdum. Onların nəzərləri qarşısında özümü namusu tapdalanan bir adam kimi hiss edirdim. Kino başlandı. Mehriban diqqətlə ekrana baxırdı. Mən bir az da dala söykənib onu naməlum bir adam kimi gözdən keçirirdim. Xüsusən bu gecəki şübhələrimə qarşı onu yoxlayırdım. Deyirdim: "Görüm gözümü ekrandan çəkib kimə baxacaq". O heç kimə baxmadı. Onun bu hərəkəti məni daha da əsəbiləşdirdi. Mənə elə gəldi ki, o mənim fikrimi başa düşüb hiyləgərlik edir. Əsəb sistemi gərginləşəndə iradə, şüur onun qarşısında aciz qalır və öz varlığını göstərə bilmir. - Dur gedək - deyə onun qolundan yapışıb onu yuxarı dartdım. - Yarımçıqmı? - deyə heyrətlə üzümə baxdı və cavab vermədiyimi görüb qalxdı. Biz evə gəldik. Hər kəs öz kravatına uzandı. Mən şübhələr aləmini seyr edirdim. Qısqanclığın sürət qatarı aram-aram irəliləməyə, hər dayanaqda öz yükünü götürür, yükü çoxaldıqca sürətini artırırdı. Onun son dayanacağı ümumi fasilə müddəti məlum deyildi. Kinodan yarımçıq çıxıb evə tez qayıtmışdıq düşüncələrimdən ayrılanda saat ikiyə işləyirdi. Mehriban üzünü divara tərəf çevirib ağlayırdı. Onun axıtdığı xəfif göz yaşları məni daha əsəbiləşdiridi. Elə bildim ağlamaqla məni ələ salır, məni dolayır. O gecə ona nə qədər

əzab verdim. Axıtdığı göz yaşlarına, aldığı acınacaqlı vəziyyətə qayğısız yanaşdım. Üstünə hiddətlə qışqırıb zəhərli sözlər yağdırdım. O nə qədər alicənab, nə qədər yüksək şüurlu dərin düşüncəli insanmış. Sinəsilə dağlar çəkilən, əsrlər boyu ürəyindən yaralanan, lakin bir dəfə də taleyindən şikayətlənməyən təbiət qədər dözümlüymüş, səbirliymiş. O öz insan ləyaqətini saxlamağı bacarırmış. Əgər insana xas olan ən yaxşı insani xüsusiyyətlər onda cəmlənsəydi heç olmasa bir dəfə mənə acı cavab qaytarardı, aramızda davam edən örtülü ziddiyyətin səbəbini soruşardı. Bunları yalnız indi başa düşürəm. O zaman onun susmağına qiymət verməmişəm, hiddətlənmişəm. O vaxt öz-özümə deyirdim: "Bu qədər susmağın, məni başa düşərək cavab verməməyin mənası odur, xəyalən müəyyən etdiyimdir. Belə deyil o and içib nə üçün məni şübhələrdən qurtarmır". O mənim keçirdiyim duyğuların hamısını hansı yolla öyrənə bilərdi. İnsanın hər fikrini üzündən oxumaq mümkündürmü. Bu mümkündürsə nə üçün mən ona əziyyət verirəm. Özüm hiss edə bilmədiyim bir şeyi nə üçün başqasından gözləyirəm. Onun kimi bir insanla qurduğumuz ailə həyatında hörmətsizlik öz çərçivəsindən çıxmamışdı. Ziddiyyət küləyinin güclü təkanı hörmət-izzət pərdəsini vaxt-bivaxt tərpənsə də hələlik o öz tamlığını itirməmişdi. Əvvəldən məşəl kimi alovlanan tale ocağımızın üstünə yaş odun parçasının düşüb qatı yaşıl tüstü verdiyi bir zamanda köçüb şəhərə gəldik. Şəhərdə də öz ixtisasımız üzrə işə düzəldik. Bir neçə ay ərzində evimizdə xoşagəlməz söz, könül bulandırıcı hərəkət olmadı. Daha doğrusu beynimi çulğayan qısqanclıq duyğuları şiş dağın başına dolanaraq tez köçüb gedən bir koma səhər dumanı kimi çəkilib getdi. Ailəmizdəki gümrahlıq əvvəlki yerini tutmasa da pis də deyildi. Məndə nə şübhə, nə də azca qısqanclıq qalmışdı. Elə bil bunlar rayondan alınmışdı, rayona da verildi. Şəhərə gələndən sonra mən o günləri xatırlayanda özüm öz hərəkətlərimdən, öz sözlərimdən utanıb xəcalət çəkirdim. O günlərdə Mehribanı qəlbən yaraladığımı hiss edir, onun halına acıyırdım. Ürəyimdə "cavanlıq eləmişəm deyə özüm öz təqsirimi bağışlayırdım. Nə kinoya, nə teatra və nə də hər hansı bir əyləncəyə gedəndə də mən onu izləmirdim. Əsəblərim sakitləşmiş, ürəyim rahatlanmışdı. Bir dəfə iş vaxtı işlədiyim idarənin ətrafında münasib təşkilata müraciət etməli, müəyyən məlumatı yazılı surətdə almalı oldum. Küçədə Mehribanla çiyin-çiyinə addımlayan oğlanı görəndə səksəndim. İti addımlarla irəliləyib onlara çatdım və Mehribana özümü onun qolundan qəflətən yapışmaqla hiss etdirdim. O özünü itirmədən gülümsəyərək - Yoldaşımdır, tanış olun - deyə məni o oğlana təqdim etdi. - Akif. Akif sözü onun dişlərinin arasından özünə güclə yol tapıb çıxdı. O qızardı. Xəcalətli bir görkəm alaraq yerində tərpəndi. Mən atəş açan gözlərimi nifrətlə Mehribana bərəltdim. Sanki ona "namusumu tapdaladın, indi sənin cəzan nədir?!" -deyirdim. Onda heç bir dəyişiklik seçə bilmədim. Akif məndə baş verən halı hiss etdiyindənmi, yoxsa yoldaşıdır, bəlkə bir sözü var deyəmi bizdən bir neçə addım uzaqlaşıb kənarda dayandı. Mehriban yalnız mənə bu dəfə cavab verdi. - İş yoldaşımdır, aşxananı yoxlamağa gedirik. O bu sözlərlə təhqiredici nəzərlərimi saflaşdırmağa çalışdı. Mən: - Axşam evdə danışarıq, sonuncu dəfə.

Get! - Durma! - dedim. Axşam onu evdə çox gözlədim. Özü də səbirsizliklə gözlədim. Məqsədim bir idi. "Sonuncu dəfə". Gecə yarıdan da keçdi, səhər də açıldı o gəlmədi. Odlanırdım onu necə cəzalandıracağımı bilmirdim. Səhər tezdən Mehribanın atası evinə yollandım. Onun orada olub-olmamasını öyrənmək istədim. Küçə qapısının ağzına çatanda küçə qapısını tez-tez döydüm. Bir neçə dəqiqədən sonra Mehribanın anası gəldi. O qapının ağzında məni görüb cavab vermədən evə qayıtdı. Yarım saata qədər vaxt keçdikdən sonra yenə gəldi və _ Mehriban daha sənin evinə getməyəck - deyə arxasını mənə çevirdi və əlavə etdi:

- Ayrılmağınıza mən də razı deyiləm, amma o özü…

O sözünü tamamlamadı. Səsi titrədi, boğazı qəhərləndi və bir də üzünü mənə çevirib dəsmalı ilə gözlərinin yaşını silə-silə başını buladı. Sanki o mənimlə əbədi olaraq vidalaşdı. Mən mıxlanmış kimi yerimdə qaldım. Bir an özümə gələ bilmədim. Sonra beli əzilmiş ilan kimi evə qayıtdım. Evdə darıxdım. Şəhərə çıxdım, küçələri dolandım, gedib bağda əyləşdim. Bağda da nifaq məni leşgənə kimi sıxdı. Yenə də evə gəldim.

- Evdəki bəzək-düzəklər, qiymətli avadanlıqlar, təmizlik, səliqə gözlərimdə heç bir şey kimi göründü. Evin yaraşığı ailədə olan gözəl münasibət, insan ailə ləyaqətinin saxlanmasına əməl olunan münasibət imiş, səmimiyyət imiş.

QAYTAR, ANA

Zərəngizin əynində yaşıl palto, başında yaşıl beretka vardı. Onun ayaqqabılarının da, şəbəkəli əlcəklərinin də, hətta meşin şapqasının da rəng yaşıl idi. Sanki yaşıllıq dostu, öz bahar arzularını geyimində əks etdirmişdi. O, dəmir yol vağzalının yaşıl rəngli qapıları arasından çıxıb pilləkənlər lə meydançaya sarı axışan sərnişinlərdən tək geyimilə deyil, hərəkətlərinin itiliyilə də fərəhlənir, seçilirdi. Zərəngiz, gah yüyürür, gah yortur, hamını öpür, hamını keçirdi. Özünü, dövrə vurub dayanan, dayanan kimi də sərnişinlərlə dolub yola düşən yel qanadlı taksilərin birinə çatdırmağa tələsirdi. Bütün şəhər dərziləri və papaqçılarının, çəkməçi və əlcək toxuyanların birgə məsləhəti, səyi nəticəsində uzun müddətə başa gəlmiş kimi görünən bu gözəl geyim, onun bir azdan qarşılaşacağı qəmli-matəmli bir könül sirrinin açılacağına qətiyyən kömək etmirdi. Lakin, ağır xəbəri qabaqcadan duyma qabiliyyətinə malik anaların üzündəki dəhşət ifadələrinin, sarsıntı əlamətlərinin hamısı Zərəngizin çöhrəsini bürümüşdü. Elə bil yer də, göy də izdihamın ayaq səsləri də dilə gəlib ona: "Tez ol! Dayanma! Gecikmə!" deyirdi. Zərəngiz on beş gün müddətinə dağ ətəyi rayonların birinə ezamiyyə olunmuşdu. Bu oğlu Məhkumu anası Həlimənin ümidinə qoyub getdiyi birinci dəfə deyildi. O, hər üç aydan bir rayonların ticarət müəssisələrində yoxlama işi aparmağa göndərilirdi. Bəzən rayonda iyirmi gün, bir ay ləngiyir, oğlunun üzünü görmürdü. Ancaq oğlundan ötrü heç vaxt indiki kimi bərk darıxmamışdı. Bu dəfə nədənsə günlər aylara, gecələr illərə dönmüş on beş gün bitib-tükənmək bilməmişdi. Yağan yağış da, əsən külək də Zərəngizin ürəyinə yağmış, ürəyinə əsmişdi. Məhkumu bir an da olsa onun yadından çıxmamış, gözləri önündən çəkilməmişdi. Yuxusunu da hər gecə qarışdırmışdı. Bəzən, axşamdan gördüyü pis yuxudan səksənib oyanmış, səhərəcən yata bilməmiş, səhərin pəncərəni ağardan işıqlı gözləri onu işə çağıranacan xəyalları Zərəngizi aləmdən-aləmə aparıb sarsıntılar ummanına atmışdı. Zərəngiz yalnız bu səfər övladın, övlad məhəbbətinin nə demək olduğunu bir ana kimi dərindən duymuş, övlad, oğul sözünün ana dilində hansı ahənglə səsləndiyini başa düşmüşdü. Sanki ona ana adı, ana hissi, ana duyğusu bu günlərdə verilmiş bu adın daşıdığı həsrət-intizar da, fikir-əndişə də bu ayrılıqda aydınlaşdırılmışdı. "Volqa" nə qədər sürətli getsə də Zərəngizin heç bir küçə hərəkəti maneələrinə məruz qalmayan fikrilə ayaqlaşa bilmirdi. Ona görə də binalar uzanır, yollar maşınla yarışır, adamlar qəsdən keçidlərdə görünür, svetaforlar qırmızı gözünü bərəldirdi. Maşın, "uşaq xəstəxanasının" ətrafında yarım dairə yazıb qərbə şütüyəndə Zərəngizin qulağına arxadan səs gəldi: "Hara gedirsən, burdayam ana!" Zərəngiz diksindi. Az qaldı şoferin əllərindən tutub maşını saxlatsın. Hansı bir dalğanınsa onu vurduğunu şofer də hiss etdi. Zərəngiz qara fikirlərin qopardığı tufandan yana əyilib özünü tez doğrultduğu kimi maşının da bir anlıq alınmış səsi özünə qaytarıldı. Şofer dənizin qabardığını görüb sahilə qaçışan naşı üzgüçülər təki maşını qovdu, "Volqa"nı qanadlandırıb uçurtdu, Zərəngizi, özü ilə qış havası gəzdirən müştərisini iyirmi üç nömrəli mənzilə çatdırdı. Zərəngiz əvvəlcə küçə qapısı taxtaları arasından həyətə göz gəzdirdi. Həmişə səhər-səhər alapaça atlı "faytonunu" o yan-bu yana çapan, hovuzda "qayığını" süzdürən, öz-özünə danışan, oxuyan məhkumunu görə bilmədi. Qəlb çırpıntılarını küçədə qoyub evə getmək istəyən ananın ürəyinə həyətdən qara əllər uzandı, ürəyini sıxdı, gözlərinə qara pərdələr çəkib onun işıqlı dünyasını zülmətə döndərdi. Zərəngiz evə yüyürdü. Həlimə eyvanda ağlaya-ağlaya balaca qazançaya düşbərə tökür, onu süfrəyə büküb zənbilə qoyurdu. Bu göz yaşları, bu xörək, bu hazırlıq nə üçündür? - Məhkumsanmı?! Zərəngizin çılğın, dağlarda sellər oynadıb sısqa bulaqların suyunu çoxaldan yaz yağışı kimi Həlimənin göz yaşlarını gücləndirdi.

- Məhkum! Zərəngiz içəri girdi, evdən-evə keçdi, eyvana çıxıb bir də evə qayıtdı. O, evlərin arasında elə dolanırdı ki, elə bil özünü unudub əlindən suya saldığı ürəyinin dalınca

dalğalı dənizə baş vururdu. Lakin, itirdiyi ürəyini, gözünü, həyatını tapa bilmir, sularda boğulur, acı bir fəryadla Məhkum! Məhkum!" - deyə oğlunu köməyə çağırdı. *** Məhkum, oyuncaq şeylərinin yağısı idi. O hər gün onların birini şikəst edərdi. Gah "Dovşanın" qılçasını sındırar, gah "Dəvənin" qabırğasını içəri yoğurar, boynunu basıb əzər, gah da "Ayının" qolunu çiynindən ayırardı. Alabəzək toplanında ki, hər gün birinun qəzəbinə gələr, partlayıb köpü alınardı. Məhkum kitablarda da sağ-şenlik qoymaz, şəkilli vərəqələri cırıb götürər, onları daşa-divara yapışdırıb "foto-sərgilər" düzəldərdi. Bunlarla kifayətlənməz, yavaş-yavaş anasının geyim şeylərinə də əl atardı. Bəzən Zərəngizin bir dəfə də olsun geyinmədiyi təzə ayaqqabılarının altına uzun mıxlar çalıb çəkməçilik edər, bəzən də ətriyyat yığımı qutusundan ətir şüşələrini götürüb oyuncaq şeylərini, dibçəkdəki gülləri, qonşu uşaqlarının başına səpələrdi. O, hər gün bir cinayət edər, bunun da cəzasını anası tərəfindən alardı. Zərəngiz, xətkeşlə onun əllərinə-əllərinə döyər, "Bir də eləmərəm" sözünü dedirtməyincə Məhkumu bağırdardı. - A bala, uşağı əllə yox, döyməklə yox, ağılla öyrədər, ağılla tərbiyə edərlər - deyə Həlimə, nəvəsinə həmkar çıxıb, qızını danlar, Məhkumu onun əlindən alardı. Lakin xətkeş ağrıları uşağın canından çıxan kimi ağlı onu yeni bir əyləncəyə sövq edərdi. Bu əyləncələrdə də təkrar olunan səhvlər ananı qəzəbləndirərdi. Beləliklə, səhvlər gündən-günə böyüyər, tənbehlər ağırlaşardı. Nə uşaq pis işlərdən əl çəkər, nə də ananın əsəbləri sakit olardı. Sanki gələcəkdə baş verəcək tale yanğınının, ailə bədbəxtliyinin ağız acısı, ürək ağrısı özünü qabaqcadan göstərməyə başlamışdı. Məhkum bir gün "faytonun" kozlasına yaxşı bir örtük düzəltmək fikrinə düşdü. Bu fikir, anası ilə dünən kinodan qayıdarkən taksiyə oturandan sonra ağlına gəlmişdi. Axı taksi oturacağının bəzəkli xəlçədən qəşəng örtükləri vardı. O, hələ dünən "xəlçədən kəs, ver!"

- deyə anasının əl-ayağına dolaşıb ağlamışdı. Anası da ona çit, parça qırıntıları vermişdi. Məhkum isə onları bir-bir kozlasının üzərinə sərib baxmış, ancaq xoşuna gəlməmişdi. Ertəsi gün nənəsi həyətdə paltar yuyanda o fürsətdən istifadə etdi. Qayçını tapıb divara vurulmuş xəlçəyə yanaşdı. Nə qədər əlləşdisə kəsə bilmədi. Xəlçənin üzülüb yerə düşmüş ikicə saçağını götürüb həyətdəki zibil qutusuna atdı. Qayıdıb evin içində fırlandı. Bir əlac tapmağa çalışdı bir istədi qonşu uşaqlarını çağırsın, bəlkə köməkləşib kəsdilər. Nənəsinin onları evə buraxmayacağını yəqin etdiyindən bu fikrinin də üstündə dayanmışdı. İkinci otağa keçdi ki, bufetin siyirməsindən bıçağı götürsün. Məxmər stol örtüyünə gözləri sataşanda sevindi. Bu xəlçədən də yaxşı idi. Örtüyün ortasındakı qırmızı güllər elə bil ona deyirdi: "Gəl məni kəs, apar qoy kozlanın üstünə, "faytonunu"da sür küçəyə, uşaqların hamısının tamahı düşəcək". Məhkum, örtüyün ətəyindən tutub qayçını ona "Kəs, kəs!" - deyən güllərə tuşladı. Xeyli kəsəndən sonra qayçının düz güllərin üstünə getdiyini görüb onun ağzını yana verdi. Birdən qapı açıldı. Zərəngiz içəri girdi. Məhkum qayçını arxasında gizlətsə də Zərəngiz hər şeyi görmüşdü. Zərəngiz onu şillələsinmi? Onu xətkeşləmi döysün? Onu nə ilə, necə döysün ki, ürəyi soyusun? Min manatlıq məxmər örtüyün kəsilməsi Zərəngizdə insaf adlı şeydən əsər-əlamət qoymadı. O, tikiş iynəsini götürüb Məhkumu yanına çağırdı. - Bura gəl! Məhkum qorxa-qorxa onun qarşısında dayandı. - Qorxursan?! Məhkum dillənmədi. - Onu hansı əllərinlə kəsmisən? Uşaq titrəyən əllərini qoşalaşdırıb irəli uzatdı: - Ana, bir də eləmərəm. - Bu sözləri səndən çox eşitmişəm - deyə Zərəngiz onu qılçaları araçına aldı. Qolunu qoltuğu altında sıxıb biləyindən möhkəmcə yapışdı. İynəni onun barmaqlarının ucuna batırmağa başladı. Hər batırdıqca da soruşurdu: - Bu əllərinləmi eləmisən, hə?! Bu əllərinləmi?! Məhkumun qışqırması, çapalaması, "bir də eləmərəm" deməsi Zərəngizi insafa gətirmədi. O, elə hirslənmişdi ki, hətta nə etdiyini də bilmirdi. İynə batan yerlərdən qan sıçradıqca sanki yanan ürəyinə su çırpılırdı.

- Ay nənə öldüm gəl! Ay nənə öldüm gəl! - Sənin canını alacam! Bu əllərinləmi kəsdin, hə?! Həlimə gəlib harayçılıq edənəcən Zərəngiz onun dərsini verib buraxdı. Uşaq qanlı barmaqlarını ağzına soxub bağıra-bağıra həyətə qaçdı. Döyəndən sonra hansı ana uşağının könlünü almır, onu öpmür, oxşamır?! Aradan az keçmiş Zərəngizin hirsi soyudu, tutduğu işin peşmançılığını çəkdi, hələ ağladı da. Məhkumun qanlı barmaqlarını öpə-öpə, "A tərs bala!" - deyə onu bağrına basdı. Vurduğu yaraları ətirlə silib təmizlədi, tənziflə sarıdı. Uşaq barmaqlarının ağrısını köks ötürmələrlə unudub ana nəvazişinə təslim oldu. Zərəngiz elə həmin

günün axşamı qatara minib rayona getdi. İki gündən sonra Məhkumun barmaqları şişib üfürülməyə başladı. Şiş bir gecənin içində onun dirsəyinə yeridi. Həlimə uşağı səhər tezdən poliklinikaya apardı. Həkim baxan kimi təcili yardım çağırıb onu xəstəxanaya göndərdi. Hadisənin inkişafı o qədər sürətli idi ki, Həlimənin nə Zərəngizə, nə də qonum-qonşuya bir xəbər elməyə imkanı vardı. Qəbulda onları bir dəqiqə də olsa saxlamadılar. Həliməyə də xələt geyindirib nəvəsilə bərabər palataya apardılar. Palatada uşağın paltarlarını xəstəxana geyimilə əvəz etdilər. Həkimlər elə bil Məhkumun əlinə baxmağa bayaqdan hazırlaşıb onun yolunu gözləyirlərmiş. Uşaq yatağa uzadılan kimi bir-bir içəri doluşdular. Eynəklər gözə taxıldı. Çarpayını araya almış nəzərlər Məhkumun şişib kərənə dönmüş əli üzərində çarpazlaşdı. Beşcə dəqiqəlik müayinədən, anlaşılmaz danışıqlardan sonra palatadan çıxdılar. Palatada ofuldanan Məhkumla ürəyi əsən nənəsi bir də cansız sükutun canlı mühakimələri qaldı. Həlimənin gözləri nəvəsinin hərarətdən qızarıb közə dönmüş üzündə iki nəgahani səsə qulaq asırdı. Birinci səs şişin bəd azar olmasını, onun üçün də həkimlərin belə qoymahaya düşməsini söyləyirdi. İkinci səs isə birincinin əksinə çıxır, Həliməni əmin edirdi ki, boş danışığa fikir verməsin, iynə vurub şişi qaytaracaqlar. Həliməni həkimlər otağına çağırdılar. "Görəsən neynirlər" - deyə o öz-özünə düşündü. Bu çağırış cəllad bıçağı kimi onun ürəyinin bəndlərini bir-bir doğramağa başladı. Həkimlərin hamısı oturmuşdu. Lakin biri ortalıqda gəzinirdi. Onların hamısının üzündə müşkül işə düşdüklərini göstərən təəssüf ifadələri vardı. Ortalıqda gəzinən isə ağır hökmü oxumağa çətinlik çəkən hakimə oxşayırdı, o: - Xala, - deyə Həlimənin qoluna girib onu kresloya oturtdu. Üstünə tez düşməmisiniz. Uşağın əlini biləkdən kəsmək lazımdır. Əgər bu gün kəsilməyib səhərə saxlansa qolunu tamam itirəcək. Hələ bəlkə… Həlimə dik atıldı. - Yox, başına dönüm, kəsmə! Kəsmə! Anası, anası… - Buna, qaz qanqrenası deyərlər xala. Qaz qanqrenası ilə zarafat elmək olaz. Həlimə uçuna-uçuna özündən getdi. On beş dəqiqə davam edən təşrih əməliyyatından sonra özünə gəldi. Nəvəsinin əlini biləkdən kəsilmiş görəndə başqa nənələr kimi o da üzünü cırıb saçlarını yoldu, dizlərinə döyüb şivən saldı. Bəs Zərəngiz?! Bəs oğlunun sağ əlini öz əlilə cərrah bıçağı altında qoyan, biləyini odun kimi mişarlatdıran ana?! O, bunu eşitə, oğlunu əlsiz görsə neyləyəcək?! Onun ürəyi dağılacaqmı?! O özünü asacaqmı, zəhərləyəcəkmi, odlayacaqmı?! O özünü hansı bədbəxtlik yolu ilə öldürəcək?! *** Həlimənin: "Soyuqdəymədən yatmır. Ağlamağım səni qorxutmasın. Dünən axşam demişdi ki, nənə, anama telefon elə gəlsin, mənə düşbərə bişirsin. Sən qapıdan girən kimi də onun sözü yadıma düşdü, andıra qalmış gözlərimin yaşını saxlaya bilmədim. Yoxsa, qorxulu nə var ki. Əvvəl qızdırması çox idi, beş gündür öz qaydasına düşüb. Loxması da ağzında böyüyürdü, indi iştahı-zadı da açılıb. Nənəsi ölsün, qızdırma balamı bir az əritdi. Nolar, naxoşlayan arıqlar də. Uşaq əl quzusu kimi şeydir, boğazına baxsan bircə həftəyə kökələcək" - deməsi Zərəngizin oyanmış hisslərini, qəmli havalar çalan duyğularını təsəlli yuxusuna verib onun qəlbini kədər məngənəsindən qurtara bilməmişdi. Çən, yaşıl gözlü şübhələr: "inanma! Səni aldadır" - deyə həyasızcasına bir yandan pıçıldaşmış, ananın yağsız yanan bircə güman şamını da üfürüb söndürmüşdülər. O, bəndləri sındığından qasırğanın hökmünə tabe olub limandan ayrılaraq nərildəyən dalğaların atıb-tutduğu bir qayıq kimi dənizin ən dərin, ən qorxulu yerinə, - xəstəxanaya gəlib çatmışdı. Burada külək istiqamətini dəyişib dalğalara qarşı əsməsə qabarma güclənəcək, qayıq sularda qərq olacaqdı. Baş şəfqət bacısı Həliməni içəri buraxmış, Zərəngizi isə aynabəndli görüş otağına qaytarmışdı. Guya həkimlər palatada müayinədə idilər. Müayinə zamanı valideynlərin içəri girməsi onların diqqətini xəstədən ayırır. Həlimənin keçməsinə yol verən qanun nə üçün növbə Zərəngizə çatanda qüvvəyə minirdi?! Əslində, bu cəfəngiyat şəfqət bacısının dilindən də çıxsa, Həlimənin oynayan qaş-gözünün xahişi ilə düzəldilmiş bir uydurma idi. İndi onun ruhi sarsıntıdan dəli olmaq dərəcəsinə çatan adamın baxışlarındakı sərt, soyuq, qorxulu ifadələrdən heç nə ilə fərqlənməz nəzərləri, ayna arxasından gül xiyabanlarının, cavan söyüd, şam ağaclarının arası ilə qapıdakı üçmərtəbəli ağ binaya uzanan asfalt səkiyə diklmişdi. Görüş otağı ilə xəstəxananı bir körpü kimi əlaqələndirən bu ensiz səki, Zərəngizin gözləri qarşısında titrəyirdi. Elə bil onu bir azdan bu üzdən-o üzə keçirəcək bu körpü uçub dağılmaq üzrə idi. Gül xiyabanlarına meh çiləyən fəvvarələr də sanki ətrafa su əvəzinə toz, duman püskürüb bu nicat yolunu bürüyürdü ki, ana

qəlbi intizar əlində parçalansın. Əlində yarım vedrə su, döşəmə əskisi olan kök, kürən bir arvad görüş otağına girdi. O üçüncü yaylıqla başını bərk-bərk çalmış, bircə tükünün də pırtlayıb qırağa çıxmasına imkan verməmişdi. Göy xələtinin yaxası ağız-ağıza gəlməyib açıq qalmışdı. Lakin bel bağı ilə özünü oratadan möhkəmcə boğmuşdu. Ətli əndamı, xələti az qala partladacaqdı. Tərpəndikcə onun yanaqları, üç qatlanmış buxağı əl çalır, sinəsi oynayırdı. Almacıq sümükləri o qədər ət götürmüşdü ki, gözlərini əməlli açıb adama da baxa bilmirdi. Elə bil el yediyini bu sinirmişdi. Aşağı əyilmədən vedrəni əlindən elə buraxdı ki, su çalxalanıb ayaqlarını islatdı. Əskini də ondan betər tolazladı. - Burda niyə dayanmısan qızım? - deyə o cür hərəkət, o boyda bədən yiyəsindən gözlənilməyən bir mehribanlıqla dilləndi - Görüş çoxdan başlanıb ki. - Sestra buraxmadı. Dedi, həkimlər palatadadır. - Balniskədə gərək bir az üzlü olasan, bala! Bu sırsıralara ki, özünü yavaş tanıtdın, işin bitdi. Kimin yanına gedirsən? Adını de görüm, bəlkə mənim palatamda yatır. - Məhkumun. - Onun nəyisən? - Anası. Bu sözdən sonra xidmətçi arvadın üzü bir şəkilə düşdü ki, elə bil dünyada ən çox zəhləsi gedən adama indicə rast gəlmişdi. Ağzını küçə sözləri ilə doldurub hücuma keçməyə, qəzəbini soyutmağa hazırlaşırdı. Onun ətli qaşları atır, ağzının küncləri tərpənirdi. Bu da xidmətçinin, özü demişkən dəli keçilərin dingildəşdiyini göstərirdi. Adam çiyninə toxunulmasını böyük bir mədəniyyətsizlik sanaraq küçənin ortasında gözlərini yumub o "gül" ağzını açan dava dağarcığına əhəmiyyət verrmədən ürəyində: "Özünə qurban olasan!" - deyib tez ötdüyü kimi zəhər tuluğuna dönən xidmətçi də partlamadı. Əskini suya batırıb Zərəngizə doğru yeridi:

- Çəkil burdan! Çəkil! Zərəngiz otağın o biri küncündə dayandı. Xidmətçi heç bu yanı silməmiş əskini yanı ilə sürüyə-sürüyə yenə də Zərəngizə sarı gedib qışqırdı: - Çəkil! Çəkil! Zərəngiz yelli yovşan süpürgəsinin qabağında uçan pambıq lifi kimi otaqda üçüncü dəfə qovlandı. Həlimə ilə Məhkum gəldilər. Məhkumun kəsik qolu dirsəkdən qatlanıb xəstəxana picamasının yaxasına soxulmuşdu. Yəqin ki, bunu da sol yanı ilə nəvəsinin sağ qoluna pərdə çəkib görüş otağına gətirən Həlimə etmişdi. Kədəri qəfildən qovub ağızdan çıxaran sevinc dalğasının qopardığı cingiltili səs hamıya məlumdur. -Məhkum! Məhkum! Anan sənə qurban, bala! Ana qolları sonsuz məhəbbətlə övlad bədəninə elə dolandı ki, elə bil o, sinəsini yararaq oğlunu ürəyi içində gizlədəcək, işə də, ezamiyyəyə də özü ilə aparacaq, bir də oğul intizarı bəlasına tutulmayacaqdı. Məhkum üz-gözünü qırışdırdı. Salamat əlini Zərəngizin sinəsinə dirəyib dala dartındı. Lakin ana qolları kəsilməsə onu buraxana oxşamırdı. Sanki Məhkumdan aldığı qan onu yenicə cana gətirirdi. - Ağrıyır - deyə məhkum ağlayanda Zərəngiz ayıldı. Məhkumun əlsiz qolu yaxasından çıxıb yanına düşmüşdü. Ananın verdiyi hökmün həkimlər tərəfindən yerinə yetirilməsini zənn edən uşaq ağlaya-ağlaya Zərəngizə biləyini göstərdi: - Qaytar ana! Qaytar əlimi, bir də eləmərəm. Zərəngizi bədbəxtlik şaxtası vurub hissiz, duyğusuz daşa döndərdi, onu öldürmədi. Öldürsə, bu onun üçün mükafat olardı. Ancaq o, oğlunun əlsiz qoluna baxanda hər gün min dəfə ölüb qəbrə gedəcək. Dünyada bundan, ruhi ətalətdən ağır cəza yoxdur.

İSTİRAHƏT GÜNÜ İDİ…

Qızım, bu dəfə nə qədər pul alacaqsan? Əfruz bu sorğudan təəccüblənməyə bilməzdi. Axı anası ondan heç zaman alacağı zəhmət haqqının miqdarını soruşmamışdı. - Əlli manat. Necə bəyəm? - Heç - deyə Gülbəyim xala niyyətini izah etmədən öz gözlənilməz sualı ilə sonsuz heyrətə saldığı qızının təşvişindən asanlıqla yaxa qurtarmağa çalışdı - elə belə xəbər aldım. Anasının nədənsə həyəcanlı olduğunu, dərin-dərin düşündüyünü sezən Əfruz öz çarpayısından qalxıb, Gülbəyim xalanın çarpayısına yanaşdı. Bir qolunu onun boynunu altından salıb alnından öpdü: - Ana, qurban olum, niyə bu cürsən? Gülbəyim xala da dikəlib qızının totuq yanağından öpdü, gülümsündü, yenidən yatağına uzandı: - Yorulmuşam. Əfruz inanmadı. Bu dalğınlıq, bu pəcmürdəlik, bu iniltili köks ötürmələr yorğunluq əlaməti deyildi. O, anasının başını nəvazişlə öz sinəsinə sıxaraq, dodaqlarını onun ağ, seyrək saçları arasında gəzdirdi. Əfruza elə gəldi ki, anası

yenə də iki ay bundan qabaq dəfn etdikləri yeganə qardaşının dəhşətli ölümünü xatırlamışdır. - Yazıq ana… Gülbəyim xala səksəndi. Dik qalxıb qızının üzünə heyrətlə baxdı: - Sən hardan bilirsən?! Sənə kim dedi?! Anasının səksənməsi, heyrəti Əfruzu diksindirdi:

- Nəyi? Qızının heç bir şey bilmədyini yəqin edən Gülbəyim xala peşman-peşman, ağır-ağır yanı üstə uzanıb üzünü divara çevirdi: - Heç nəyi, get yat! Əfruz qalxıb öz çarpayısında rahatlandı. Gecə yarıdan keçənə kimi bir vəziyyətdə qalaraq anasının sarsıntısı, "Yazıq ana…" deməsilə onun dik atılıb əsəbi bir çağlayışla qışqırması haqda düşündü: "Görəsən o niyə səksəndi, niyə hirsləndi? Mən nəyi bilməməliyəmmiş? Anamın məndən gizlətdiyi nə ola bilər?" Gülbəyim xala ürəyində danışmağa başladı: "Yüz otuz iki manatdır. Bu ayın başında əlli manat Əfruz alacaq, altmış beş manat da mən. İkimizin qazancını üst-üstə qoysaq onu ödəmir. Bu pulları ora qoysam, bəs, biz bir ay nə ilə dolanarıq?" Gülbəyim xala yatağında o yan-bu yana çevrilərək çarpayının yanını cırıldatdı, köksünü ötürüb pıçıldadı: - Heç nə ilə! Heç nə ilə!

- Ana, nə dedin? Əfruz anasının pıçıltısını eşitmişdi. Lakin onun nə üçün öz dərdini qızı ilə bölüşdürmək istəmədiyini bilmirdi. Əfruzu son dərəcə kədərləndirən də elə bu idi. - Sən hələ yatmamısan? Heç nə, yat. Gülbəyim xala vəziyyətini yenə dəyişdi. Çarpayının yayı bu dəfə elə bir səslə şikayətləndi ki, qapının çölündən qulaq asan olsaydı, içəridə köhnə kaman simlərinin parçalanıb nalə qopardığını güman edərdi. Səhər, ana bu qüssə ilə işə getdi. Övlad isə ürəyə ağırlıq edən fikir-xəyallar içində evdə qaldı. İstirahət günü… *** Əfruz günortayacan, həmişə onunla bir deyib gülən, bir kədərlənən anasının "qəribəliyini" unuda bilməmiş, iş görməyə həvəsi olmadığından heç bir xörək bişirməmişdi. Aynanın qabağında dayanıb şəfəqin rəngilə boyanmış çəhrayı bulud saçlı başını əlləri arasına alaraq dirsəklənmiş, bu gün ona nədənsə bədbəxtsiz bəxtiyarlar axını, seli kimi görünən insan izdihamının küçə ilə necə hərəkət etdiyinə tamaşa etmiş, yaşıdlarının gülüşünü eşidəndə doluxsunmuş, tay-tuşlarının qayğısız gediş-gəlişini, ələmsiz yeriş və tərpənişini görüb, öz dərdli görkəmilə hamıya tanıdacağından, hamıdan seçiləcəyindən qorxub başqalarına nəsib olan səadətin - qəmdən, qüssədən azad simaların seyrinə dalmışdı. Gülbəyim xala fasilə vaxtı qapının zəngini basanda da o, bu vəziyyətdə, bu əhval-ruhiyyədə idi. - Qızım, tanış olun. Bu şux geyimli, qara yumşaq saçları lay-lay olub qulaqlarının üstünə tökülmüş enli sifət, qalın qaşlı, iri qaynar gözlü ucaboy oğlan kimdir? Gülbəyim xala niyə belə şəndir? Onun gözlərinin içi gülür, üzündəki hər qırışdan bir nur, bir sonsuz nəşənin şirinliyi süzülür. Yoxsa anası Əfruza nişanlı bəyənmişdir? Belə də iş olar?! Əfruz anasından belə bir "özübaşınalıq" gözləməzdi. Bu hansı əyyam, hansı zəmanədir ki, ana qızının ruhu, qəlbi, zövqü ilə hesablaşmasın! Yox, Əfruz anasının bu hərəkətini heç vaxt bağışlamayacaqdır! Qızının nələr düşündüyünü dumanlı şəkildə də olsa anlayan ana əllərindəki kağız bağlamaları stolun üstünə qoyub gülə-gülə qızının üzündən öpdü və onun biləyindən tutub oğlana sarı dartdı: - Tanış olun. Əfruzun balaca soyuq əli, oğlanın hərarətli ovcu içində gizləndi. Gülbəyim xala on beş ilin ticarətçisi idi. O uzun müddət ərzaq, sənaye malları mağazasında işləyəndən sonra müdriyyət onun bacarığını, səliqəsini, intizamını, qabiliyyətini, alıcılarla rəftarını, müştərilərin "şikayət" dəftərində narazılıq əvəzinə öz minnnətdarlığın bildirmələrini nəzərə alaraq onu satıcılıq vəzifəsindən tikili mallar mağazasına həm müdir, həm də satıcı təyin etmişdir.

O iki il idi həmin bu mağazada işləyirdi. Adəti üzrə qapını hər axşam daldan bağlayıb öz-özünü yoxlayır, kağızdakı qeydləri - satdıqları ilə aldıqlarını üzləşdirib artıq-əskiyini bilir, işdən evə ürəyi döyüntüsüz, qəlbi çırpıntısız, ruhi sarsıntısız qayıdırdı. Lakin dünən axşam kassadan yüz otuz manat pulu çatmayanda dəli kimi oldu. Özünü dönə-dönə yoxladı. Siyirmədən başqa qeyri yerə pul qoymadığını billə-bilə mağazanın əl aparmadığı, göz dolandırmadığı, ürək sıxıntısı ilə fələrlə axtarmadığı yeri qalmadı. Yüz otuz manat! Gülbəyim xalanı sarsıdan bu itən pulun çoxluğu, ya azlığı deyildi. İtkinin böyüyü-kiçiyi, qiymətlisi-ucuzu olmaz, hamısı ziyandır, zərbədir! Bir də ki, onun kassasından pulu heç vaxt əskik çıxmamışdı. O düz almış, düz vermiş, alıcının qəzəbinə, etirazına, müfəttişin məngənəsinə, hədəsinə düçar olmamışdı. Yüz otuz manat bir kişi kostyumunun qiyməti idi. Gülbəyim xala çox güman ki, adəti xilafına hərəkət edib pulu almamış kostyumu vermiş, sonra da xatırlaya bilməyərək özünə ziyan vurmuşdu. Gülbəyim xala

əlbəttə məsuliyyətə alınacağından qorxub həyəcanlanmışdı. Müdriyyət bu qədər az əskikliyə görə onu məhkəməy verməzdi. Həmin məbləği Gülbəyim xalanın zəhmət haqqından çıxmaqla kifayətlənəcəkdilər. Onun dünən gecəki dərdi, sarsıntısı, iztirabı bundan ibarət idi. O çalışırdı ki, yüz otuz manatı yerinə qoyub idarədə hörmətlə, ehtiramla çəkilən adını bacarıqsızlıq, əfəllik, kütbeyinlik ləkəsindən, ona həsəd aparan işçilərin hər cür mundar dedi-qodularından qoruyub təmiz saxlasın. Axı o qədər pulu…

Axı bu itkidir. Gülbəyim xala onu qızına, evinə, yaxud öz əlilə başqa bir şeyə vermiş, xərcləmiş olsaydı, onu heç bu qədər incitməz, yandırmazdı. - Hə qızım, başıma dünən bax beləcə bir iş gəlmişdi. - deyə Gülbəyim xala əlini qızının qızılı saçlarından ayırıb dərindən ciyər dolusu, həm də rahat və doyunca nəfəs aldı.

- Sən elə bilirdin ki… Rəhim şənlikdən, utancaqlıqdan, xəcalət və iltifatdan yoğrulmuş məstanə bir təbəssümlə Əfruzun qumral gözlərinrə baxıb Gülbəyim xalanın sözünü yarımçıq kəsdi:

- Dünən evə gələn kimi köhnə paltarlarımı soyunub şifonerdən asdım. Gülbəyim xaladan (özünü dünən tanımadığım, adını bu gün öyrəndiyim) aldığım kostyumu geyinib gəzməyə çıxdım, qayıdıb yatdım. Səhər işə gedəndə yenə həmin köhnələri geyindim, tramvayda əlimi cibimə salandainanmadım. Cibimin içini tələsik çölə çevirdim kostyumun pulu cibimdə qalıbmış, verməmişəmmiş. Özüm də bilmirəm necə unutmuşam. Bu gün fasilə vaxtına kimi and olsun… Ürəyimin yemişəm, vicdanım mənə rahatlıq verməyib. Gülbəyim xala qalxıb mətbəxə çay hazırlamağa getdi. Əfruzun minnətdarlıq ifadəsilə şölələnən nəzərləri Rəhimin - gəmi təmiri zavodunun növbətçi qaynaqçısının utancaq, hansı bir solğun ayparanınsa get-gedə güclənən, artıb çoxalan ziyası ilə şəfəqlənən baxışlarına rast gəldi. Onların ikisi də kirpik çaldı, ikisi də köks ötürdü, ikisi də yeridə qurcalanıb udqundu. İstirahət günü idi…

AXŞAMLAR

Hər axşam, fəvvarələrin arasındakı qoşa söyüd ağaclarının kölgəsində iki cavan, bir qoca otururdu. Üz-üzə qoyulmuş bu skamyaların birində qızla oğlan, digərində isə ağsaqqal bir kişi əylənirdi, cavanlar bir-birilə, qoca onlara baxmaqla. Cavanlar cavan idi, qoca isə çox qoca. Uca dağın yaraşığı, zinəti qar olan kimi, onun da bəzəyi, əzəməti saqqalının ağlığı idi. Qoca cavanlara sarı boylananda sanki gecikmiş qış, tez gəlmiş bahara baxır, bahara göz yetirirdi. Fəsil fəsili qovur. Mübarizədə qaliblə məğlub dostluğu, iltifatı olmaz. Ancaq bu qış o qoşa bahara təmiz, mehriban, həm də unudulmaz gənclik illərinə yenidən qayıtmış bir insanın məmnuniyyət ifadəli nəzərilə baxırdı. O bu iki bəxtiyarı seyr edə-edə elə bil keçmiş günləri yenidən yaşayırdı. Qoca cavanları utandırmamaqdan ötrü özünü qəzet oxuyurmuş kimi göstərib onlara altdan-altdan göz yetirirdi. Bu qazancla rahatlıq tapan qəlbi qocaldıqca şıltaqlıq eləyib can sahibinə böyüklə kiçik, cavanla qoca arasındakı saxlanmasına əngəl törətmirdi. Lakin qocaldıqca daha da dərinləşən ürək, həvəs, ehtiras onu cavanların hər kəlməsindəki eyni ahəngi, eyni həzinliyi qulaqlara yazmağa, hafizəyə yığmağa sövq etdirirdi. Qoca onları dinləyir, onları dinləyirdi. Kaş, mehin ahəstə nəfəsilə cilvələnən zərif, qara xallı kölgələr altında pərdələnən təbəssümlər, baxışlar bu qocanın məhramanə nəzərlərindən gizlənməyəydi. Qoca onların baxışını görsəydi… yox, yox, onların ki, səsini eşidir, bu bəsdir. Qocaya o iki səsin verdiyi nəşə də kifayətdir. Tək onlar həmişə bura gəlsinlər, burada oturub bir gözsüz kor qəlbin yüzlərlə aləminə yeganə son sevinc, son təsəlli kimi daxil olub, orada həmişə ruhun sınmış qanadlarından tutub göylərə qaldırsınlar, özü pərvaz edə bilməyəni öz uçuşları ilə sevindirsinlər. Qız deyirdi: - Bu günkü təşrihim kor bağırsaq olub. Çox əziyyət çəkmədim. Çünki xəstə arıq idi. Səhər məni ən çətin bir əməliyyat gözləyir. Böyrəyin birində daş var, kəsib atmalıyam. Bu ona görə çətindir ki…

Oğlan qızın qırılmış səsini bitişdirərək sorğu-suala başlamır. Qoca o yanda həyəcanlanır, oğlan niyə xəbər almır? Bu niyə belə laqeyddir? Bəlkə oğlan o işin, o çətinliyin nədən ibarət olduğunu bilir? Belə olmasa yəqin ki,soruşardı. Yox, deyəsən oğlanın fikri başqa yerdədir. O bu

məqamda qeyri şeyin haqqında düşünməməlidir. Axı onunla danışan sevdiyi ilk qızdır. Bəlkə çoxdan evləniblər? Kişilər evlənəndən sonra öz arvadına qarşı etinasız olurlar. Amma evlənmişlərə oxşamırlar. Onlardan evlənmişlərə məxsus izzəti-nəfsin ətri gəlir, təravəti duyulur. Oğlan dillənib öz fikir-xəyalları ilə özünü yoran qocanın zehninə dinclik verir:

- Biz də iki porşin dəyişmişik. Sabahı işimiz çox asan olacaq. Göyərtəni rəngləyirik, göyərtəüstü mexanizmlərin nasazlarını təmir edəcək, bir də yan illərin kəsilməsini tezləşdirəcəyik. Killəri çoxdan kəsdirmək lazım idi. Onun hesabına sürətimiz xeyli , təxminən saatda bir milə qədər artacaqdır. Demək bir il ərzində əlavə iki yüz altmış səkkiz mil artıq yol qət edəcəyik. Planın doldurulması üçün mavi yollarda sürət birinci şərtdir. Qocanın çənəsi titrəyir. Bu uçunma onun sinəsinə səpələnmiş ağ saqqalını qara sətin köynəyinin yaxasında dalğalandırır. Yay axşamıdır, o üşümür, qoca əsəbiləşmişdir.

Bu cavanlar nə üçün eşq-məhəbbətdən danışmırlar? Onlarda gənc qəlbi, gənc ürəyi yoxdurmu? Beşinci axşamdır ki, qoca onları dinləyir, lakin gənclər həmişə işdən, zəhmətdən, yüksəlişdən, sürətdən danışırlar. Onlar bəlkə qocadan utanırlar? Qocanın ürəyində bir arzu oyandı, onlara mane olmasın, gəlib başqa bir skamyada otursun. Lakin hansı bir həvəssə qocanı qalxmağa qoymadı. Qız səsləndi:

- Sən bu axşam evdə nə iş görəcəksən? Oğlan qollarının ikisini də yanlara açıb skamyanın söykəncəyi üzərinə sərələdi. - Qəzetə məqalə yazacam.

- Nə barədə?

- "Gələcəyin kəşfiyyatçıları" haqda - - Maraqlı olacaq? - Əlbəttə. "Səmərələşdiricilər ekipacı" adı almışıq. Zarafat deyil, gəmimizdə on səkkiz səmərələşdirici var. Onlar susdular. Fəvvarələr fışıldadı, boynunu büküb hovuza tökülən şırnaqlar şırıldadı, o yanda rəqs musiqisini bu yanda muğamatın xoş sədaları sahili döyəcləyən ləpələrin əsəbi çırpıntılarına qarışırdı. Qızla oğlan qol-qola keçirib sahil boyu irəlilədilər. Qoca da onların arxasınca addımladı. Meh cavanların ağ, çəhrayı paltarlarını titrədir, qocanın isə saqqalını daraqlayırdı. Onlar dayanacaqda ayaq saxladılar. Qoca irəli, geri addımlayıb onlara bir də baxdı. Qız başını oğlanın çiyninə sarı əyib kəc adlanan nəzərlərilə öz qəlbinin gizli sevdalarını söyləyirdi. Təbəssüm qocanın dodaqlarını açdı. Ürəyindən qopub gələn bir səda onun boğazında boğuldu. O udqundu. Oğlan qızın ağ pambıq əlinin birini tumarlayırdı. Qoca onlara doyunca baxa bilmədi, gəzişdi, geri çevriləndə oğlanı yerdə tək gördü. Qız hanı? Qocanın gözləri qızı axtardı. Qız troleybusun aynasından oğlana əl eləyirdi. Qoca oğlanın lap yanına gəldi. Onun qırmızı sifəti də saqqalı kimi ağarmışdı. Alnı qarmon təki lay-lay olub qırışmışdı. O qırışların hərəsinə bir təəssüf yazılmışdı. - Sən niyə belə elədin? Oğlan çaşdı: bu qoca kimdir? Nəyi xəbər alır? Qoca dayanmadı. İti addımlarla uzaqlaşıb, bir də geri qayıtdı. Əlini oğlanın yaxasına uzatdı. Lakin onun büzüşmüş titrək əlləri havada uçuna-uçuna sahibinin qoynuna girdi. O öz sözünü ürəyində dedi: "Bu necə eşq-məhəbbətdir? Bu necə sevmək, sevilməkdir? Oğlan, qızı niyə evlərinə qədər yola salmadı?" Oğlan avtobusa minib aynadan, dayanacaqda gözlərini yerdən ayırmayan qocaya baxır, onun sözlərini ürəyində təkrar edərək gülümsəyirdi. O, qocanın əsəblərinin tamamilə pozulduğunu güman etmişdi. *** O birisi günün axşamı oğlanla qız öz görüş yerlərini dəyişdilər. Bu, oğlanın təhrikilə oldu. Oğlan nədənsə həmişə onlarla maraqlanan qocadan şübhələnmişdi. Bu şübhə qorxu şəklini almamışdı. Oğlanın ağlına bir fikir gəlmişdi: qocanın ağlı azıb, qızın yanında ağzına gələni deyib məni abırdan salar. Ondan uzaq olmaq yaxşıdır. Onlar bu axşam bulvarda deyil, dəniz vağzalının cənubundakı təzə bağda əyləşmişdilər. Öndə qabarmaların öz ağ yalmanlı atını sahilə səyridən dəniz, arxada isə "həmişəcavan"ların sıx cərgəsi idi. Qarşıda dalğalar guruldayıb sahili gəmirirdi, əks tərəfdə maşınlar şütüyürdü. Bir sinədə qərar tutmuş iki aləmin arasında öz söhbətlərinə uyan gənclər dal tərəfdə dayanıb onları dinləyən qocadan xəbərsiz idilər. Qoca onları çox axtarmış, dünənki "səhvilə" perikdirdiyi "quşları" gəlib bu xəlvət guşədə tapmışdı. Qoca ağacların arxasında daldalanaraq özünü göstərməməyə, ləpələrin nəriltisinə qarışan sözlərin hamısını eşitməyə çalışırdı. Qız danışırdı:

- Bacım seleksionerdir, kiçik elmi işçidir. Üç ildir təcrübə zonalarında iş aparır. Müdafiəyə hazırlaşır. Yeni buğda növü yetişdirmişdir. Yetişdirdiyi növ istiyə, soyuğa davamlı

olmaqdan başqa da onun bir dəninin çəkisi mövcud buğda dənlərinin hamısından ağırdır. Bacımın böyük gələcəyi var. Deyir ki,ikinci elmi işim də çoxillik bitkilərdən olacaqdır. O yeni tut növü ilə özündən qabaqkıları çox arxada qoymağa can atır. Azacıq sükutdan sonra oğlan soruşur: - Bacın şöhrət üçünmü çalışır? Qız bir az yana çəkilib oğlanın üzünə təəccüblə baxır. Oğlan isə gülüb çiyinlərini titrədir. Qız daha da pərt olur. Qalxıb çəhrayı koftasının yaxasını aşağı dartır. Oğlan biləyindən tutub onu oturdur. Qız dartınıb yenə də durmaq istəyir. Lakin oğlanın qolu onun boynuna dolanır. Qoca yerində tərpənir: bu sevib sevilməkdirmi?! Bu sevib sevilənlərin barışmasından çox, bacı-qardaş qucaqlaşmasına oxşayır. Qardaş da küsəyən bacının könlünü bax beləcə alır. Qoca qızın incik səsini eşidir: - Mənim bacım şöhrətpərəstdir? Onu sən tanımırsan?! Onun necə bir xeyirxah adam olduğunu sən bilmirsən?! - Özüm səni cinləndirirəm. - Mən hirslənmirəm. - Bilirəm, sən hirslənən deyilsən. Onlar ucadan gülüşdülər. Arada əvvəlki səmimiyyət yaranır. Oğlan söhbətə başlayır. - Qardaşımın dəmir atı var. Qıza elə gəlir ki, oğlan onu dolayır. - Dəmir at nədir? Oğlan cibindən bir qəzet çıxarır.

- Al bax, qardaşımın şəklidir. Görürsənmi, dəmir atın belinə qalxıb pambıq yığır. Bir gündə bir dəmir atla bir adam yüz nəfərin işini görür. Qız gülməkdən taqətsizləşir. Xəmir bədənini söykəncəyə yapışdıraraq başını oğlanını çiyninə doğru əyib bir də qaldırır. Qoca bu an qızın gülüşünü eşitmir, onun başının əyilib oğlanın çiyni üzərinə necə düşməsini görmək istəyir. Lakin bu da baş tutmur. Qocanın üz əzələləri dartılır, qayış kimi dartılıb boşalır. Saqqalının hər yanından ayrılan iki dəstə tük qabarıb donqarlaşır. Qoca saqqalını əllərilə tumarlayır. Yerini dəyişəndə ayaqları altında qalan bir karton kağızı haray-həşir salaraq oğlanla qızı səksəndrir. Onlar qocanı görən kimi qalxdılar. Bir-birindən bir az aralı dayanıb dənizdə lövbər atmış gəmilərə baxdılar. Onların söhbəti də dənizdən oldu.

- Dənizi sevirsənmi? Oğlan qətiyyətlə cavab verdi: - Sevməsəm orada işləyə bilərəmmi?! Qoca əlini əlinin içinə alıb barmaqlarını sıxır. Onun buxara papağı öz-özünə yana əyilir. O papağını bərk-bərk başına basıb çallaşmış qaşlarını sallayır. İrəli üç əsəbi addım atır. Nə fikirləşirsə dayanıb geri boylanır. Qızla oğlan dənizə sarı yeridilər. Yox, onlar yana buruldular, vertalyot meydançasından keçib küçəyə çıxdılar. Xeyli gedəndən sonra oğlan başını döndərib dala baxdı. Qoca da onların arxasınca irəliləyirdi. Oğlan tez taksi saxlatdırdı. Onlar "Volqa"ya oturdular. Qocanın yanında fırlanıb geri qayıdan maşının arxasından tüstü çıxdı. Qızla oğlan başqa səmtə baxdılar. Qoca onların maşında qəhqəsini eşitdi. O, ayaqlarını sürüyərək baxıb pıçıldadı:

- Onlar hər şeydən bir az söhbət elədilər. Amma ondan bir kəlmə də danışmadılar.

SINAQ

Tutqun bir yaz səhəri idi. Göylərlə buludlar, dağların döşü ilə dumanlar sürünürdü. Gah sazaq əsir, gah da dalğa-dalğa gələn ilıq bahar nəsimi adamın ruhunu oxşayır, həyat eşqini, yaşamaq həvəsini şura gətirirdi. Qazın damların bacasından qalxan acı gərmə tüstüsü göylərə millənib buludlara qarışırdı. "Kürəkçay" yatağına sığmır, məcrasından çıxıb kəndin cünubundakı düzə dağılırdı. Kəndin hər tərəfindən hop-hopların həmahəng səsləri eşidilirdi. Dimdiklərində çöp aparan qaranquşlar lap alçaqdan şığıyıb adamın qulağının yanından ötürdü. Kürd toyuqlar, ayaqları yenicə yer tutan alabəzək balalarını başına yığıb həyətlərdə dənlənirdilər. Hər yanda baharın gəlişi, baharın nəfəsi duyulurdu. Nağı bəy ikinci mərtəbənin eyvanından yaşıl düzlə əyri qara xətt kimi şəhərə sarı uzanan yola baxırdı. Qubernator Nağı bəyə qonaq gəlməli idi. Neçə gün idi ki, hazırlıq görülürdü. Xörəklər qazanlarda qalıb boyatıyır, nökər-qaravaşlara yem olur, itə-pişiyə atılırdı.

Qubernatorun izi-tozu görünmürdü. Nağı bəy onsuz da dünya "qarışmağa" başlayandan Allahın "mömin" bəndəsi olmuşdu. Ədəb-ərkanla dəstamaz alır, gündə beş dəfə namaz qılırdı. Qubernatorun gəlmək vaxtından keçdikcə qarmaqarışıq yuxular görürdü. Yel əsib yanğını şiddətləndirir, yanğın şəhəri ağzına alır. O, hər səhər yuxusunu suya söyləyib Allaha dua edərək

işlərin ondan uzaq olmasını diləyirdisə də fikir onu içəridən yeyirdi. Nökərlərin birini səbih xəbər dalınca şəhərə göndərə bilərdi. Ancaq qubernator cənablarının hüzuruna gədə-güdə göndərməyi ad-sanına yaraşdırmırdı. Həm də eləsə qubernator cənabları ona yaxşı nəzərlə baxmazdı. Odur ki,özünü bir az da səxavətli göstərmək niyyətilə bu gün şəhərə getməyi düşünmürdü. Mədət tövlədə Nağı bəyin yorğa kəhərini qaşovlayırdı. Hətəm isə tövləni kürüyüb peyini bacanın qabağına yığırdı. - Çərçi qonağın getdimi? - deyə Hətəm gözlənilmədən astaca soruşdu. - Yox hələ. Axşam tərəfi gedəcək. Nə almaq istəyirsən? - deyə Mədət də fərqinə varmadan düzünü dedi.

- Ərşdən-kürşdən danışırdı.

- Kim? - Çərçi qonağın.

- Sayıqlayırsan nədir?! Mədət şübhələnməyə başladı. Hətəm halını pozmadan:

- Arvad axşam bir yanımı çürütdü ki, qonşulardan istəməkdən üzümün suyu tökülüb - dedi.

- Get, çərçidən mənə bir baş darağı al. Həyətinizə girəndə gördüm işığınız gəlmir. Dala qayıdırdım ki, qulağıma səs dəydi. Elə bildim yerin içində ağızgapı eləyirsiniz. Bacadan baxanda ayağımın altında yer-yurd qaçdı. Kəndin adamlarının bir yarısı sizdə idi. Ocağın qırağında halay mərəkə qurmuşdunuz. Çərçinin də ağzından od tökülürdü. Sinəsi qalxa-qalxa bolşovoydan-molşovoydan danışırdı. Hətəm o qədər də qorxulu adam deyildi. O, heç kimə yamanlıq eləməmişdi. Öz tükünün üstündə dolanan füqarənin biri idi. Mədət, Hətəmə ona görə arxa çevirmir, bel bağlamırdı ki, onun bir az ağızdan boşluğu vardı. Arada olan xəlvət söhbəti bilərəkdən xəbərçilik yolu ilə deyil, özünü unutduğundan bəyin, yaxud xanımın yanında ağzından qaçırırdı. - Nöyütümüz qurtamrmışdı, qaranlıqda qalmışdıq. Sən də lap uşaq kimi danışırsan. Çərçinin yanına şey-şüy almağa gələrlər də. Bolşovoydan-molşovoydan kim danışmır ki? Çərçinin peşəsi kəndbəkənd gəzməkdir. Hərənin ağzından bir söz eşidir. O da eşitdiklərini deyir. Münəccim deyil ki, yerdə durub, yeddinci göydən xəbər verə. Hər ikisi susdu. Mədət atın quyruğunu düyməyə, Hətəm isə peyini kürəkləyib bacadan çölə atmağa başladı. Aradan bir-iki dəqiqə keçdikdən sonra: - Mənim ağzımı boza vermə, - deyə Hətəm burnunu çəkdi.

- Deyirdi ki, kəndlərdə düzəltdiyimiz özəklərin hamısı birdən şaban ayında ayağa qalxacaq. Sən niyə mənim başımı aldadırsan? Hələ sizə başının tükü getmiş bir kişi şəkli də göstərib deyirdi Lenindir. Bu kişi çıxaracaq xilqəti ağ günə. Mədət dərk etdi ki, Hətəm söhbətə əvvəldən axıracan qulaq asıb. Eşitdiklərini onun hafizəsindən asanlıqla silə bilməyəcək. O, yəhəri atın belinə qoydu. Quşqunu keçirtdi. Qantarqanı bərkidə-bərkidə atılan daş onun diriliyinə düşməyirmiş kimi səsləndi:

- Şəkil?! - Hə. Mədət əlini-əlinə vurub elə güldü ki, yalnız yaşından yekə danışan uşağa elə gülərlər.

- O, on ikinci imam Sahibi Zamanın şəklidir. Canım fəda olmuş zühr eyləyən kimi ədalət divanını urusetdə qurub. Uruslar onun adını Lenin qoyublar. Lenin dedikləri o sahibi zaman elbəel gəzəcək, bütün günahkarlara divan eləyəcək. Hətəm xeyli fikirləşdi… Gah küncə tıxanıb qalan peyini əli ilə kürəyin üstünə yığdı, gah da şübhə ilə qanrılıb Mədətin üzünə baxdı. - Özək-mözəyi ki, dana bilməzsən?! - deyə nəhayət, dilləndi. - Adamı tanımaq olmazmış. Gündüz kəndin arasında gəzəndə acı alma kimi büzüşən çərçinin bütün bədəni oynağa gedirdi.

- Ə səsini kəs, - deyə Mədət ona acıqlandı. Məni it ağzına salarsan. Hətəm kürəyi yerlə sürüyə-süryə onun yanına gəldi. Mədət barmaqlarını daraq eləyib atın uzun yalının dolaşığını açsa da ürəyində Hətəmə cavab hazırlayırdı. Bilirdi ki, yaxasını Hətəmin əlindən asanlıqla qurtarmaq mümkün olmayacaqdır.

- Sən yaman qəlbi qara adamsan ha - deyə Mədət incimiş kim başını buladı.

- Əllaf Zahid tacirbaşı şaban ayında kəndlərdə qəpirətiv açmağa qubernatordan rüsxət alıb. Tacirlər qəpirətivə urusca özək deyirlər. Qandın?! Sən hərdən adamın üstünə yamanca qara yaxırsan ha. Bu xasiyyətin olmasaydı… -Bəs arkdaşalar nə deməkdir? Deyirdi: "Gəncədə, Bəkidə, Şəkidə yatmırlar. Camaatı başa salırlar". - Canım qurban olmuş bayaq dediyim sahibi Zaman var ha, uruslar adını Lenin qoyduqları? - Hə. - Onun əsabələridir. Lenin özü ordakı işini

qurtarıb gələnə kimi onlar burda Məhəmməd hümmətlərinin günahını-günaha, savabını-savaba yazırlar ki, o yerin-göyün yiyəsi gələndə məəttəl qalmasın. Atalar "keçəllər bic olar, onundan biri gic olar" - deyibəlr. Hətəm tezcə inandı. Peşmançılıq, üzürxahlıq ifadəsi ilə utana-utana Mədətin üzünə boylanıb mızıldandı: - Deyirəm axı, çərçi hara, belə cəncəlli işlər hara… *** Mədət Nağı bəyin üzəngisini basıb şəhərə, çərçi qonağını isə məsələdən halı eləyib qonşu kəndə yola salandan sonra Hətəmlə şərikli bir cinayət işi tutma haqqında çox düşündü. Hətəmin fikrini hələlik dolaşıq salmışdısa da, vurduğu düyün açılana kimi hər ehtimala qarşı elə bir kələk qurmalı idi ki, o, nəinki çərçinin söhbətlərini, ümumiyyətlə hər şeyi unudub, öz canının hayına qalsın. Acanda Mədətin əlində, yumanda ovcunda olsun. Əlbəttə, bu həqiqi cinayət olmamalı, üstü açılanda yeli nə Mədəti, nə də Hətəmi vurmalı idi. Belə bir möcüzə, xeyli ustalıq tələb edirdi. Öz əli ilə özünə müqəssir donu geydirməklə bərabər onun qulu olmaqdan qeyri çarəsi qalmazdı. Mədət nə fikirləşdisə, "qoy elə olsun, dəvə yaxında otlayıb uzağı gözlər" - deyə bir çuval götürüb evdən çıxdı. Kəndin üst yanındakı Narlı dərəyə endi. Təqribən bir saatdan sonra dala qayıdıb, Hətəmin qapısını döyəndə gecə yarı olardı. Narın yağış yağırdı. - Kimsən? - deyə Hətəm qapıda səs eşidib xırıldadı. - Mənəm. Geyin, bəri çıx görək başımıza nə gəlir. - Bu vədə xeyir ola, ay Mədət? - … Hətəm qapını açanda Mədət dedi: - Bir bel götür. Mədət qabaqda, Hətəm isə onun dalısınca kənddən çıxıb Narlı dərəyə yol aldılar. Kənd arxada qalanda Hətəm xoflanmağa başladı. O, elə güman etmişdi ki, Nağı bəy şəhərə gedəndə Mədətə taxıl sulamağı tapşırıb. Mədət "bir bel götür" - deyəndə hələ ürəyində bəyin qarasına deyinmişdi də: "Zalım oğlu göydən yerə su yağandasa da qoymur xarabamızda oturaq". Ancaq ki, təsəvvürümə gətirəndə ki, Narlı dərə tərəfdə Nağı bəyin əkin-biçini yoxdur, Mədətdən soruşdu: - Mədət, hara gedirik? - Dalımca gəl. - Axır bilməliyəm?! - … Narlı dərənin ayağına çatanda Mədət addımlarını yavaşıtdı. Ağır-ağır geri çevrilərək Hətəmlə üz-üzə durdu: - Bir məni agah elə görüm, bu nə işdir? - deyə Hətəm boğuq bir səslə xəbər aldı. - Allahdan gizlətmədiyimi səndən necə gizlədim. - deyə Mədət ağır bir işə düşmüş adam kimi qeyd etdi: - Heç bilmirəm bu nə işdir mənim başıma gəldi. - Aradan üzüntülü bir sükut keçdi. - Sənə heç əziyyət verməzdim, burdan o yana aparmağa gücüm çatmadı. - Onun səsi qırıldı. - Görəcyi gora aparmaq olmazmış. Bu sirri batırmaqda gümanım bir sənədir. - Yoxsa, çərçi… Mədət onu başa saldı ki, çərçi axşamüstü onlarla xudafizləşib gedəndən sonra, gecə bir də kəndə qayıdıb. Özü də haradansa öyrənib ki, mən o gecə evdə olmayacağam. Gəlib bizim qapını döyür. Arvad qapını açmaq istəmir. Belinə ip bağlayıb bacadan içəri sallandığı vaxt içəri girdim, beli başına endirdim. Elə bil, canı buna bənd imiş, bilsə evim yıxıldı - deyə Mədət sözünü tamamlayıb köksünü ötürdü. - Aparaq onu elə yerdə quyulayaq ki, baratası tapılmasın. - deyə Hətəm Mədətin qolundan tutub dartdı. Hərəsi çuvalın bir başından yapışıb meşəyə sarı üz tutdular. *** Üç gündən sonra qubernator bir dəstə atlı ilə yolüstü Nağı bəyin evində gecələməyə dönmüşdü. O, səhər burdan belə Gəncə qubernatoruna təşrif aparacaq, nə xüsusda isə söhbət endəcəkdilər. Görünür, Gəncə qubernatorundan vacib təmənnası vardır. Onun üzünə ölüm sifəti çökmüşdü. Fikirdən başı açılmır, kef-damaq çəkmək, gözündə uçmurdu. Mütəkkəni dirsəyinin altında əsəbiliklə xəmir kimi yoğururdu. Nağı bəy adəti üzrə iltifatını əsirgəməmişdi. Quş iliyi, can dərmanı ilə süfrəni bəzətdirmişdi. Qubernatorun kefini durultmaqdan ötrü Hətəmə balaban, Mədətə isə saz çalıb-oxumağı, arada qaravəlli danışmağı taşırmışdı. Amma mənbəyindən bulanan su deyəsən sazla, söhbətlə durulana oxşamırdı. Mədət oynaq ovşarı havası ilə Koroğludan, Qaçaq Nəbidən özgə bir nəşə oxusa da, məclis yas yerinə oxşayırdı. Qubernatorun donuqluğu məclisi cana gəlməyə qoymurdu. Onun üzünə itaətkarlıqla baxan, qablardakı buğlanan xörəkləri görüb udqunaraq qarınları quruldadıqca yerlərində qurcalanan zabitlər və qorodovoylar üzdən özlərini ağasının kefsizliyindən bədbinləşən sədaqətli qul kimi aparırdılar. Nağı bəy istədi qubernatora yanaşıb ərkyana desin: "Cənab xudavəndialəmin qəzəbinə keçmişik. Dərdimiz böyükdür. Bu bişərəf nökər-naiblərin yanında qəlbinizi sıxmayın. Özünüzü şad-xürrəm göstərin. Onlar bizim qəm dəryasına qərq olduğumuzu görəndə sevinirlər". Lakin buna cürəti çatmadı. Ona elə gəldi ki, qubernator pis üz göstərib, onu rəiyyətin yanında nüfuzdan salar. Saray əhli dərdlər, ələmlər girdabında qalarkən rahiyyədar bir sənəmin nazu-qəmzəsi kifayətdir. Çiyinlərdən basan iztirablar yükü əriyər,

buxarlanıb havaya uçar. Qədd düzələr. Üzdə təbəssüm oynar, gözdə məhəbbət parlayar. Hər şey unudulub, o gözəl məxluqla əylənməyə qurban verilər. Nağı bəyin arvadı Mahizər xanımın gəlişi məclisə belə bir təsir bağışladı. Onun yaşıl darayı paltarından, torksin şalından, barmaqlarındakı firuzə qaşlı üzüklərdən, yaraşıqlı ağ üzündən sürmə, çəkilmiş gözlərindən sanki otaq işıqlandı. Qubernatorun tutqun siması o şamdan şölə çəkib ziyasını ətrafa yaydı. Qubernator Mahizər xanıma baş əyəndə zabitlər və qaradovoylar məsciddə seyidin arxasında namaza duran mollalar kimi ikiqat oldular. Mahizər xanımın:

- Buyurun, - deyib qonaqları yeməyə dəvət etməsi, qubernatorun yuxanı kəsib kələm dolmasını əzişdirməsi məclisə qeyri-adi şıqqıltı saldı. Acgöz zabitlərlə qarınqulu qarodovoylar yeməyin üstünə elə tökülüşdülər ki, elə bil küləşliyə bir sürü ac mal doldu. Həmişə nökər-naibi kef məclisinə buraxmayan qubernatorun bu axşamkı rəftarı mühakimə gününə kimi ittihamçıların ürəyini yumşaltmaq, qəzəbini soyutmaq canfəşanlığını xatırlayırdı. O, arabir yerindən qalxıb məclisin ayağına, başına keçdi:

- Kosalar qaravəllisini başla - deyə barmağının çırtması ilə Mədətin burnuna vurdu. Xoruzlar çırpınıb ilk dəfə banlaşanda külkün rəngli şərab qonaqların kefini ala buludlara qaldırmışdı. Xanım məclisə can verib can ala-ala bir qədər oturduqdan sonra öz otağına çəkilib yatmışdı. Mədət qarı tayfasının qaravəllisini danışırdı. - Qarı var şap-şap qarı, qarı var gup-gup qarı, qarı var…

- Onu yox, - deyə qubernator söhbətin arasına girdi. - Başqasını danış! - Ayrısınımı?

- deyə Mədət öz-özündən soruşurmuş kimi dilləndi. - Axı inciyib küsən olar. - Aşığın ağzından kərə də çıxar, kürə də. De gəlsin! Mədət istəyirdi ki, qubernator onu keçəllər qaravəllisini danışmağa məcbur etsin. O, həmin qaravəllini qubernatorun təkidi olmadan da başlaya bilərdi. Lakin belə eləsə, məclisdəkilər bunu şəxsiqərəzlk kimi başa düşərdilər. Məclisin şən keçməsi xatirinə aşıq balabançı ilə döşlşər, bir-birinə hərbə-zorba gəlib camaatı güldürər. Ancaq, aşığın məzhəkəni təhqirlə nəticələndirməyə çalışması sənət yoldaşına qarşı ədəbsizlik olardı. Qubernator bir balaca inad göstərsə, Mədət boyun qaçırmaz, qaravəllini istədiyi şəklə salar, söhbətə bacardığı rəngi vurardı. Hətəmi sınaqdan keçirmək üçün bundan sərfəli məqam ələ düşməzdi. Onun ağzının bəndini yoxlamağın vaxtı çatmışdı. "Axı, inciyib küsən olar" - deyə Mədətin özünü çəkməkdə məqsədi ayının yadına daş salmaq, qubernatoru qeyzə gətirib şitəndirmək idi. Qubernator da sanki nüfuzunu göstərməyə hazır imiş: - Keçəlləri bəzə! - deyə gülə-gülə hökm verdi. Mədət aşıqlara məxsus bir əda ilə içini arıtladı. Sazın çömçəsini qoltuğunun altından arxaya keçirdi. Böyründən çaxmaq-bıçaq qoburu sallanan kəmərini dala sığadı. Orta ilə o baş-bu başa gedib gəldi. Çərkəzi papağını gözünün üstünə basdı. "Keçəllər" qaravəllisini danışmağa başladı. O, əvvəlcə keçəlləri növlərə ayırdı. Aşıq dili ilə onları bəzədi. Hətəmin görkəmi onsuz da gülməli idi. Nağı bəyin köhnə yamaqlı çuxası, tükü getdiyindən dərisi ağaran papağı onu oyuğa oxşadırdı. Qonaqlar bir-birini dümsükləyərək gözlərinin işarəsi ilə Hətəmi göstərib pıqqıldaşanda Hətəmin bədəni istilənirdi. Acığından bilmirdi neynəsin. Gecəki əhvalatı xatırlayıb ürəyində Mədətə məzəmmət yağdırır, onu qəzəblə yamsılayırdı: "Arsuz oğlu arsız. Dünən əlindən xəta çıxıb, onun dərdini çəkmir, keçəllərə desələr yüz sayana kimi tərpənmə, başının qaşınması tutar, nə bilim nə. Mənim qarnıma burğu düşüb ki, iş ağaracaq, bizi qazamata salacaqlar, bunun içini kef alıb!" Keçəllərin arvadlarının iki əri olar. Biri cəfa çəkər, digəri səfa sürər. Axı keçəllərlə bir yastığa baş qoyulmalıdır ki? Yazıq arvadlar neyləsinlər. Keçəllərin başının iyinə yayda arandan dağa milçək uçub gedir. - Bu da arvadının iki müştərisi olan keçəllərdəndir? - deyə gözləri axan qubernator başının hərəkəti ilə Hətəmi göstərdi. Hətəmi canına od qoyub səbr kasasını qaynatmağın məqamı çatmışdı. Qoy o özündən çıxsın, qubernatora ərz eləsin ki, Mədət çərçini öldürüb, meyidini də meşənin filan yerində basdırıb. Axı onların o gecə çuvala bir yerdə meşədə basdırdıqları Narlı dərədə qaraçı eşşəyinin canavar dağıtmış leşi idi. - Bu da arvadı oynaş saxlayan keçəllərdəndir? - deyə qubernator qəti cavab tələb edən amiranə bir ahənglə təkrarən soruşdu.

- Hə! Gülmək də var, gülmək də. Hərə qarnını tutub bir tərəfə yıxıldı. Hətəm bayaqdan duymuşdu ki, qaravəllinin bir tərəfi də onu tutacaq. Ancaq qərəzlə başlanan məzhəkənin bu

şəkildə qurtaracağını heç gözləməzdi. Mədəti təəssübkeş, öz kəndlisini yad adamların ayağına verməyən, öz el-obasının namusunu çəkən bir kişi kimi tanıyırdı. Eşitdiklərinə heç vəchlə inana bilmirdi. O, Mədətə nə yamanlıq eləmişdi?! Əlindən başqa iş gəlməsə də, o gecə Mədətin dadına çatmamışdımı?! "Nəsə başqa məramı var, o, belə ağılın yiyəsi deyildi" - deyə Hətəm dumanlı təsəvvürlərin ağırlığı altında qapıya sarı addımladı. - Balabançı küsdü, - deyə qubernator qəhqəhə çəkəndə zabitlər və qaradovoylar yenidən hırıldaşdılar. Gülüş səslərindən divarlar titrəyəndə qapılar taybatay açıldı. Qara şinelli, beli toqqalı, sinəsi çal-çarpaz patron qatarlı altı adam əldə tüfəng içəri doluşdu.

- Heç kim tərpənməsin! Qonaqların əlləri göyə qalxdı. Gələnlərin beşi keşik çəkdi, biri onları tərkisilah elədi. Meşin pencəkli, meşin şapqalı, şapqanın uzun günlüyü altından güclə görünən gözlərindən alov saçılan bir kişi içəri girdikdə Nağı bəy: - Məni çevir balalarının başına - dedi. Mənim günahım yoxdur. Səni and verirəm o xudavəndialəmin birliyinə evimə qan salma. Mən həmişə fəqir-füqəranın tərəfində olmuşam. Bu çərçi olmaya?! Ayaqlarını sürüyərək qapı-qapı düşüb iynə, daraq, düymə, cövhər satan, hər alıcının qabağında neçə dəfə baş əyən yazıqda belə fərasət?! Qubernator tir-tir əsirdi. İndi yüz Mahizər xanım da olsa, onun əvvəlki halını, əvvəlki mövqeyini özünə qaytara bilməzdi. Nağı bəy çərçiyə yalvardıqca Hətəm ürəyində deyirdi: "Ay dönüm başına" Onun zarıltısına məhəl qoyma!" Hətəm üzünü qubernatora tutdu, onun gözləri belə bir fikir ifadə edirdi. "Kasıbın xoruzu, qoçağın fərəsi, halın necədir? Mən sənin lağ yerin olmuşdum?" Sonra o yönünü Mədətə çevirdi: - Sən məni niyə biabır elədin, başına qaravəlli qəhətliyi idi?! Mədət gülə-gülə irəli gəlib əlini onun kürəyinə vurdu. - Ay dəli, səni bax bu gün üçün sınayırdım. Şəhər tərəfdən atışma səsi gəlirdi.

KASIB

Çarmıxa çəkilmiş «Üzən yataqxana» gəmisinin arxa tərəfində yerləşən, dəmir qapısı üzərinə qırmızı hərflərlə «Tibb məntəqəsi» sözləri yazılmış kayutaya girdim. Necə lazımdır özünü təqdim edəndə oturub qalın kitabı vərəqləyərək yalnız şəkillərə baxan həkim rəng verib rəng aldı. Yəni ağarıb qızardı. Gərnəşib sinəsinə iki yumruq vurdu, üzünü şapalaqladı. Boyun buxaqını ovuşdurmaqla artan həyəcanını öz canından əlli-ayaqlı itirəndən sonra əlimi ehtiramla dönə-dönə sıxdı. - Çox şadam, çox şadam, əcəb eləmisiz. Əlimi buraxanda da bu sözləri bir neçə dəfə təkrar edib xələtini, qalpağını əyin-başından çıxararaq dava-dərman şkafının böyründəki mıxçadan asdı. «Bir dəqiqə bağışlayın» - deyə hörmətkarlıqla gülümsünərək əllərini yumağa başladı. Əlüz yuyanın yuxarısından divara vurulmuş güzgüdə başını o yan-bu yana əyərək gah çənəsini, gah alnını seyr etməsindən anladım ki, onun təmizlik işinə baxması on dəqiqədən az çəkməyəcək. Əl-üz yumağın dalınca dişləri təmizləmək, teli daramaq, pencəyi geyinib köynəyin boyunluğunu düzəltmək, çəkmələri silib parıldatmaq, ətirlənmək gələcək. Hələ bəlkə mənə kürəyinin tozunu da çırpdıracaq. O ki, belə başlamışdı on dəqiqəyə qurtara bilməzdi. Əslində o, biabırçı bir iş tutmurdu. «Sağlamlıq təmizliyin rəhnidir» cümləsi həkimlərin şüarıdır. Təmizkar olmaq, səliqəli geyinmək hamının borcudur. Amma nədənsə onun hərəkətləri məni darıxdırırdı. Bu nə qəribə adamdır?! Əli təmiz deyildisə mənlə niyə görüşürdü? Ancaq bir yana baxanda həkim nöqteyi-nəzərincə düz eləyirdi. Gərək məndən soruşaydı ki, əlin pakdır, ya çirkli?! Qonaqdan belə bir söz soruşub onu təhqir edərlərmi?! Nə isə, o öz işində olsun. Mətahımızı bazar açılanda xırıd elərdik. Yadımdan çıxmamış onu deyim ki, dünən idarədə Kasıb adlı bir kişi işçimizin olduğunu eşidəndə öz-özümə gülmüşdüm: «Belə də adam adı olar?!» On iki saat sərnişin gəmisilə yol gəlib Kasıbı görəndən sonra ona belə bir ucuz ad qoyana çox acığım tutdu: «Dünyada ad qəhətliyi imiş?!» İnsafən Kasıbın adı özünə yaraşırdı. Kasıb, peysərdən-başdan, burundan-qulaqdan saz idi. Yanaqlarına elə bil qan çilənmişdi. Boy-buxunu, çiyin-kürəkləri də, şişirtmə olmasın qarın sallamamış cavan, yaraşıqlı pəhləvanınkı kimi. Bir sözlə kişinin oğlu pələng misal adam idi. Kasıb, diş fırçasını qabından çıxarıb xoş minvalla üzümə baxdı.

- Darıxmırsınız?

- Xeyir – dedim, xətircam olmayın. Daha nə deyəydim, qarınınkı Qurandan keçmişdi. - Bu saat, bu saat. Vaxtınızı aldığım üçün gərək sən məni bağışlayasınız. Kasıbın bəzən «siz», bəzən də «sən» - deyə müraciəti, nitqi göştərirdi ki, onun birinci arzusu mədəni adam olmaqdır. Ancaq andıra qalmış sümüksüz dili dönmür, kişini biabır edirdi. Stolüstü saatın ürək döyüntülərini saydım. Yüz həştada çatanda. - Oralarda nə var, nə yox? – deyə Kasıb darağı götürdü. Nazirlikdə bir dəyişiklik zad yoxdur? - Yoxdur! – deyib gəzinməyə başladım. - Eşitdiyimə görə naziri yuxarıda yaman sıxışdırıblar. - Eşitməmişəm. Kasıb, sualları bir ucdan qucaq-qucaq üstümə yağdırırdı. Mən də yaxşı tərpəndim. Fərqinə varmadan çox kəsə, yəni «hə», «yox»larla verdiyim cavablar məni düz yarımca saat səsləndirsə də canımı vaxtında qurtardım. Bildiklərimi təfsilatı ilə danışsam bir günlük vaxt azlıq edərdi. Çünki bəzi təfsilatlar iki, üç qollara ayrılırdı. Onların hərəsinin haqqında da xeyli çənə çalsam təhvil-təslim məsələsi yaddan çıxar, səhərə saxlanardı. Odur ki, bildiklərimi də, can rahatlığı «yox»lar, «bilmirəm»lər karvanına qoşdum. Kasıb, təmizlik dəsgahını pencəyini geyinməklə tamlayanda gördü ki, stol-üstü aynanın altındakı şəkillərə baxıram. O gəlib siyirməni açdı. Oradan foto-aparat, bir dənə də elektrik üzqırxanı çıxartdı. - Fotoaparatı anadan olma günümdə bu qız bağışlayıb-deyə barmağını sağdakı şəkildən soldakının üstünə sürüşdürdü

- Üz qırxanı da bu. - İkisilə də gəzirsiniz?

- Burada təəccüblü nə var ki, seçirəm də, hansı yaxşı olar, onu alaram. Mən: «Yazıq sadəlöhv qvzlar! Təmiz qəlbinizin kor məhəbbəti görün sizi kimə bağlamışdır» - deyə şəkillərə yenidən baxanda Kasıb güldü. - Hələ arada ayrı aqnaqaz da olur, gedək! - Hara? İşə başlayaq da.

- Zəng eləyək qıza, bir az da şəhərdə fırlanaq sonra. Dava-dərmanı, avadanlığı təhvil almamış getməyə ona görə razı qaldım ki, dedim bəlkə qızların birilə əhd-peymanı möhkəmlədəcək, hazırlaşıb gəlməsini tapşırıb özü ilə evlərinə aparmasını söyləyəcək. Bu gethaget vaxtı Kasıbın xatirinə dəymək istəmədim. Biz asfalt meydançadan küçəyə adlayanda Kasıb əlini sinəsinə qoyub iki qat, dörd büküm oldu. Gözlərimi onun təzim istiqamətilə zilləyib küçənin o tayında Kasıbın hərəkətini özündə əks etdirən güzgünü-gödək bir oğlanın dayandığını gördüm. Kasıb, aramsız surətdə şütüyən avtomobillərin bizi ayaqlayacağını da vecinə almadan qolumdan tutub məni, ora sürüdü. Onları bir-birinə calayan itaətkar qolların əsarətindən qurtara bilməyən müti çiyinlər əyilib yerə meyl etdi. Dostların ikisi də eyni vaxtda dilləndi.

- Keflər, hallar?

- Sağlığın. İkinci imkanda Kasıb, dostundan qabağa düşdü.

- Qulluğunda olum. - Tələsirəm, sağ ol!

-Tanış olun, bizim həkim yoldaşlardandar. Kasıbın dostu mənə əlinin ucunu uzatdı. Sanki Şahzadə xanım əlini öpüşlərə qərq edilməyə göndərdi. Dostlar xudafisləşdilər. Əllər sinəyə qalxıb başlar səcdəyə endirildi. Ziyarətgahdan beşcə addım uzaqlaşmamış Kasıb dilləndi:

- Şəhər ticarəti idarəsinin baş ambardarıdır. Siz öləsən pul xəzan kimidir, adamı pulla alar. Kasıbın izahı uzanacaqdı onun ikinci dostu ilə rastlaşmasaydıq. Yenə də həmin qayda ilə görüşdülər, hal-əhval tutdular, qonaqlığa dəvət edilib minnətdarlıq göstərdilər. Bükülüb-düzəlmə, sinədə salavat çevirmə ibadəti tez qurtardı. Az keçmiş Kasıb dedi:

- Allahımdan dönüb kimdən əl boyda bir təhqir aktı yazıb, şərə-şurluq eləyib buna versəm kələyini kəsər. Baş müstəntiqdir. Bilirsən nə talkovu oğlandır?! Kasıbın, müstəntiq dediyi oğlanın arxasınca baxmaqdan boynu əyri bitərdi o, üçüncü dostu ilə qəfldən qarşılaşmasaydı. Dostların qolları, kərəntilə ot çalan adamın qolları kimi çox uzaqdan hərlənib şappıldadı. Əllər o qədər sıxıldı ki, elə bil ikisi də köməkləşib bir möhkəm şeyi sındırmağa çalışır, lakin gücləri çatmır, qüvvələri tükəndiyindən titrəşirdilər. Kasıbın şadlığının hüdudu yox idi.

- Kimi görürəm, kimi görürəm. Bay salammələyküm, bay salammələyküm. Üzünü görək, üzünü görək. Ay qardaş haradasan? Kasıbın bu dostu üzünün hər iki tərəfində, çənəsinin altında çapıqları olan, ayaqqabısının burnu şalvarın yer süpürən balağı içində gizlənən bir oğlan idi. Mən onun üzünə baxıb dayanmadım. Sıxılmaqdan əllərim ağrıyırdı. Lakin bu azadlığımın ömrü bircə dəqiqə oldu. Kasıb məni çağırdı.

- Gəl, tanış ol! - O kimdir?

- Bizim uşaqdır, mərifətli uşaqdır. Qayıtmaya bilməzdim. Üzü çapıqdan hər şeyi gözləmək olardı. O əlbəttə görüşmək istəmədiyimə görə mənlə dalaşmazdı. Ancaq dalımca çox kəskin sözlər göndərərdi ki, uzaqda deyildim, onlar mənə çatardı. Əlac yox idi, qayıtdım. Elə qayıtdım, üzü çapığa elə əl verdim ki, belə görüşün könülxoşluğu zəhirmardan acıdır. Kasıb onunla xudahafisləşəndə üz-gözündə qəribə bir ifadə yaratdı. Sanki ata, sədaqətli dostundan öz qanmaz oğlunun günahından keçməsini rica edirdi. Xülasə xəta-bəla hamıdan uzaq olsun, bundan da ayrıldıq. Amma «Avamlığım» Kasıbı dilxor eləmiş, onu cin atına mindirmişdi. Mənlə bayaqkı kimi çiyin-çiyinə getmirdi. Onu «yaxşı başa düşmədiyim» üçün əsəbi gərgindikdən əllərini ovuşdurur, xain öküz kimi üzümə tərs baxırdı. Ürəyində də artıq-əskik deyib məni yamanlamamış olmazdı. Onun üzündə gülməli ifadələr at çapırdı. Təəssüf ki, mən özüm də hirslənmişdim. Mənəvi zövqə qida verən bəzi keyfiyyətləri yığıb yığışdırmaq, duyub mənalandırmaq qabiliyyətini itirmişdim.

- O, şəhərin atamanıdır – deyə Kasıb, ürəyində bayaqdan bəri korun-korun yanan qəzəb ocağının acı tüstüsünü üzümə üfürüb bir qədər sakitləşdikdən sonra səsinə mülayim məzəmmət çatıb hamı ondan tük salır, amma siz…

Dillənsəm səsim tund, sözüm qəliz çıxardı. Bu da Kasıbı məndən tamam aralar, kim bilsin yönünü hansı dostlarının məclisinə salardı. Odur ki, cavab əvəzinə Kasıba elə bir ifadə, elə bir nəzər saldım ki, guya ona həsəd aparıram. Qərib yerdə bu qədər dost qazanmaq, Kamal-ədəb sahibi olub ad-san çıxarmaq hər adamın hünəri deyil. Mənim doğru olmayan səssiz təriflərim itirdiyi əvvəlki ruh yüksəkliyini, təkəbbürünü Kasıbın özünə qaytardı. O, canını təşəxxüs qədbinə sala-sala qiymətli bəxşişimin əvəzinə əlimi sıxıb gülümsəməklə məni alqışladı. Kasıb, nə dərəcədə sözə baxmayan tərs adam olsa da bu yerdə məni eşitməyə bilməzdi. Onu havayı yerə tərifləməmişdim ki?!

- Qayıtmayaq? Dilimi ağrıtmağım, səsimi korlamağım özümə qaldı. Arxadan eşidilən «salamlar olsun!» səsi Kasıbı ilahi bir əl kimi dabanı üstə geri fırlatdı. Kasıbın əli başından yuxarı qalxdı.

- Pa-a-a! Bu qarşı-qarşıya gəlməni əvvəlkilərə bənzətmək olmazdı. Hərəkət, irəliləyiş çox sürətli idi. Əl tormozları onları saxlaya bilməsə yəqin ki, toqaşacaq, bir-birini əzib, yoğurub sıradan çıxaracaqlar. Əl tormozları etibarlı imiş. Dostlar bir-birinə sarıldılar, marça-murçla öpüşdülər. Kasıbın pərgar burnu dəmiryolçu dostunun şapqasını yerə saldı. Qara satin astarında fabrikin paxlavaya oxşar ağ möhürü olan şapqa sanki böyrü üstə dişlərini ağardıb onlara gülürdü. Həsrətlliər yaman bərk qovuşmuşdular, ayrılana oxşamırdılar. Yenə də afərin Kasıba. Başı əlində olmayan belə bir məqamda da məni yadına saldı. - Ə, gəlin, tanış ol! Dəmiryolçu dostu da Kasıb kimi səmimi adammış. Əlimi elə sıxdı ki, sümüklərim şıqqıldadı, barmaqlarımın ucu qızarıb keyidi. Dəmiryolçu, Kasıba bac vermədi. Yarımca saatdan sonra səfərə çıxacaqlarını bildirib dabanına tüpürdü. - Bu, dəmir yolunda baş müfəttişdir – deyə Kasıb, dostunun tərcümeyi-halını danışmağa başladı. Özü heç, bifərasət şeydir. Öz kölgəsindən ürkənin biridir. Amma qardaşı qoçudur. Beş adam göstərsən səhərə birini də sağ qoymaz. Qardaşına görə bunun hörmətini saxlayıram ki, bərk ayaqda lazım olar. Kasıb özünü unudub bircə sözü düz dedi: - «Arifə bir işarə də kifayətdtr». Kasıbın, məni küçələrdə gəzdirərək dostları ilə tanış etməkdə ayrı məqsədi varmış. O çalışırmış ki, dostlarının atamanlığı, qoçuluğu, varlı olmağı ilə məni qorxutsun. Belə bir arxalı adamın yerində işləməyə cəsarət etməyim, qorxudan işləri təhvil götürməyib qaçım. Yazıb müdirimizə belə bir yalan söyləyim ki, dünən əmri alandan sonra çox fikirləşmişəm. Kasıbla neçə ilin dostuyuq. Gedib onun yerini təhvil götürsəm məndən bərk inciyər. Xahiş edirəm bunu nəzərə alın, məni ora göndərməyin. Mən, təngə gəlmişəm. Onsuz da nə yolla olur-olsun qayıtmaq istəyirdim. İndi Kasıb yox, lap onun yüz dostu əl-ələ tutub yolumu hər tərəfdən kəssələr də qərarım qəti idi. Yaxşı oldu ki, mən geri dönəndə Kasıbın başı görüşə qarışdı. Yoxsa onun əyilən ağız-burnunu küçələrdə düzəldə bilməzdim. Mən «üzən yataqxana»ya yollandım. Kasıbın isə əli əldə küçədə qaldı. Güman etdiyimizə görə görüş həvəskarı qaçdığımı o zaman anladı ki, "gəl, tanış olun!" - deyə çağıranda məni yanında görmədi. *** Təhvil götürürdüm

deyəndə də bir az yekə çıxır. Təhvil almağa bir şey vardı ki?! Dərman şkafı bom-boş idi. Üç ay ərzində bir nəfər də xəstə qəbul olunmamışdı. Ancaq üç dəfə də iki min manatlıq dərman-dava alınmışdı. Bunları curnallar göstərirdi. Kasıb, bayaqkı Kasıb deyildi. İndi o, doğrudan da kasıb idi. Yad görsə yazığı gələrdi. Kişinin nər balası bircə saatda kiçilib cücəyə, ağarıb meyidə dönmüşdü. Onun işdən çıxarıldığını eşidib qapının çölündə «mənə iki yüz borcludur. Mənə də yüz əlli, mənim də beş yüzüm düşüb o kələyə. Məndən də yetmiş beş qoparıb» - deyə danışanların səsinə qulaq asa-asa fikirləşdim ki, Kasıb səhərdən bəri küçələrdə, altından girib üstündən çıxdığı dərmanların, öz məvacibinin üstünə gəlmək şərtilə borc götürdüyü pulların hesabına qazandığı dostlarını, ataman və qoçularını təhvil verirmiş mənə. Çox maraqlı təhvil-təslim oldu. Ağıldan Kasıbın bu mükaliməsini yeri gəldikcə danışıb güləcəm.

ƏTRİYYAT

Sehriyyə geyinib kecinib şəhərə gəzməyə çıxanda çoxları çevrilib onun arxasınca baxmamış, ürəyində deməmiş olmazdı: "Görəsən bu hansı bəxtəvərin arvadıdır". Bayaqdan evdə bir özgə bir ruhla, əzilə-əzilə yeriyən dar geyimli modabaz qızlar da Sehriyyəni görərkən ona paxıllıqla baxır, əvvəlki naz qəmzə ilə yeriməyə çalışsalar da bacarmır, ayaqlarını sürüyürdüər. Onları qınamayın, gözəllərin özlərindən göyçəklərinə rast gələrkən bir neçə anlıq kədər duyğuları keçirmələri təbii haldır. Sehriyyə doğrudan da qənirsiz gözəldir. Sizə onun başını dik tutub boğazını buxaqlandırdığınımı, ağ enli sifətini, iri ala gözlərini, tutaş kirpiklərinimi, çiyinlərinə səpələnmiş zil qara qıvrım gur saçlarınımı, yolxsa ufallıca yerişinimi, ehmallıca tərpənişinimi tərifləyim?! Bir sözlə qüdrət öz qələminin ucunu ondan əsirgəməyib, bu xoşbəxt bəndəyə gözəlliyi ver dedikcə verib. Atalar "Ağıl camaldan azar". - deyiblər.

Sehriyyə onlardandır desəm özüm yalan danışmış, sizi də aldatmış olaram. Onun özünü də kirləməyə, hələ dost-tanışın məhucunu da görməyə ağlı çatışar. Xəstə deyil ki? O qəşənglikdə qadının üstünə pis idimi qoyduğu yerdə adamın dili qurumazmı?! Bəlkə əli əyridir? Əsla! Qəlbi tox, gözü tox bir adamın ünvanına belə söz söyləmək insafdandırmı?! Bəlkə… Bəlkə… Ayağı sürcəkdir? Eyib olsun Sehriyyənin haqqında bu cür düşünənlərə! Görürəm mən cavab verm ədikcə sualların ardı-arası kəsilmir, biri o birindən ağır gəlir. Bu onsuz da bilinəcək, niyə gizlədim, açım açığını deyim. Güzarınız şəhərin günbatan tərəfinə düşsə həyətində tək bircə dənə "həmişəcavan" ağacı olan qırmızı qapılı yanaşı üç ev görərsiniz. Həyətin alçaq hasarının məhləyə ötəri boylansanız ortadakı Evin qapısının ağzında içi toz-torpaqla dolu dabanıbasıq ağzıəyri ayaqqabıları, dondurma kağızlarını, alma-armud çöçələrinin, gün dəydiyindən iliyi qaynayan sür-sümük qırıntılarının, görək tullantıları yığılan çirkli vedrənin yan-yörəsində gurnaşan milçəkləri görməmiş olmazsınız. Qapıdan asılan yastı, yekə ağ qıfıla baxıb elə bilərsiniz orada heç kim yaşamır, qonşular da yazıq görüb, baxımsızlıq edib əllərinə gələni atır, bu sahibsiz evin qabağını zibilləyirlər. Bu qənaətə gəlsəniz səhv edərsiniz. Nə qonşular elə qonşudur, nə də ev yiyəsi boynundan basıb keçiləsidir. Axı orda dili gödək, başı aşağı canamana adam yaşamır ki, üstünə ayaq alalar?! Ora bizim Sehriyyənin xanəsidir. Günortayacan yerin içində xumarlanmaq, o üz-bu üzə aşırıla-aşırıla yuxu bişirmək Sehriyyənin adəti idi. O ayılana kimi uşaqlar evin başına tərs dəyirman açırdılar. Oyuncaq şeylərini, şəkilli kitab vərəqələrini döşəmənin üzərinə dağıdır, lümələklənib çarpayının altına təpilmiş çirkli paltarları çıxardır, biri su tökür, digəri sabunlayıb hövkələyir, ayaqlarının altına stul qoyaraq aynanın qabağına tıq vurulmuş bulaşıqlı qabları yerə düşürür, evin içi ilə bir edirdilər. Duranda Sehriyyənin gözləri böyüyür, yığıb yığışdırmağa hövsələsi gəlmir, uşaqları kötəkləyirdi. Onların gözlərinin yaşı qurumamış təlim-tələsik geyindirir, əllərindən tutub anasıgilə aparırdı. Uşaqları başından əkəndən sonra özünə tumar verib şəhərə enir, rəfiqələrinə baş vurur, günü axşam eləyirdi. Axşam isə onları konfetlə, "qızıl açarla" aldadıb yatırdır, ərinin axşam yeməyini əlli qram yağı, iki dilim çörəyi stolun üstünə qoyub özünü çarpayıya sərirdi. Namaz bunun dərdindən evə qonaq gətirməzdi. Qəfil olanda da elə utanardı, elə utanardı yer yarılsa yerə girərdi. Xəcalətindən başını

qaldırıb qonağın üzünə baxa bilməz, pul kimi qızarardı. Namaz Sehriyyə ilə sinəsinin odlu, başının sövdalı, gözünün dumanlı vaxtında evlənmişdi. O zaman o, ağı qaradan, yaxşını pisdən seçməyi bacarmamışdı. Elə bilmişdi bütün aləm Sehriyyənin başındadır. Evləndikləri gündən bir neçə ay keçənədək də nöqsan tutmamışdı. Sonralar gözləri önündə cilvələnən o əlvan rəngli pərdənin arxasında son günlər üçün saxlanan bağlı boxçaları görməyə başlamışdısa da "Ağır ayaq qadındır, başı böyüyüb, tək ev yiyəsidir çatdıra bilmir". - deyə əvvəllər bənd olmamış, araya nıq-nığı salmamışdı. Lakin Sehriyyə yükünü yerə qoyandan sonra da vəziyyətdə yaxşılığa meyl görünməmişdi. Namaz məsləhətə, məşvərətə keçmişdi. Sehriyyə belə olmaz axı? Heç evə hər gün bircə dəfə sada əl gəzdir. Gəlib görəndən, qonşulardan, qonaqdan-qaradan ayıbdır. - Peh! Neynim, cəhənnəmə ki! Hər yarağım düzəlmişdi, qalmışdı bircə tel darağım. Heç uşağının əski-üsküləri yuyub çatdıra bilmirəm, qonağım-qaram da böyürdən çıxdı. Canımı çöldən tapmamışam ki, "Könlü balıq istəyən quyruğunu suya qoyar". Bir adam tap gətir həm sən ağanın pişvazında dayansın, həm əziz-xələflərinin, həm də əsabələrinin qabağında fırlansın - deyə Sehriyyə elə birinci gündən Namazın ağzının üstünə çırpmış, gözünün odunu almışdı.

- Natəmizliyin, səliqəsizliyin uşaqların tərbiyəsizinə, sağlamlığına çox pis təsiri var Sehriyyə! Güclü ata nəzarəti hökm sürməyən ailənin oğul övladı vecsiz, yalançı, işgüzar anna qayğısı ilə böyüməyən qız uşaqları isə tənbəl, başı töhmətli olurlar Sehriyyə! Elə etmək lazımdır ki, onlar böyüyəndə ata-anaya qarğışçı olmasınlar. Cəmiyyətə fayda verməyən, evə xeyri dəyməyən, əlindən bir iş gəlməyən adamın dili gödək, başı aşağı olar. Onların indi öyrənməli vaxtıdır. Onların becərilməli zamanıdır. Ağacın hamının xoşuna gələn bar verməsi bağbanın tədbirindən, bacarığından, ustalığından asılıdır. Danışmaqdan Namazın sözü də qurtarmış əridib Sehriyyənin qulaqlarına doldurmaqdan çənəsi də yorulmuş, söyləməkdən atalar məsəli də qalmamışdı. Sehriyyənin dili ilə desək Namazın yastı-yastı danışmağı onu təbiətindən çıxarırdı.

- Get o ustadnamələrini ana-bacına oxu! Mən onları öyrənməkdən qayıdanda sən qabağımdan əlif-bey deməyə yeni gedirdin. Buna bax a… dişlərini sürtüb ağzının iyini kəsə bilməyən başımda qoz qırmaq istəyir. Əlinə keçən hər kitabdan bir söz əzbərləyib axşam-sabah mənə şikəstə çağırır. Nədən ötrü çəm-xəm elədiyin çox yaxşı başa düşürəm. Səni tutub zorla saxlamıram, əl mənim, ətək sənin, amanın bir günüdür məni düzün düz ortasında qoyub getmə. Ya əlimi kəs, ya ətəyini deyib yalvarmıram ki. Yol açıqdır. Namaz "çox uzandanda" Sehriyyə qapını açıb ona deyirdi: - Buyur, qanımı niyə qaraldırsan? Ev onsuz da uşaqlarındır. Eldən ağız günə qalmamışam ki! Təki qardaşımın canı sağ olsun, bacısını da, hələ bacısının balalarını da saxlar. Namaz demişkən o Sehriyyənin çənə kələ qarasını çoxdan kəsər, dəfə-daraq açmağa qoymaz, aşıq Qərib kimi qabaq-qabağa durub deyişməzdilər. Onu əvvəllər ayrılmaq qərarından döndərən ilahi bir qüvvə vardısa, o da, yeni-yeni üzə gülən, muşqurduqca qığıldaya-qığıldaya, hıçqıra-hıçqıra ətbala quşlar kimi yumulu balaca tumbul əllərini yanlarına çırparaq pərvazlanıb uçmaq istəyən oğlu Rəhim idi. İndi onun yıxıla-yıxıla qabağına yüyürən, dili dolaşa-dolaşa: "Ata səni səni çox istiyiyəm eyy! Lap çox! Biliysən hayası istiyiy? Bax buyası" - deyə barmağını aparıb düz ürəyinin üstünə qoyan gumbul bir şeytan qızı da var. O, belə şirin balaları necə ataydı?! Onlarsız dərd çəkib, qəm yeyib vərəmləməzdimi, uşaqlardan ötrü başından ərşə çəkilməzdimi?! O, ürəyini sinəsindən, gözlərini yerindən necə qoparıb ataydı. "Üzül kəsil" olmaq məsələsi Namazı həmişə düşündürürdü. Ayrılmağı qət edib qapıya sarı yönələndə sanki uşaqları yüyürüşüb gözlərinin yaşını axıda-axıda onun ətəyindən ikiəlli tutub dartışdırırdılar: - Ata, bizi kimə tapşırıb gedirsən?! Körpəlikdən ürəyimizə xalmı salmaq istəyirsən?! Qonşuların uşaqları gəldi-gəldi deyib atalarının gabaglarına yüyürəndə büz yetim kimi boynumuzu bükək?! Onlar "Bu cici donu, bu cici ayaqqabını atam alıb, hələ deyiy biyini də alacam, hə-ə, biyini də" deyib bizə acıq verəndə ürəyimiz içimizəmi düşsün, köksümüzümü ötürək?! Yanıqlı-yanıqlı inildəyəkmi?! Atasına güvənən bütün arzularına atasının köməkliyi sayəsində çatmağı güman edən övladlarının ümid çırağı sönəndə onlar kimə arxalansın?! Ərkimiz çatmayan bir adamın görüm-baxımı bizə fərəhdən çox xəcalət gətirməzmi?! Dayım uşaqlarının köhnə paltarlarını geyinib artıdıqlarını yeyib böyüsək, bunlara sənin ata ürəyin dözərmi, ata! Namazaın təsəvvüründə yaranan bu kədərli səhnə, bu günahsız məsum körpələrin yalvarışları onun daş

ürəyini yumşaldır, gözlərini yaşardır, mənən ağladırdı. "Yox atmayacam!" deyib dala qayıdır, uzun ayrılıqdan sonra qovuşan həsrətlilər kimi onları dizlərinin üstündə oturdur, öpür, öpür, öpürdü. Sehriyyə bunu fövqəladə bir şey hesab etmirdi. Namazın uşaqlarını atıb getməyəcəyini ovcunun içi kimi bildiyindən qorxub ürkmür, yerii gələndə güzəştə getmirdi. Nə ağacını əlindən yerə qoyur, nə də dilinə qədək vururdu. Nə dən qurtarır, nə də dəyirmanın suyu soğulurdu. Boş-boşuna hərlənən daş dişəkdən düşür, bir-birini sürtüb adamın ətini çeynəyə-çeynəyə sümüyünə dirənən görkəsmə bıçaq kimi xırçıltı verirdi.

Tənbəllər adətən paxıl və acıdil olurlar. Tər-tərtəmiz gül kimi ev-eşik saxlayan bir qadını onların yanında tərifləsən başlarından əcəl ağrısı qalxar, yanıb yaxılarlar. Dillərinə düyün də düşsə dillənməmiş, hirslə tumanını yellətməmiş, qab-qacağı bir-birinə vurmamış olmazlar. Belə hallarda onlar çox zaman ərinin acığına evi gözdən saldıqlarını söyləyərlər. Qonşu arvadları təmizkar idilər. Onlar nəinki evə yaxşı baxır, hətta həyətə belə toz qonmağa qoymur, məhləni axşam sabah süpürüb sulayırdılar. Bunu Sehriyyənin gözü götürməzdi. "Keçi suyu niyə bulandırdın?" eləyib gah biri, gah da digəri ilə dalaşardı. Həyətdə yaşayan uşaqlar da Sehriyyənin sirkədən ünd xasiyyətinə bələd idilər. Onun səsi çıxanda siçan deşiyini satın alar, bir-birini itələyə-itələyə özlərini içəri pərçimləyərdilər. Qonşular öz abır-həyalarını gözləyir, Sehriyyəyə baş qoşmurdular. Amma düzü-düzünə, köçüb qaçası olmuşdular. *** İstirahət günü idi. Sehriyyə uşaqları aparıb anasıgilə getmişdi. Dediyinə görə anasının belini yel tutmuşdu. Onun belini ovacaq, düyü şorbası bişirəcəkdi. Ev yenə törtökülü idi. Elə bil köç düşmüşdü. Namaz stolun üstünün şirəsini, pendir sörək qırıntılarını, yağ damcılarını dönə-dönə silib quruladı. Çarpayıların üstünü qaydaya saldı. Oyuncaqları döşəmənin üzərindən qutuya yığıb çarpayının altına itələdi. Neçə vaxtdan bəri sürtülməyən, hər qaynayanda ağzından aşan su çölündə boz dolaşıq cığırlar əmələ gətirən ağ çayniki su ilə doldurdu, pilətəni yandırıb üstünə qoydu. Mağazadan təzəcə alıb gətirdiyi ətə soğan qatıb ət maşınından keçirməyə başladı. Soğanın acısı onun gözlərini ayışdırırdı. … Qapı döyüldü. Gələnlər Namazın qonşuları Qələndərlə Yaqub idi. Bunların ikisi də bir boyda, bir biçimdə adamlardı. Dost olduqları üçün geyimləri eyniyyət təşkil edirdi. Hər iksinin əynində yaxası işləməli Ukrayna rubaşkası, boz rəngli yay trikosundan şalvar vardı. Başlarının tüklərini yana daramışdıdlar. Qələndər, sarıyanız, uzunsifət, Yaquba nisbətən bir qədər arıq idi. Üzünü bürümüş çiçək xəstəliyinin izləri olan çopurlar ona zəhmli görkəm verirdi. Yaqubun simasından isə məzəkarlıq yağırdı. Dodağı həmişə təbəssümlü, gözləri gülüşlü görünürdü. Onun hirsləndiyini, dilxor olduğunu təyin etmək çox çətin idi. Bunlar nəyə gəlmişdilər? Neçə il bir həyətdə yaşasalar da bu anacan "sabahınız xeyir! Aqibətiniz xeyir!"dən başqa kəlmə kəsməmişdilər. Elə bil tikan üstə oturmuşdular, deyəsən harasa tələsirdilər. Namaza elə gəldi. Onlar Sehriyyənin evdə olmamasını bilib özlərini içəri salmış, indi onun böyürdən çıxmasından ehtiyat edirdilər. Namaz onların hərəsinə bir stəkan çay süzdü. - Niyə söhbət eləmirsiniz? - deyib sükutu pozdu. - Söhbət? - deyə Qələndər xırıldayıb udqundu. Adam alması tərpənən blok kimi çənəsinin altına qalxıb aşağı düşdü. - Namaz qardaş heç üzüm tutmur axı. Yaqub qımışdı. Namaz həm yaşca, həm də vəzifəcə böyük olduğuna görə Qələndər sıxılırdı. Ancaq onun bura nə dəxli vardı. - De utanma. Gələn sözü saxlamazlar - deyə Namaz məsələdən hali olan adam kimi güldümsündü. Onun bu münasibəti Qələndərə sərbəstlik verdi.

- Namaz qardaş, Sehriyyə bacı bizim arvad-uşağa göz verib işıq vermir. Gündə dava, qınqılıq… neçə dəfə istəmişik milis idarəsinə məlumat verək ki, asayişimizi pozur. Yenə səni arada görmüşük, sənin xatirindən keçməmişik. İndiyənə kimi nə dedi, nə elə dedi onda işim yox, qardaşım kənddən işini instituta verməyə gəlmişdi. Üç-dörd gün burda qaldı. Sehriyyə bacı Yaqubun arvadına deyirmiş ki, mənim yoldaşım yanına bir malay oğlan dadandırıb. Eyib deyilmi?! Namaz xəcalət təri tökürldü. Kürəyinin arasından buğ qalxırdı. Başı sinəsinə yapışmışdı. Sanki boynundan asılan ağır bir yük qəddini düzəltmək imkanını əlindən almışdı. Yaqub yarasının üstü açılmış kimi Qələndərin söhbətini davam etdirdi.

- Namaz qardaş, elə bilərsiniz sözü bir yerə qoyub həyatınızı pozmağa çalışırıq. Bizim bağımıza mərdimazar toxumu səpilməyib. Sehriyyə bacı bu axır vaxtlar bizim arvad qırığı ilə

yamanca dost olmuşdular. Sevindim. Axı Əzraillə kimin arvadı dost olsa sevinməz?! Sən demə bu yaxınlığın bir qənbərqulusu varmış. Deyirmiş guya mən bulvarda bir kök, fıs-fıs arvadla diz-dizə oturmuşam, deyib gülmüşəm, ona marocna alıb yedirtmişəm. Bizim arvad da mənim kimi ağılsızdı, hər deyilənə inanır. Deyirəm mənə tramvay pulunu da zorla verirsən, cibimin astarını üzünə çevirirsən, məndə pul qoyursan ki, marocnaya verib bir kef də eləyəm. İnanmır ki, inanmır. Əfi ilana dönüb. Mən də arvada lap vurub başımı da yarsa əl qaldıran deyiləm ki, ənkəzləyib yumşaldam. Nala-mıxa çox vuranda başımı açıb qabağına tuturam ki, nə qədər heyfin var al! - Külbaş yeriyə də bilmir. Mən yeyirəm bu sinirir. Sürüməkdən qolum da qurudu - deyə aynanın qabağından həyat qapısına sarı keçərkən qızına acıqlanan Sehriyyənin səsi onları səksəndirdi. Onlar qırğı görərkən özünü ora-bura çırpıb canını gizlətməyə yer axtaran sərçələr kimi vurnuxdular. Qalxıb əllərini qapıya yetirdilər. Qələndər çevrilib.

- Namaz qardaş, bizim… bizim… - deyə kəkələdi.

- Adımız olmasın. - deyə onun sözünü tamamlayan Yaqub əli ilə Qələndəri çölə itələdi - yaxşı tez çıx! Namaz ömründə bu cür bərkdən gülməmişdi. Əlbəttə acığından gülürdü. Sehriyyə yırğana-yırğana otağın o başına keçdi. Donunu soyunub xalat geyindi. Özünü divanın üstünə yıxaraq yelpiklə üzünü yelləməyə , xalatın yaxasını özündən kənara çəkib sinəsinə üfürməyə başladı. Namazın dişi bağırsağını kəssə də özünü saxlaya bilməyib pıqqıldadı. Onun bu "şənliyi" Sehriyyənin ürəyindən xəbər verirdi. Anasından borc pul götürüb "Qırmızı Moskva" ətriyyat yığımına vermişdi. O qədər pulu Namazdan alıb anasına qaytarmalı idi. Namazın qılığına girib xoş bir saat aramaqdansa yara sızıldayan yerdə təbib qarşı gəlmişdi. - Namaz məni təbrik edirsənmi? - deyə Sehriyyə yerindən qalxıb həlim səslə, kirpiklərini bir-birinə işvəkarcasına çalmaqla qolunu onun boynuna saldı. Sinəsini Namazın çiyninə daydı. Üzünü üzünə sürtdü. Sonra redikulundan qutunu çıxartdı. - Bax, bir basabas idi ha… Axırıncını mən aldım. Qutunu açdı. Şüşənin qapağını götürüb onun burnunun altına tutdu. Fikir ver, gör nə yaxşı iylənir? Namazın üzü payız səması kimi tutuldu. Gözləri qıyıldı. Çənəsi əsdi. Əlləri titrədi. Bütün varlığı uçunub lərzəyə gəldi. Sehriyyə onun simasında qoynayıb daşan qəzəbin, hiddətin boz bulanlıq selini görmədi. Görmədi ki,özü bir qanun sayılan bu dəli sel Sehriyyəni də, hələ Namazın iki gözləri qədər sevdiyi əzizi balalarını da apara bilər. Sehriyyə şüşəni azca çalxalayıb lap Namazın burnuna dirədi.

- Nə yaxşı iyi var. Namaz onun qolunu çiynindən rədd edib ayağa qalxdı. - Xoş iy xoş xasiyyətdən gəlməlidir. Yüz belə ətriyyat yığımı da olsa sənin o üfunətli xarakterinin iyini itirə bilməz. - deyə elə bağırdı ki, Sehriyyənin qulaqları batdı və qutunun altından var gücü ilə qaldırıb divara çırpdı. Şüşələr çilik-çilik olub yerə töküldü.

BİR ÖMRÜN SƏHİFƏLƏRİ

Neçə gecə idi ki, Tapdıq kişinin otağından işıq gəlirdi, saz səzi gəlirdi. Bu işıq gecə yarıdan ötəndə sönürdü, bu saz işıq sönəndə susurdu. İndi də hamı yatmışdı, Tapdıq kişi yatmamışdı, qalın bir dəftərin səhifələrinə hərfləri muncuq kimi düzürdü, sözlərin karvanı uzanır, hey uzanırdı. Povestmi, romanmı yazırdı Tapdıq əmi? Yox! Məktubmu yazırdı Tapdıq əmi? Yox! Bu uzunda da məktub olardı?! Ayda-səyəmdə bir dəfə dınqıldaddığı sazı bu son gecələr niyə çox çalırdı Tapdıq əmi? Ydxsa dastan yazırdı? Yoxsa yeri gəldikcə öz əfsanəvi qəhrəmanlarını saz havaları üstə danışdırır, onlara qoşma qoşdurur, onlara gözəlləmə dedirdir Tapdıq əmi? Yox!.. Yox!.. Tapdıq əmi öz hafizəsində solğunlaşan xatirələri köçürür, öz ömrünün, öz gördüyü günlərin bəzi lövhələrini yazır. Yazır ki, oğlanları oxusun, nəvələri oxusun. Yazır ki, o günlər bir hafizədə itməsin, bir yaddaşda getməsin, qocalardan cavanlara yadigar qalsın, bu günlərin çətin başlanğıcı, bu sübhün əsrarlı açılışı onların da xatirələrinə çevrilsin, onların da hafizəsindən başqalarının yaddaşına köçsün, yaddaşında yaşasın…

1930-cu ilin martı… İndiki Qasım İsmayılov rayonunun Qasımbəyli kəndinə getmişdim, artel təşkil etməyə. Kəndin ispalkomu, katibi, carçısı camaatı bir tövləyə harayladı. Dedilər aşıq

gəlib. Sazımı da aparmışdım. Amma geyimim aşıq geyiminə oxşamırdı, meşin şapqam, meşin sərtovum vardı… Camaat yığışdı. Əvvəlcə saz çaldım. Həmin bu saz idi. «Yanıq Kərəmi» çaldım. Sonra bir ayrı hava, deyəsən, «Ruhani»… Camaat elə bildi amazla oxuyacam. Ancaq avazla oxumadım, danışdım. Təzə dünyadan danışdım, camaatı artelə yazılmağa çağırdım. Birdən xəbər gəldi ki, qaçaqlar kəndə doluşublar, artel qurmağa gələni öldürəcək, qanını şüşəyə tutacaqlar. Havaya neçə güllə atdılar. Kişilərin hərəsi bir tərəfə dağılışdı, tövlədə bir ispolkom, katibi, onların carçısı, bir də arvadlar qaldılar. Arvadlvr bir-birinə qısıldılar. İspolkom tüfəngini, tapancasını dabana çəkdi, «qorxma, - dedi,- onları özüm ölənə kimi bir-bir dənləyəcəm, bura yaxın düşməyə qoymayacam».

Katiblə carçını hansv bənd-bərənisə kəsməyə göndərdi. Carçını tez geri çağırdı, nəsə tapşırdı. Carçı yaman diribaş adam idi, elə bil quşun qanadında gedib gəldi, bir dəst arvad paltarı gətirdi… həmin paltarları mənə geyindirdilər, tövlədən arvadlarla bərabər çvxartdılar. Arvadların ikisi məni nökər-qulluqçulu bir evə gətirdilər. Bu evdə bəy də, xanım da, bəyzadə də vardı. Elə bildim ispolkom da düz fikirli adam deyilmiş, aradan salamat çıxacağımı fikirləşibmiş, ya da camaatın gözünün qabağında qan salmaq istəməyibmiş, indi məni bu bəyin evində dustaq kimi saxlayacaqlar, qaranlıq qarışandan sonra aparıb haralardasa öldürəcəklər… Bu bəy Xanlar bəy idi. Gecə məni öz qardaşı oğlu Cəmşid bəylə rayon partiya komitəsinə yola saldı. Yolda qabağımızı neçə dəfə kəsdilər, Cəmşid bəyi tanıyıb buraxdılar. Xanlar bəyin səxavəti məni mat qoymuşdu, öz sağlığıma, inana bilməmişdim, mənə elə gəlmişdi ki, gördüklərim yuxudur. Demə, bizə bəzi bəylər də kömək edirmiş, onlar da o qaranlığın içində korun-korun yaranmış, gözərirmiş. Demə, yeni dünyanın sübh mehi bu ocağı da alovlandırıbmış… Tapdıq əmi qalxdı, sazını divardan aldı, köklədi, «Sarıtel» çaldı. Sanki bir gecənin o vaxtdan simlərdə yatan təntənəsini oyatdı. Sazı yenə divardan asdı, yenə oturdu, yenə yazmağa başladı. 1930-cu ilin apreli… Bir ucdan kolxoz qurulur, bir ucdan da dağılırdı. Hər kənddə bir dəstə qaçar, quldur at oynadırdı. Kəndlərə girmək də, kəndlərdən çıxmaq da qorxulu idi. Hər yanda ölüm hədəsi!.. Raykomun tapşırığı ilə Qızıl hacılı kəndinə getdim. Bu dəfə sazı özümlə aparmadım. Qara Məmməd ispalkom idi. Sonra kolxoz sədri oldu. Ad-san qazandı. Rəhmətlik yaman qoçaq kişi idi. Od-alov idi. Gözünə güllə çaxsan çəkinməzdi… Camaatı bir yerə yığdılar. Mən təzəcə danışmağa başlamışdım ki, at kişnərtiləri, dördnala çapan köhlənlərin fınxırtılarını, tüfəng çaxmaqlarının çaqqıltılarını eşitdik. Çaxnaşma düşdü. Qaçaqlar bizi araya aldılar, heç kimi tərpənməyə qoymadılar. Qara Məmməd qışqırdı:

- Kişiliyiniz olsun! Dili olan da tüfəng-tapancaya əl atarmı? Qaçaqlar atlardan endilər. Biri qabağa çıxdı: - Camaat,-dedi,- dağılışmayın.

- Sonra üzünü mənə tutdu:

- Bacı oğlu, söhbətini elə. Camaat elə bildi qaçaqlar onları gözə qoyurlar, hansı bənd alıb burda qalsa, bir qaçaq gülləsinə qurban olacaq. Ona görə də hərə bir səmtə yön aldı… Daha mən kimə nə deyəydim, kimə nə danışaydım ki!.. Sözümü yerə-göyə demək üçn gəlməmişdim ki!.. Qaçaqların başçısı İsaq idi. Morul Məmmədəli, Kar Nədir, Sarı Qafar onun yanında əl tərpədə, cıqqır çıxara bilmirdilər. İsaq məndən soruşdu: - Sazın hanı? Qara Məmməd cavab verdi ki, toya gəlməyib! İsaq güldü. Mən belə yağlı gülüş görməmişdim. Ağzını göyə tutub güldü. Hər qahqahı göydə bir güllə kimi şaqqıldadı. Sonra qəmli-qəmli dilləndi: - Bir də vayda çalacaq, Məmməd, - dedi,- özü də bizim vayımızda. Gəlsənə o vayımızı irəli çəkək, elə bilək bu gündür, bu gün bu Tapdıq qardaşa bizim vay toyumuzu çaldvraq, öz vayımızı özümüz də görək?.. Qara Məmməd onlardan qorxmadı, dik savab verdi: - Bu gerçək olsaydı, nə dərdimiz vardı!.. İsaq ayrı heəç nə demədi, cibindən bir kağız, bir qələm çıxartdı, tüfənginin qundağının üstündə yazdı, əsgi əlifba ilə yazdı. O yazdıqca mən oxudum. Mənim Qərvənd kəndinə getməli olduğumu hardan bilirdi? Əlbəttə mən öz yolumdan dönə bilməzdim, Qərvəndə getdim. Kəndin girəcəyində məni yaxaladılar, pitixanaya apardılar. Pitixana tüfəng-tapancalı, motal papaqlı, şah qatar, pələ bığlı qaçaqlarla, onlara qoşulanlarla dolu idi. Onlar məndən heç nə soruşmamış İsağın yazdığı kağızı bu dəstənin başçısı bildiyimə uzatdı. O, kağızı avazla oxudu: «Uşaxlar, məni istəyirsinizsə, bu

oğlana toxunmayın». Əvvəl mənə canavar kimi baxan qaçaqların üstünə elə bil su ələndi. Ancaq başçı eşələndi, qeyzi, qəzəbi onu oynatdı, dilləndirdi:

- Bu kənddə kolxoz qura bilməyəcəksən. Bu dəfə dəymirik sənə, çıx get, bir də gəlsən, ananı ağlar qoyacayıq. - Anam yoxdur, - dedim, - atamı da, anamı da sizin taylarınız öldürdü, məni ağlar qoydu. - Dilli-dilli danışma, dilini kökündən qopartdıraram! - Min-min dilin biri kəsilsə dünya heç nə itirməz. Mən bircə damcı ola bilərəm. Seldən bircə damcı əksik olsa…

Elə bağırdı ki, nitqim qurudu: - Bunu rədd eləyin burdan!.. Qaçaqlara nifrət edirəm. Çünki mən köprə ikən ata-anamı öldürmüşdülər. Qazax rayonundakı mənim doğma Cəfərli kəndinin ispalkomunu, katibini öldürmüşdülər. Bizim kənd ispalkomu, katibi öldürüləndə mən orada komsomol katibi idim. Kollektivləşmə başlanana kimi onlrın çox qansızlıqlarını görmüşdüm… Ona görə də nifrətim sonsuz idi. Mən silahsız ola-ola o tüfəngli-tapancalı qudurğanlardan qorxmurdum. Nifrətin necə güclü olduğunu mən ondan görmüşəm. Həm də mənim bu günlərə qanadlanan o ankı arzularım sarsılmaz idi… Tapdıq əmi qalxıb gəzindi. Sazına baxdı. Ona elə gəldi ki, Qərvənddə on gün qalıb gecələyə-gecələyə kolxoz təşkil edəndən sonra rayona gəldiyi, sazını divardan alıb çaldığı hava indi də simlərdədir, pərdələrdədir. Simlər, pərdələr o günlərdən bu anlara saxladığı o əmanəti oxuyur, birdən susur, çünki onda qəfildən xəbər gəldi ki, Ağqıraqlı qaçaq Mustafanın dəstəsi Goran vağzalındakı dükanları dağıtmaqda, hər şeyi talan-qarət etməkdədir. 1931-ci ilin payızı. Yarpaqlar tökülürdü. Acı küləklər əsirdi. Onda mən otryad naçalniki idim. Həştad nəfər otryad üzvüm vardı, hamısı da bir-birindən qoçaq… Tez atlandıq. Gorana ildırım kimi girdik. Gecə idi. Göz-gözü göomürdü. Bizi atəşə tutdular. Dala çəkildik. O vaxt beş-on evdən ibarət olan stansiyanı dövrəyə aldıq. Qaçaqlar gecə də yaman görürdülər, çox sərrast güllə atırdılar. Adamın belə iti gözlü, diribaş oğlanlara heyfi gəlirdi. Fikirləşirdim ki, əks təbdiğat onların iliyinə işləyib, camaatdan qaçırlar, camaatın hesabına dolanırlar, onlara də qəsd edirlər. Düşünürdüm ki, bunlar niyə papaqlarını qabaqlarına qoyub fikirləşmirlər? Bilmirlərmi camaatdan onlara düşmən olmaz, xalqdan ayrı düşənsə çox yaşaya bilməz. Ağqıraqlı Mustafanın dəstəsi aradan çıxdı. Biz də onların arxasınca düşdük. Tapqaraqoyunlu kəndinin yanında dərəyə doluşdular. İşıqlanmamış özlərini Barambat meşəsinə saldılar. Neçəsini vurduq, neçəsini diri tutduq. Bizim də yaralananımız, ölənimiz oldu. Amma biz yenə də yaşayırıq, onlarsa dünyadan izli-tozlu getdilər. İki şey yadımdan heç çıxmır. Biri İsaqla son görüşümdür. Biz onunla yenə Qızıl Hacılı kəndində rastlaşdıq. Aptelə yazılmayanları, araya pərxaşlıq salanları özü tapıb gətirdi. Məndən qabaq özü danışdı. Onlara dedi ki, təzə quruluş yaxşı quruluşdur. Onlara məni göstərdi: - Bu cavan oğlana inanın, özünüzü mənim kimi qırx arşın quyunun dibinə salmayın. Şura hökumətində hamı bərabər olacaq, hamı dost olacaq, adamlar qorxusuz-ürküsüz yaşayacaq. Bəhrə verməyəcəksiniz, biyara getməyəcəksiniz, xums-zəkatdan canınız birdəfəlik qurtaracaq. Az qazansanız azın, çox qazansanız çoxun yiyəsi olacaqsınız. Kələboyunlu, qarpızqarınlının biri ondan kinli-kinli soruşdu: - Belədirsə bəs sən özün niyə qaçaq düşmüsən? İsaq yaman tutuldu, yaman doldu, çıtma vursan qanı qalmazdı. - Qarınınkı Qurandan keçib, bəy, - dedi.

– Öz günahımı özümə bağışlaya bilmirəm. İsaq çıxıb getdi. Yığınsaqdan sonra Qara Məmməd dedi ki, İsaq bizi gözləyir, gedək görək sözü nəlir. Getdik. İsaq bir kasıbın komasında idi. Təksə oturmuşdu. Hardansa bir saz da gətirmişdi. Xahiş etdi ki, bir «Hicran Kərəmi» çalım. Çaldım. Nədənsə o axşam həmin havanı çox qəmli çaldım. Mən çaldıqca İsaq pəsdən-pəsdən oxudu, elə bil ağı deyirdi, ağlayırdı. Mənə elə gəldi ki, bir dövranın sona çatdığına ağlayır, işlədiyi böyük günahların bağışlanmadığına ağlayır. - İsax kişi, - dedim, - raykomla danışım, üzə çıx, o biri qaçaqlar da sənə baxıb bizi incitməsinlər. - Yox, dedi, - sizə bacardığım köməyi edəcəm, amma mən bu üzlə el içinə çıxa bilməyəcəm. Tapdıq əmi qalxıb gəzindi, pıçıldadı: - Öz təqsirini bilən adamın el-oba içində yaşaması necə çətin imiş… Tapdıq əmi əyləşdi. Başını əlləri arasına aldı. Xəyal onu o qanlı-qadalı illərin bir gecəsinə apardı. Onda Ağqıraqlı Mustafa tək qalmışdı, təslim olmurdu, bayatı çəkirdi: Əzizim qarqamışa, Qar yağar qarqamışa. Min bir alqış neynər Bir fələk qarqamışa. Tapdıq əmi qələmi əlinə aldı, yazmağa başladı: o vaxt bəylər, qolçomaqlar, qaçaqlar elə bilirdilər çar hökumətinin yıxılmağı, taxtının devrilməyi də, Şura

hökumətinin qurulmağı da allahın buyruğu, allahın hökmü ilə olub. Daha fikirləşmirdilər ki, zülm-zillət üzərində bərqərar olan quruluş bir gün devriləcəkdir, əyri nə qədər güclü olsa da, bir gün düzlüyün, haqqın ayaqlarına düşəcək, yalvaracaq, aman istəyəcək,. Can verə-verə öləcəkdir. Mən bu düzlüyün gücünü bir də 1932-ci ilin lap əvvəllərində gördüm… Şaxtalı bir qış gecəsi idi. Qərvənddən rayon mərkəzinə qayıdırdım, atlı idim. Qaçaqların seyrələn, həm də çox azğınlaşan vaxtı idi. Yolumu kəsdilər. Əvvəlcə mənə yaxın gələ bilmədilər. Uzaqdan qışqırdılar:

- Tüfəng – tapancanı at! - Qorxmayın, açılanım yoxdur, - dedim.

– Mənim gülləm də, qılıncım da dilimdir. İnanmadılar. - Atı burax, bura gəl! Atdan endim. Səs gədən səmtə getdim. Onlar kolluqda idilər. Üç kişi idi. Tapansaları üzlərində… hər tapancanın lüləsi qaranlıqda bir xəncər tiyəsi kimi ağarırdı. Biri tapancasını qoburuna qoydu, üst-başımı yoxladı. Atım çöldə qaldı, məni qabaqlarına qatdılar, özləri atlandılar, məni pay-piyada apardılar. Atım onlardan əl çəkmədi, şaxtalı qış gecəsində qulun kimi kişnədi, arxamızca götürüldü… Məni bir binəyə gətirdilər. Bu binədə üç işıq yanırdı, üçcə daxma vardı. Məni bu daxmanın birinin qapısından içəri itələdilər. İçəridə bir qarı oturmuşdu, qapqara paltar geyinmişdi, əlləri qoynunda idi. Məni görəndə yaşındı, qalxdı. Qaçaqların biri əlini boynumun kökünə atıb məni bərk-bərk silkələdi:

- Oğlunun düşməni budur, ana!.. Dərisinimi soyaq, gözünə gülləmi sıxaq, xəncərlə doğram-doğrammı eləyək? Sənin ürəyini hansı soyudar, ana!.. Mən bu qaçaqların heç birini görməmişdim, tanımırdım. Atım binənin arxasında kişnəyə-kişnəyə dördnala çapırdı, məni axtardı. Qarı uçuntulu bir əlini göyə qaldırdı:

- Yox,- dedi, - dəyməyin, mənim oğlumu bu öldürməz! Həmin qaçaq irəli yeridi, anasının qarşısında nər-nər nərildədi: - Bu öldürüb! Ana titrək, hüznlü səslə dilləndi: - Oğlumu mən özüm öldürmüşəm, bala!.. Mən ona yaxşı öyüd verə bilməmişəm. Gərək bir ev bir elə düşmən çıxmayaydı. Siz də fikrinizi dəyişin, bala!.. Dəyişin, dəyişin!.. Ana hönkür-hönkür ağladı… Tapdıq əmi sazını divardan yenə aldı. Ömrünün ötən günlərini düşünə-düşünə bir hava çaldı, çala-çala pıçıldadı: - Getdi o günlər, gəldi bu günlər. Necə yaxşı günlərdir bu günlər, bu günlərin qədrini o günləri görənlər daha yaxşı bilir. Əvəzi yoxdur bu günlərin… Çətinliklə qazanılan bu günlər necə şirindir… Adam dünyaya təzədən gəlmək, təzədən yaşamaq, hey yaşamaq istəyir, bu cavan dünyada bir də cavanlaşmaq, bir də qocalmaq, yenə də cavanlaşmaq istəyir… Bu günlərin qədrini, bilin, balalarım!… Bəzəklər, gözəlliklər çoxaldıqca, təzələndikcə ömür uzanır, ruh təzələnir, insan zirvələrə, səmalara qanadlanır, balalarım!..